Xalqın qəzeti!

Xalq qəzeti

№ 63 (30467) 28 mart 2024-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

"Le Fiqaro": Makronun anti-Azərbaycan planı iflasa uğrayıb

Səhifə ⇨ 5

Azərbaycan Avropanın önəmli qaz təchizatçısıdır

Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) Türkiyə və Avropanın enerji təchizatının strateji təhlükəsizliyinə mühüm töhfə verməkdə davam edir". Bu barədə TANAP konsorsiumunun yaydığı bəyanatda bildirilir.

Bəyanatda qeyd olunur ki, Cənub Qaz Dəhlizinin ən mühüm həlqəsini təşkil edən və 30 iyun 2018-ci il tarixindən etibarən kommersiya qazının tədarükü həyata keçirildiyi TANAP ilə nəql olunan qazın həcmi 60 milyard kubmetrə çatıb.

(ardı 9-cu səhifədə)

Özü bir şey deyil, amma könül bulandırır

Səhifə ⇨ 6

Rasmussen Ermənistana yağlı vədlər verir

Səhifə ⇨ 4

Elm Günü və Günün elmi: yeniləşmə prosesləri

Müasir cəmiyyətin, ölkələrin və xalqların yüksək inkişaf meyarlarından birinin elm faktorundan ibarət olması dünya elmi-ictimai fikrində qəbul olunmuş qənaətdir. Elmi cəhətdən geri qalmış elə bir ölkə göstərmək mümkün deyil ki, orada inkişaf və tərəqqi müşahidə olunsun. Ölkələrin elmi göstəriciləri onların ümumi inkişaf səviyyəsinin barometridir. Ona görə də elmin inkişafına diqqət və qayğı göstərmək, elmi, təhsili ön mövqeyə çəkmək inkişaf etmiş dünya dövlətlərinin prioritetləri sırasında xüsusi yer tutur.

Prezident İlham Əliyevin respublikamızda "Elm Günü"nün təsis edilməsi haqqında 9 aprel 2018-ci il tarixli sərəncamı dövlətimizin elmin inkişafına göstərdiyi qayğının və dəstəyin əməli ifadəsidir. Elm Gününün geniş qeyd edilməsi alimlərin, tədqiqatçıların, yeni elmi nəsillərin inkişafı ilə əlaqədar məsələlərin gündəmə gətirilməsi, alimlərin xidmətlərinin dəyərləndirilməsi, müsbət təcrübələrin, elm sahəsində dünyada gedən proseslərin dərslərindən nəticə çıxarılması, elmi maarifləndirmə tədbirlərinin həyata keçirilməsi kimi vəzifələri özündə cəmləşdirir. Elm Günü akademik elmin, ali məktəb elminin və sahə elminin cəmiyyət qarşısındakı hesabatı və bu istiqamətdə gələcək vəzifələrin müəyyənləşdirilməsi və günün elminin proqnozlaşdırılması baxımından xüsusi əhəmiyyətə malikdir.

Azərbaycanda elmin çoxəsrlik tarixi və böyük ənənələri var. Ölkəmizdə həm fundamental və tətbiqi elmlər, həm də humanitar və ictimai elmlər sahəsində davamlı ənənələr formalaşmışdır. Böyük Azərbaycan alimi və mütəfəkkiri Nəsirəddin Tusinin yaratdığı Darüş-Şəfa Akademiyası və Marağa Rəsədxanası dünyanın ən qədim və inkişaf etmiş elmi mərkəzlərindən biri idi. Bu akademik elmi mərkəz Çindən Hindistana, Misirdən İngilistana qədər tanınmış, dünya elminə mühüm töhfələr vermişdir. Universal elmi qabiliyyətlərinə və xidmətlərinə görə Nəsirəddin Tusi türk-müsəlman dünyasının Aristoteli kimi qəbul olunmuşdur. Eyni zamanda, Əbülhəsən Bəhməniyar Azərbaycani, Xətib Təbrizi, Səfiəddin Urməvi, Əbdülqədir Marağayi, Məhəmməd Hinduşah Naxçıvani, Zeynalabdin Şirvani, Abbasqulu ağa Bakıxanov və onlarla başqalarının əsərləri və elmi ideyaları bütün Şərq dünyasında geniş yayılmış, xalqımıza və ölkəmizə şərəf-şan gətirmişdir. Bundan başqa, Avropa ölkələrindən fərqli olaraq, Şərqdə, o cümlədən də Azərbaycanda elmi-nəzəri fikir bədii əsərlər, poeziya sənəti vasitəsilə də inkişaf etdirilmişdir. Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Saib Təbrizi və başqaları elmi-fəlsəfi ideyalarına görə əsl mütəfəkkir şəxsiyyətlər səviyyəsinə yüksəlmişlər. Məhz orta əsrlər Azərbaycan poeziyası həm də zəngin elmi ideyalar xəzinəsi funksiyasını yerinə yetirmişdir.

(ardı 11-ci səhifədə)

Maskalar yırtılır, paktlar üzə çıxır

Brüssel və Vaşinqton Ermənistanı odlu məngənəyə salmağa hazırlaşır

Artıq birmənalı şəkildə demək olar ki, "daşlar ölkəsi" Hayastan müstəqil dövlət deyil. İndi Ermənistan hakimiyyəti Avropaya, bununla paralel olaraq okeanın o tayına özünü müstəmləkə kimi təklif etməyə girişib. Son vaxtlar onun Avropa İttifaqı və Ağ evlə intensivləşən əlaqələrinə məhz bu prizmadan yanaşmaq lazımdır.

İrəvan bu yolla nəyəsə nail olacağına, itirilmək təhlükəsi ilə üzləşdiyi mövcudluğuna dayaq mənbələri tapacağına ümid edir. Amma görünən odur ki, aprelin 5-də rəsmi İrəvan öz ölkəsini "səmimi-qəlbdən" Vaşinqton və Brüsselin ortaq "hərracına" çıxaracaq. Praqmatik hay ekspertləri hesab edirlər ki, Paşinyan bununla ölkəni Rusiya ilə Qərb arasında döyüş meydanına çevirəcək.

Artıq birmənalı şəkildə demək olar ki, "daşlar ölkəsi" Hayastan müstəqil dövlət deyil. İndi Ermənistan hakimiyyəti Avropaya, bununla paralel olaraq okeanın o tayına özünü müstəmləkə kimi təklif etməyə girişib. Son vaxtlar onun Avropa İttifaqı və Ağ evlə intensivləşən əlaqələrinə məhz bu prizmadan yanaşmaq lazımdır. İrəvan bu yolla nəyəsə nail olacağına, itirilmək təhlükəsi ilə üzləşdiyi mövcudluğuna dayaq mənbələri tapacağına ümid edir. Amma görünən odur ki, aprelin 5-də rəsmi İrəvan öz ölkəsini "səmimi-qəlbdən" Vaşinqton və Brüsselin ortaq "hərracına" çıxaracaq. Praqmatik hay ekspertləri hesab edirlər ki, Paşinyan bununla ölkəni Rusiya ilə Qərb arasında döyüş meydanına çevirəcək.

(ardı 6-cı səhifədə)

Yalançı bayraq altında amansız terror

Səhifə ⇨ 5

Türk dövlətlərinin dünyada iqtisadi çəkisi artır

Səhifə ⇨ 9

Almaniyaya nüvə silahı lazımdırmı?

Səhifə ⇨ 15

Pakistan İslam Respublikasının Prezidenti Zati-aliləri cənab Asif Əli Zərdariyə

Hörmətli cənab Prezident!

Pakistan İslam Respublikasının milli bayramı − Pakistan Günü münasibətilə Sizi və qardaş xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik etməkdən məmnunluq duyuram.

Azərbaycan ilə Pakistan arasında münasibətlərin yüksələn xətt üzrə inkişaf etməsi bizi sevindirir. Dini-mədəni köklər və qardaşlıq kimi möhkəm təməllər üzərində qurulmuş dövlətlərarası əlaqələrimizin gündən-günə genişlənməsi, qarşılıqlı etimad və dəstəyə əsaslanan strateji tərəfdaşlığımızın güclənməsi məmnunluq doğurur.

Bu gün siyasi, iqtisadi, hərbi, humanitar və digər sahələrdə səmərəli əməkdaşlığımız ölkələrimizin maraqlarına və xalqlarımızın mənafelərinə xidmət edərək onları bir-birinə daha da yaxınlaşdırır. Aramızdakı fəal siyasi dialoq qarşılıqlı faydalı əməkdaşlığımızın inkişafında mühüm rol oynayır. Biz Pakistana Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına verdiyi daimi dəstəyinə və ədalətli mövqeyinə görə minnətdarıq.

Əminəm ki, Azərbaycan-Pakistan çoxşaxəli münasibətlərinin inkişafı, əməkdaşlığımızın genişləndirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə və qətiyyətlə həyata keçirəcəyik.

Belə bir bayram günündə Sizə ən xoş arzularımı çatdırır, qardaş Pakistan xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

Hörmətlə,

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 mart 2024-cü il

Pakistan İslam Respublikasının Baş naziri Zati-aliləri cənab Məhəmməd Şahbaz Şərifə

Hörmətli cənab Baş nazir!

23 mart − Pakistan Günü münasibətilə Sizi və qardaş xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimiyyətlə təbrik edir və ən xoş arzularımı çatdırıram.

Pakistan Azərbaycanın yaxın dostu, qardaşı və etibarlı tərəfdaşıdır. Biz böyük potensiala malik dövlətlərarası əlaqələrimizin bütün sahələrdə genişləndirilməsinə, o cümlədən strateji tərəfdaşlığımızın daha da dərinləşməsinə xüsusi önəm veririk. Ali səviyyədə qarşılıqlı anlaşma və intensiv siyasi dialoq bunun üçün əlverişli zəmin və imkanlar formalaşdırmışdır.

Qardaş ölkələrimizin istər ikitərəfli qaydada, istərsə də beynəlxalq strukturlar çərçivəsində səmərəli əməkdaşlığı və bir-birini dəstəkləməsi məmnunluq doğurur. Ölkəmizin ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına Pakistanın davamlı dəstəyini və ədalətli mövqeyini Azərbaycan xalqı hər zaman yüksək qiymətləndirir.

Hazırda istər iqtisadi-ticari, istərsə də nəqliyyat, enerji, müdafiə, humanitar və digər sahələrdə qarşılıqlı fəaliyyətimizin genişlənməsi üçün yaxşı şərait mövcuddur. Əminəm ki, xalqlarımızın mənafelərinə uyğun olaraq Azərbaycan-Pakistan ənənəvi dostluq münasibətlərini möhkəmləndirmək, çoxşaxəli əməkdaşlığımızı inkişaf etdirmək və strateji tərəfdaşlığımızı daha da dərinləşdirmək naminə birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Tezliklə Bakıda görüşmək ümidi ilə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, qardaş Pakistan xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 mart 2024-cü il

Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident, Əziz Qardaşım!

Hər il təbiətin canlanmasını qeyd etdiyimiz və torpağın oyanışının rəmzi olan Novruz bayramı münasibətilə Zati-alinizə və qardaş Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Əsrlərə söykənən qədim ənənə olan Novruz bizlərə ümid və bərəkət dolu günləri müjdələyir. Ortaq mədəniyyətimizin mühüm hissəsi olan bu əlamətdar gündə dostluq və qardaşlıq əlaqələrimizin daha da güclənəcəyinə əminəm.

2024-cü ilin bizlər üçün yeni fürsətlərin və uğurların yaşanacağı bir il olmasına ümid edirəm. Ölkələrimiz arasındakı əlaqələrin güclənərək inkişaf etməsi və ortaq hədəflərimizə birlikdə nail olunması yolunda daha sıx əməkdaşlıq etmək arzusu ilə Zati-alinizə, dost və qardaş Azərbaycan xalqına cansağlığı, xoşbəxtlik və firavanlıq diləyirəm.

Rəcəb Tayyib ƏRDOĞAN,
Türkiyə Respublikasının Prezidenti

Banqladeş Xalq Respublikasının Prezidenti Zati-aliləri cənab Məhəmməd Şahabuddinə

Hörmətli cənab Prezident!

Banqladeş Xalq Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Banqladeş arasındakı dostluq münasibətlərinin inkişafı, əməkdaşlığımızın həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə, xüsusilə də ölkəmizin ev sahibliyi edəcəyi COP29 çərçivəsində genişlənməsi istiqamətində birgə səylərimizi bundan sonra da davam etdirəcəyik.

Bu bayram günündə Sizə ən xoş arzularımı çatdırır, dost Banqladeş xalqına əmin-amanlıq və rifah diləyirəm.

Hörmətlə,

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 mart 2024-cü il

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 1760 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 947-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 1760 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (I kitab), maddə 2328 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun Nizamnaməsi"nin 5.6.9-cu yarımbəndi ləğv edilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 mart 2024-cü il

E.S.Babayevin Bakı Dövlət Universitetinin rektoru təyin edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının 2.13-cü bəndinə uyğun olaraq **qərara alıram:**

Elçin Səfəralı oğlu Babayev Bakı Dövlət Universitetinin rektoru təyin edilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 mart 2024-cü il

Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Bu yaxınlarda ölkələrimizin xarici işlər nazirləri arasında ikitərəfli əlaqələrimizin inkişafına xidmət edən olduqca məhsuldar telefon danışığının baş tutması məni çox məmnun etmişdir.

Əlaqələrimizin özülünü təşkil edən dostluq və hörmət prinsiplərinə əsaslanaraq, ölkələrimizin rifahı naminə qarşılıqlı maraq doğuran sahələrdə ikitərəfli əməkdaşlığımızı və iqtisadi əlaqələrimizi gücləndirmək məqsədilə səylə işləməkdə davam edəcəyimi bir daha vurğulamaq istəyirəm.

Sizə yeni prezidentlik dönəminizdə bir daha ən səmimi təbriklərimi çatdırır və fürsətdən istifadə edərək, dərin hörmət və ehtiramımı ifadə edirəm.

Hörmətlə,

Xavyer MİLEY,
Argentina Respublikasının Prezidenti

***

Cənab Prezident!

Bu ilin fevral ayında Azərbaycan Respublikasında keçirilmiş seçkilərdə əldə etdiyiniz qələbə münasibətilə Sizə böyük məmnunluq hissi ilə təbriklərimi çatdırıram.

Mən xalqlarımız arasında dostluq və əməkdaşlıq əlaqələrini davam etdirmək arzusunda olduğumu bildirirəm.

Ümidvaram ki, Sizin rəhbərliyiniz bundan sonra da bütün Azərbaycan xalqına firavanlıq gətirəcəkdir.

Hörmətlə,

Daniel Noboa AZİN,
Ekvador Respublikasının Konstitusional Prezidenti

Rusiya Federasiyasının Prezidenti Zati-aliləri cənab Vladimir Putinə

Hörmətli Vladimir Vladimiroviç!

"Crocus City Hall" konsert zalında baş vermiş dəhşətli terror aktı xəbəri bizi dərindən sarsıtdı.

Bu terror aktını şiddətlə qınayır, Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizə, Rusiya xalqına və həlak olmuş şəxslərin ailələrinə və yaxınlarına səbir, yaralananlara isə tezliklə şəfa diləyirəm.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 mart 2024-cü il

Azərbaycan Moskva terrorunu qətiyyətlə pisləyir

Martın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə zəng edib.

Dövlətimizin başçısı "Crocus City Hall" konsert zalında törədilmiş terror aktı nəticəsində xeyli sayda insanın həlak olması ilə bağlı öz adından və Azərbaycan xalqı adından Vladimir Putinə, Rusiya xalqına, həlak olanların ailə üzvlərinə və yaxınlarına bir daha başsağlığı verib, bütün yaralananların tezliklə sağalmasını arzulayıb.

Prezident İlham Əliyev Azərbaycan tərəfinin bu dəhşətli terror aktını qətiyyətlə pislədiyini bildirərək ölkəmizin və xalqımızın bu ağır saatlarda Rusiyanın və Rusiya xalqının yanında olduğunu qeyd edib.

Rusiya Prezidenti başsağlığına və göstərilən həmrəyliyə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

Dövlət başçıları gələcəkdə də terrorçuluğa qarşı mübarizə sahəsində birgə səylərin davam etdiriləcəyini vurğulayıblar.

Prezidentin Mətbuat Xidməti

Birinci vitse-prezident Novruz bayramı münasibətilə paylaşım edib

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva sosial şəbəkə hesablarında Novruz bayramı münasibətilə paylaşım edib.

Paylaşımda deyilir:

"Əziz həmvətənlər!

Novruz bayramı münasibətilə sizi səmimi-qəlbdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, sevinc, səadət və uzun ömür arzulayıram! Təbriklərə və xoş arzulara görə hər kəsə minnətdaram. Sevginizə, səmimiyyətinizə, hörmət və diqqətinizə görə çox sağ olun! Qoy təbiətin oyanması və yenilənməsinin rəmzi olan bu bayram hər birinizin ocağına sağlıq, qarşılıqlı anlaşma və əmin-amanlıq gətirsin! Allah Vətən uğrunda həlak olmuş bütün şəhidlərimizə rəhmət eləsin, onların doğmalarına və yaxınlarına dözüm və səbir versin. Uca Tanrı mərhəmətini xalqımızdan heç zaman əsirgəməsin!

Dərin hörmət və sevgilərlə,
Sizin MEHRİBAN".

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya

Möhtərəm Mehriban xanım!

Min illərdir ortaq adət-ənənəmiz olan, ümid, yenilənmə və həmrəylik bayramı Novruz münasibətilə Zati-alinizi və qardaş Azərbaycan xalqını Türk milləti adından və şəxsən öz adımdan ən səmimi hisslərimlə təbrik edirəm.

Novruzun rəmzi olan sevgi, birlik və qardaşlığı ölkələrimizdən və bölgələrimizdən kənara bərabər çatdırmaq ümidi ilə Zati-alinizə sağlamlıq, xoşbəxtlik və uğurlar, dost və qardaş Azərbaycan xalqına isə firavanlıq və əmin-amanlıq dolu bir il arzulayıram.

Cevdet YILMAZ,
Türkiyə Respublikasının vitse-prezidenti

Əli Əsədov Mixail Mişustinə başsağlığı məktubu göndərib

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Rusiya Federasiyası Hökumətinin sədri Mixail Mişustinə başsağlığı məktubu göndərib.

Azərbaycanın Baş naziri məktubunda Moskvadakı "Crocus City Hall" konsert zalında terror aktı nəticəsində çoxsaylı insan tələfatı və yaralananların olması xəbərindən dərin hüznlə kədərləndiyini bildirib.

Əli Əsədov həlak olanların doğmalarına və yaxınlarına səmimi-qəlbdən başsağlığı verib, xəsarət alanların tezliklə sağalmasını arzuladığını qeyd edib.

Sahibə Qafarova rusiyalı həmkarına başsağlığı verib

Martın 23-də Milli Məclisin sədri Sahibə Qafarova Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının sədri Valentina Matviyenkoya və Dövlət Dumasının sədri Vyaçeslav Volodinə başsağlığı məktubları ünvanlayıb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, parlamentin sədri "Crocus City Hall" konsert zalında baş vermiş dəhşətli terror aktı nəticəsində dinc sakinlərin həlak olmasından sarsıldığını və kədərləndiyini bildirib. Məktublarda Milli Məclisin sədri bu dəhşətli terror aktını şiddətlə qınayıb, bu hadisə ilə bağlı öz adından və Azərbaycan Respublikası Milli Məclisinin üzvləri adından bütün Rusiya xalqına, Federasiya Şurasının və Dövlət Dumasının üzvlərinə, həlak olanların doğmalarına başsağlığı verib, xəsarət alanlara şəfa diləyib.

Moldova AŞPA-da ölkəmizi dəstəkləyir

Moldovanın Avropa Şurasının Parlament Assambleyasındakı nümayəndə heyəti AŞPA-ya məktub ünvanlayıb.


Deputat în Parlamentul Republicii Moldova

Parliamentary Assembly of the Council of Europe
Milli Majlis of the Republic of Azerbaijan

Letter of appeal

Ion GROZA
MP, Head of the delegation of the Parliament of the Republic of Moldova to the PACE

Natalia DAVIDOVICI
MP, Member of delegation

Andrian CHEPTONAR
MP, Member of delegation

Məktubda AŞPA-nın bu ilin yanvar sessiyasında qəbul edilmiş qərardan sonra təşkilat ilə Azərbaycan arasında yaranmış uçurumun aradan qaldırılması üçün Avropa Şurası Parlament Assambleyasına və Azərbaycan Respublikasının Milli Məclisinə birlikdə çalışmaq üçün çağırış ünvanlanıb.

Sənəddə digər üzv dövlətlər kimi, Azərbaycanın da AŞPA-dakı nümayəndə heyəti vasitəsilə təşkilatın dəyərlərinin və prinsiplərinin irəlilədilməsinə dəstək göstərdiyi qeyd edilib, habelə Avropada təhlükəsizliyə və sülhə mühüm çağırışların olduğu bir dövrdə bütün problemlərin AŞPA çərçivəsində parlamentlərarası dialoq vasitəsilə həllinin vacibliyi bildirilib.

Məktubda, həmçinin Azərbaycan nümayəndə heyətinin AŞPA-nın işində iştirak edə bilməməsinin nə təşkilata, nə də təşkilata üzv dövlətlərə uzunmüddətli fayda gətirmədiyi vurğulanıb.

XQ

Çinin CGTN kanalının "Mərkəz" proqramının xüsusi buraxılışı ölkəmizə həsr olunub

Çin Mərkəzi Televiziyasının və Çin Beynəlxalq Radiosunun daxil olduğu "China Media Group" media korporasiyasının ingilisdilli CGTN kanalının "Mərkəz" proqramının xüsusi buraxılışı Azərbaycana həsr edilib.

Rəsmi şəxslərlə, nüfuzlu ictimai-siyasi xadimlərlə aktual mövzular ətrafında müsahibələr əsasında hazırlanan verilişin aparıcısı Van Quan proqramın əvvəlində ötən il Bakıda Prezident İlham Əliyevlə müsahibəsini, dövlətimizin başçısının Azərbaycan-Çin münasibətləri, bu əlaqələrin inkişafı ilə bağlı haqqında fikirlərini xatırladıb.

Proqramın qonağı olan Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev aparıcının ölkəmizin xarici siyasətinə, Azərbaycan ilə Çinin siyasi, iqtisadi-ticari, humanitar və digər sahələrdə əməkdaşlığına, əlaqələrin inkişaf perspektivlərinə, Çinin "Bir kəmər, bir yol" təşəbbüsü və onun tərkib hissəsi olan Orta Dəhliz üzrə əməkdaşlığa, Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıq məsələlərinə dair və digər mövzularda suallarını cavablandırıb.

H.Hacıyev Prezident İlham Əliyevin Azərbaycan-Çin əməkdaşlığının və tərəfdaşlığının daha da inkişaf etdirilərək keyfiyyətcə yeni səviyyəyə qaldırılmasında maraqlı olduğunu vurğuladığını, iki ölkə arasında münasibətlərin ənənəvi dostluğa əsaslandığını, siyasi əlaqələrdə qarşılıqlı etimadın və dialoqun formalaşdığını, iqtisadi-ticari, mədəni-humanitar sahələrdə səmərəli əməkdaşlığın qurulduğunu, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində fəal əməkdaşlıq etdiyini bildirdiyini diqqətə çatdırıb. Azərbaycanın vahid Çin prinsipini dəstəkləməsi və Çinin Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə daim dəstəyi qeyd olunub.

Bu ilin fevralında ölkəmizdə keçirilmiş növbədənkənar prezident seçkiləri ilə bağlı sualı cavablandıran Hikmət Hacıyev bildirib ki, həmin seçkilər müstəqil Azərbaycanın tarixində ölkənin bütün suveren ərazisində keçirilmiş ilk seçkilər kimi tarixə düşüb. Çünki Azərbaycan 1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra hərbi təcavüz və separatizm səbəbindən ölkənin bütün ərazisində seçkilərin keçirilməsi mümkün olmamışdı. Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyev 2003-cü ildə ilk dəfə dövlət başçısı seçiləndə Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini bərpa edəcəyinə dair xalqa verdiyi vədi yerinə yetirməyə müvəffəq olub.

Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi Cənubi Qafqaz regionunda yeni reallıqlar yaradıb. Regionda Azərbaycanın yaratdığı status-kvo ədalətə, beynəlxalq hüquqa əsaslanır. Fevralda keçirilmiş və Prezident İlham Əliyevin inamlı qələbəsi ilə nəticələnmiş seçkilər Azərbaycan tarixi üçün mühüm hadisə olmaqla yanaşı, ölkəmizin yeni hədəflərə yolunu da açıb. Bu gün rəsmi Bakı daha fəal xarici siyasət yürütməkdə qlobal məsələlərin həllində daha aktiv rol oynamaqda maraqlıdır.

Proqramda qeyd olunub ki, son illər Azərbaycan ilə Çin arasında iqtisadi-ticari əlaqələrin genişlənməsində "Bir kəmər, bir yol" təşəbbüsü xüsusi rol oynayır. Bu xüsusda Orta Dəhlizin imkanlarından maksimum dərəcədə istifadə olunmasının gələcəkdə iqtisadi-ticari münasibətlərə böyük töhfələr verəcəyi vurğulanıb. Həmçinin Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə xüsusi əlaqələrini nəzərə alaraq Çin-Mərkəzi Asiya-Azərbaycan formatında əməkdaşlıq imkanlarından bəhs edilib. Bildirilib ki, Azərbaycan tərəfdaş ölkələrlə birlikdə bu ticarət və nəqliyyat dəhlizinin daha səmərəli şərtlərlə fəaliyyəti üçün davamlı iş aparır.

Verilişdə Azərbaycan və Çinin ikili standartlarla üzləşməsi, bəzi Qərb ölkələrinin digərlərinin daxili işlərinə qarışması, başqalarına dərs keçmək və ya moizə oxumaq cəhdləri qınanılıb.

Verilişdə Azərbaycanda yaşıl keçid, yaşıl inkişaf siyasətindən söz açılıb, bu istiqamətdə Çinin rəsmi Bakının vacib tərəfdaşı olduğu, ölkələrimizin sözügedən sahədə yaxşı əməkdaşlıq imkanlarının mövcudluğu diqqətə çatdırılıb. Qeyd olunub ki, COP29-a ev sahibliyi barədə qərar zəngin neft-qaz ehtiyatlarına malik Azərbaycanın yaşıl keçidlə bağlı qəti iradəsinin təcəssümüdür. Bu cür tədbirlər Azərbaycanın yaşıl keçid, rəqəmsal inkişaf ilə bağlı prioritetlərinin həyata keçməsinə töhfə verəcək. Azərbaycanın COP29 çərçivəsində Qlobal Cənub və Qlobal Şimal arasında həmrəyliyə, konsensusa nail olmaq istiqamətində çalışacağı, inkişaf etməkdə olan, az inkişaf etmiş ölkələr və ətraf mühit dəyişmələrinin fəsadları ilə daha qabarıq şəkildə üzləşmiş kiçik ada ölkələrinin problemlərinin eşidilməsi üçün səylərini əsirgəməyəcək.

Proqramda iki ölkə arasında turizm əlaqələrindən də söz açılıb, bu xüsusda dünyanın ən böyük turist bazarlarından olan Çindən ölkəmizə daha çox səyahətçinin cəlb olunması üçün görülən işlərdən danışılıb. Eyni zamanda, Çin vətəndaşları üçün sadələşdirilmiş viza rejiminin, Bakı ilə Pekin arasında birbaşa uçuşların bu işə töhfə verdiyi vurğulanıb, Azərbaycan ilə Çinin regionları arasında əməkdaşlıqdan bəhs olunub.

Azərbaycan–Çin münasibətləri: "Dostluğun qızıl standartı"

Çin Kommunist Partiyasının rəsmi nəşrlərindən olan "Global Times" qəzeti Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ilə müsahibə əsasında "Dostluğun qızıl standartı" adlı məqalə dərc edib.

H.Hacıyev qəzetin əməkdaşı Sie Ventin növbədənkənar prezident seçkilərində qalib gələn Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycanın Çin ilə münasibətlərinə, ölkəmizin xarici siyasətində Çinin yerinə, Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) sədrliyinə, iki ölkənin iqlim dəyişikliyinə qarşı mübarizə üzrə əməkdaşlığına, Çinin qlobal inkişafdakı payına dair suallarını cavablandırıb.

Administrasiya rəsmisi bildirib ki, Azərbaycan ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra Prezident İlham Əliyev ölkənin inkişafı ilə bağlı yeni prioritetlər müəyyən edib. Ölkəmizin yaxın dost və tərəfdaşı olan Çin ilə münasibətlərin inkişafı da Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biridir. Dövlətimizin başçısı Azərbaycanın Çin ilə strateji əməkdaşlığının və tərəfdaşlığın genişləndirilməsində, yeni səviyyəyə qaldırılmasında maraqlıdır. İki ölkə arasında əla siyasi münasibətlər, iqtisadi-ticarət, o cümlədən enerji, nəqliyyat sahələrində yaxın əməkdaşlıq var. Azərbaycan Vahid Çin prinsipini daim dəstləyir.

Şöbə müdiri bildirib ki, Azərbaycan ilə Çin arasında iqtisadi-ticari sahədə əməkdaşlıq üçün olduqca böyük potensial var. Azərbaycan Çini təkcə dost ölkə deyil, həm də bilik, təcrübə və texnoloji tərəqqi mənbəyi kimi qəbul edir. Prezident İlham Əliyev bu amilləri nəzərə alaraq Çin ilə əməkdaşlığı Azərbaycanın prioritetlərindən biri kimi müəyyənləşdirib. İki ölkə arasında iqtisadi-ticari münasibətlər davamlı inkişaf edir, Çin şirkətləri Azərbaycan iqtisadiyyatının diversifikasiyasında iştirak edir. Bununla belə ölkələrimizin iqtisadi əməkdaşlığı üçün daha geniş imkanlar var. Azərbaycan milli prioritetlərdən biri olan rəqəmsal və yaşıl keçid sahələrində Çini tərəfdaş kimi görür. Bu istiqamətdə əməkdaşlıq çərçivəsində Azərbaycanda bərpaolunan enerji avadanlığı və elektrik avtomobillərinin birgə istehsalı mümkündür.

Azərbaycan–Çin əməkdaşlığında "Bir kəmər, bir yol" təşəbbüsünü xüsusi vurğulayan Prezidentin köməkçisi bu xüsusda Orta Dəhlizin əhəmiyyətini qeyd edib, Azərbaycan və Mərkəzi Asiya ölkələrinin Çin ilə Avropa arasında vacib bağlantını təmin etdiyini deyib.

Azərbaycanın COP29-a evsahibliyindən danışan şöbə müdiri H.Hacıyev bildirib ki, bu tədbirin Azərbaycanda keçirilməsinə dair qərar beynəlxalq ictimaiyyətin ölkəmizə hörmət və etimadının göstəricisidir. Qazıntı yanacağı ixrac edən Azərbaycan yerli, regional və qlobal səviyyədə mövcud keçid layihəsini və gündəmini həyata keçirmək üçün güclü iradə və qətiyyət nümayiş etdirib. İqlim dəyişikliyi hamı üçün əsas çağırışdır və qlobal ictimaiyyətin buna qarşı səylərini birləşdirməsi vacibdir. Azərbaycan COP danışıqlar prosesinin bütün fundamental aspektləri üzrə qlobal səviyyədə daha çox həmrəylik və konsensusa nail olmağı hədəfləyir.

Azərbaycanın iqlim dəyişikliyi ilə mübarizə sahəsində Qlobal Cənub və Qlobal Şimal arasında anlaşma və həmrəyliyin qurulmasına çalışacağını bildirən Administrasiya rəsmisi əlavə edib ki, ölkəmiz COP29 ilə əlaqədar fundamental məsələlər üzrə bütün tərəflərlə dialoqa və qarşılıqlı fəaliyyətə açıqdır. Çin Xalq Respublikası dünyanın aparıcı ölkələrindən biridir. Ona görə də danışıqlar prosesində Çinin mövqeyini anlamaq üçün ilkin məsləhətləşmələrin və müzakirələrin aparılması bizim üçün çox vacibdir.

H.Hacıyev müsahibəsində bəzi media orqanlarında Çin sərmayələrinin və şirkətlərinin "təhlükəsizlik təhdidi" kimi təqdim olunmasını Çinə qarşı ədalətsiz yanaşma kimi şərh edərək, Çin texnologiyasının dünyada ən yaxşılardan biri olduğunu, ölkəmizdə rəqəmsal keçid prosesində də Çin məhsullarından istifadə olunduğunu diqqətə çatdırıb.

İqtisadi inkişafın ədalətli rəqabətə əsaslanmalı olduğunu vurğulayan H.Hacıyev, bəzi ölkələrin təhlükəsizlik və digər mövzularda lazımsız təbliğatla məşğul olduqlarını, bunun dürüst rəqabətə və iqtisadi inkişafa mane olduğunu bildirib. Bəzi ölkələrdə Çin şirkətlərinə qarşı aparılan təbliğat təəssüf doğurur. Bu, Azərbaycanın gündəliyinə uyğun deyil. Çinli tərəfdaşlarla birgə iş ölkəmizin texnoloji inkişafına kömək edir.

Şöbə müdiri Çinin tərəqqisinin, qlobal inkişafa töhfələrinin dost ölkələri sevindirdiyini, Çinin irəli sürdüyü qlobal təşəbbüslərin əməkdaşlığı və inkişafı təşviq etdiyini bildirib. Çin COVID-19 pandemiyası dövründə "peyvənd milliyyətçiliyi" nümayiş etdirən bəzi Qərb ölkələrindən fərqli olaraq ehtiyacı olan ölkələrə peyvənd tədarük edib. Dövlətimizin başçısının Çin liderinə müraciətinə cavab olaraq, Çin Azərbaycana vaksin göndərərək xalqımızın sağlamlığı və rifahına öz töhfəsini verib. Bu həmrəylik aktı ölkələrimiz arasında mövcud olan tərəfdaşlıq nümunəsidir.

Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2024-cü ilin aprel ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəli

S/n	Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri	Qəbulun keçirildiyi şəhər, rayon	Əhatə olunan şəhər və rayonlar	Qəbulun keçirildiyi ü
1	**Daxili işlər naziri** Vilayət Eyvazov	**Hacıqabul**	Hacıqabul, Şirvan, Salyan, Neftçala	0
2	**Ekologiya və təbii sərvətlər naziri** Muxtar Babayev	**Sumqayıt**	Sumqayıt, Qubadlı	0
3	**Baş prokuror** Kamran Əliyev	**Neftçala**	Neftçala, Şirvan, Hacıqabul, Salyan	0
4	**Ədliyyə naziri** Fərid Əhmədov	**Yardımlı**	Yardımlı, Masallı, Cəlilabad	0
5	**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin vəzifəsini müvəqqəti icra edən** Səyyad Salahlı	**Şəki**	Şəki, Oğuz, Qəbələ	7
6	**Gənclər və idman naziri** Fərid Qayıbov	**Tərtər**	Tərtər, Bərdə	8
7	**Rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev	**Ağdaş**	Ağdaş, Yevlax, Göyçay, Qəbələ, Ucar, Zərdab	8
8	**"Azəriqaz" İstehsalat Birliyinin baş direktoru** Azər Məmmədov	**Ağdam (Quzanlı)**	Ağdam, Ağcabədi, Laçın	8
9	**Elm və təhsil naziri** Emin Əmrullayev	**Samux**	Samux, Gəncə, Naftalan, Göygöl, Daşkəsən, Goranboy, Kəlbəcər	9
0	**İqtisadiyyat naziri** Mikayıl Cabbarov	**Ağdam (Quzanlı)**	Ağdam, Ağcabədi	9
11.	**Mədəniyyət naziri** Adil Kərimli	**İmişli**	İmişli, Beyləqan, Saatlı, Sabirabad	9
2	**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova	**Qazax**	Qazax, Ağstafa, Tovuz	9
3	**Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri** Zaur Mikayılov	**Zq ı h a**	Zaqatala, Balakən	9
4	**İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri** Zaur Əliyev	**Daşkəsən**	Daşkəsən, Göygöl	9
5	**Dövlət Gömrük Komitəsinin sədri** Şahin Bağırov	**Bərdə**	Bərdə, Yevlax, Tərtər	22
6	**Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev	**Tərtər**	Tərtər, Bərdə	22
7	**Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Saleh Məmmədov	**Göygöl**	Göygöl, Daşkəsən	25
8	**Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli	**Masallı**	Masallı, Lənkəran, Astara, Lerik, Yardımlı, Cəlilabad, Biləsuvar, Cəbrayıl	25
9	**Baş prokuror** Kamran Əliyev	**Ağdaş**	Ağdaş, Yevlax, Ucar, Zərdab	26
0	**Energetika naziri** Pərviz Şahbazov	**Biləsuvar**	Biləsuvar, İmişli, Saatlı, Sabirabad, Salyan, Neftçala, Cəlilabad, Cəbrayıl	26
1	**Əmək və əhalinin sosial müdafiəsi naziri** Sahil Babayev	**Naxçıvan**	Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur	26
2	**Fövqəladə hallar naziri** Kəmaləddin Heydərov	**Göygöl**	Göygöl, Daşkəsən	26
3	**Kənd təsərrüfatı naziri** Məcnun Məmmədov	**Ağstafa**	Ağstafa, Qazax, Tovuz	26
4	**Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** Anar Quliyev	**Qusar**	Qusar, Quba, Xaçmaz, Şabran	26
5	**Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Mürsəl İbrahimov	**Qəbələ**	Qəbələ, Şəki, Oğuz, Qax, Zaqatala, Balakən	26
6	**"Azərişıq" ASC-nin sədri** Vüqar Əhmədov	**Qazax**	Qazax, Ağstafa	26
7	**"Azəristiliktəchizat" ASC-nin sədrinin vəzifəsini müvəqqəti icra edən** İlham Mirzəliyev	**Abşeron**	Abşeron, Zəngilan	26

Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.

Aİ və ABŞ-ın ermənipərəst açıqlamaları sülh prosesini əngəlləyir

Məlum olduğu kimi, Azərbaycan tərəfi dəfələrlə Avropa İttifaqının, xüsusilə də onun bəzi üzv dövlətlərinin regionumuza münasibətdə müəyyən yanaşmaları və fəaliyyətləri ilə bağlı öz mövqeyini açıq şəkildə ifadə edib.

Bu barədə Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin aprelin 5-də Brüsseldə keçiriləcək Aİ–Ermənistan–ABŞ müştərək konfransı ilə bağlı açıqlamasında bildirilib.

"Bu bir faktdır ki, Azərbaycanla Ermənistan arasında davam edən sülh prosesi Azərbaycan tərəfindən irəli sürülüb və burada o, münaqişədən sonrakı normallaşmanın bütün məsələlərində hər zaman konstruktiv mövqe nümayiş etdirib. Bundan əlavə, 2022-ci il oktyabrın 6-da dördtərəfli Praqa görüşü zamanı delimitasiya edilməmiş sərhədin Ermənistan tərəfi boyunca Azərbaycan və Ermənistan arasında etimadın yaradılmasına töhfə verməsi güman edilən 40 nəfər mülki monitorinq ekspertindən ibarət qısamüddətli Avropa İttifaqı Monitorinq Potensialının (AİMP) yerləşdirilməsinə razılıq verilməsi Azərbaycan tərəfindən xahiş olunub.

Təəssüf ki, ilkin iki aylıq müddətdən sonra Azərbaycanın razılığı olmadan AİMP əhəmiyyətli dərəcədə uzadılmış müddət və daha çox müşahidəçi sayı ilə Aİ-nin Ermənistandakı Missiyasına (AİEM) çevrilib. Bu missiya o vaxtdan etibarən anti-Azərbaycan təbliğat aləti kimi fəal şəkildə istismar edilməkdədir. Bundan əlavə, Kanadanın AİEM-ə qoşulması ilə o, de-fakto NATO missiyası xüsusiyyətinə malikdir. Bu addımlar, həmçinin AİEM-i çəkindirici qüvvə adlandıran və heç bir əsas olmadan Azərbaycanın mümkün müdaxiləsi barədə illüziya yaradan bəyanatlarla müşayiət olunur.

Beləliklə, AİEM-in bəyan edilmiş mandatına uyğun olaraq, tam şəkildə neytral, mülki və silahsız missiya kimi fəaliyyət göstərməsini, habelə Azərbaycanın suverenliyinə, ərazi bütövlüyünə qarşı yönəlmiş və ya onun legitim təhlükəsizlik maraqlarına bu və ya digər şəkildə təsir edəcək istənilən fəaliyyətdən çəkinməsini təmin etmək üçün bütün zəruri tədbirlərin görülməsi məqsədilə Aİ tərəfinə ciddi şəkildə çağırış edilib.

Narahatlıq doğuran digər məsələ Fransanın irəlilətdiyi, Ermənistanın hərbiləşdirilməsinə yönəlmiş və daha böyük hərbi təchizatlara (öldürücü və hücum tipli silah növləri daxil olmaqla) dair yeni vədlərin də yer aldığı kampaniyadır. Aİ-nin digər bir üzvü Yunanıstan bu yaxınlarda Ermənistanla hərbi əməkdaşlığın dərinləşdirilməsi ilə bağlı bəyanatlar verib. Bundan əlavə, Avropa Sülh Fondu çərçivəsində Ermənistana hərbi yardımın göstərilməsi planları və aprelin 5-də keçiriləcək toplantının hərbi komponentləri nəzərdə tutduğuna dair məlumatlar əlavə narahatlıq doğurur və regionda sülh quruculuğu səylərinə xələl gətirir.

Maraqlıdır ki, Azərbaycan 30 ilə yaxın silahlı təcavüzün, işğalın və etnik təmizləmənin qurbanı olduğu halda və hətta BMT Təhlükəsizlik Şurasının Ermənistanın işğalçı qüvvələrinin dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnaməsinə baxmayaraq, heç zaman Aİ və ABŞ-dan bu formada qeyd-şərtsiz dəstək almayıb.

Avropa İttifaqı və ABŞ tərəfindən bu kimi fəaliyyətlər açıq şəkildə birtərəfli və qərəzli xarakter daşıyır və ikili standart yanaşmasına əsaslanır. Sözügedən konfrans tam şəffaf şəkildə keçirilmir, regional inklüzivlikdən məhrumdur, regionda təşviq edilən və çox ehtiyac duyulan etimad quruculuğuna, habelə inteqrasiyaya ziddir. Bu konfrans, erməni tərəfini xoş niyyətlə danışıqlara sövq etmək əvəzinə, regionda yeni bölücü xətlər və "təsir dairələri" yaradır.

Ermənistandakı revanşist əhval-ruhiyyə fonunda Vaşinqton və Brüssel tərəfindən bu kimi açıq ermənipərəst ictimai təzahür Ermənistanın Azərbaycana qarşı yenidən mümkün təxribatlarında Aİ və ABŞ-nin Ermənistanı dəstəkləyəcəyinə dair bu ölkədə təhlükəli illüziya yarada bilər. Bu halda, Aİ və ABŞ Ermənistanın sabitliyi pozan hər hansı mümkün hərəkətinə görə məsuliyyəti bölüşəcəklər.

Beynəlxalq hüququn əsas norma və prinsipləri əsasında davamlı sülhə, sabitliyə və təhlükəsizliyə nail olmaq üçün unikal imkan yarandığı bir zamanda, biz bir daha bütün tərəfləri sülh səylərinə əks təsir göstərən və regionda yeni eskalasiya və gərginlik dalğalarına səbəb ola biləcək addımlardan çəkinməyə çağırırıq", – deyə Ayxan Hacızadə qeyd edib.

XQ

Rasmussen Ermənistana yağlı vədlər verir

Bu ölkəni Rusiyadan qoparmaq cəhdləri səngimir

Avropada Ermənistana ictimai sektorda əsas lobbiçilik edənlərdən olan NATO-nun sabiq baş katibi Anders Foq Rasmussen yenə öz ampluasındadır. Martın 27-də onun rəhbəri olduğu "Ermənistanın dostları şəbəkəsi" qrupunun (?) hesabatı açıqlanıb. Ölkənin dövlət informasiya agentliyi – "Armenpress"in də öz səhifələrində səxavətlə yer ayırdığı hesabatda bildirilib ki, Ermənistan və Avropa İttifaqı (Aİ) arasında viza rejiminin liberallaşdırılması ilə bağlı dialoqun başlaması əlaqələrin dərinləşməsində mühüm addım olacaq.

Hesabat müəllifləri qeyd ediblər ki, viza rejiminin liberallaşdırılması erməni xalqına əhəmiyyətli dəyişikliklər gətirəcək (?), çünki insanlar arasında əlaqələrin artırılması çox vacibdir. Xüsusi vurğulanır ki, Aİ Ermənistana üzvlüyə namizəd statusu təklif etməyə hazır olduğunu mütləq açıq şəkildə bildirməlidir. Bu da mühüm siqnal olacaq. Sənəddə qeyd olunub ki, erməni dövlətinin iqtisadiyyatının böyüməsi, səhiyyənin inkişafı, qanunun aliliyi, insan hüquqlarına və demokratiyaya hörmət missiyasının davamlılığını təmin etmək lazımdır. Aİ-nin köməyi insanların görə və hiss edə biləcəyi dəyişikliklər üzərində cəmləşməlidir.

Ermənistanın ərzaq təhlükəsizliyi ilə bağlı hesabat müəllifləri qeyd ediblər ki, Aİ Hayastana əsas qida məhsullarının idxalına subsidiya verməklə bağlı addımlar atmalıdır. Paralel olaraq, Brüssel daha sabit və iqtisadi cəhətdən effektiv daxili siyasətin işlənib hazırlanmasında İrəvanı dəstəkləməlidir. Hesabatda bildirilib ki, Aİ–Ermənistan münasibətlərini daha da dərinləşdirmək və gücləndirmək üçün enerji sektoruna diqqət yetirmək vacibdir. Ermənistanı Avropa enerji icmasına üzv olmağa dəvət etmək, ölkənin yaşıl enerjiyə keçid sahəsində islahatları sürətləndirməyə, enerji mənbələrinin idxalını və şaxələndirməsinə kömək göstərmək təklif olunur.

Qeyd etdiyimiz kimi, hesabatı hazırlayan "Ermənistanın dostları şəbəkəsi"nin rəhbəri Anders Foq Rasmussen Avropada ictimai sektorda erməni lobbisinin pul gücünə ələ aldığı əsas şəxslərdən biridir. 2001–2009-cu illərdə Danimarkanın baş naziri, 2009–2014-cü illərdə isə NATO-nun baş katibi olan Rasmussen Şimali Atlantika Alyansının rəhbəri vəzifəsindən getdiyi ildə "Rasmussen Global" adlı beynəlxalq siyasi konsaltinq şirkətini təsis edib. Onun mənzil-qərargahı Kopenhagendə yerləşir. Brüssel, Berlin, Vaşinqton və Londonda ofisləri var. Şirkət təhlükəsizlik siyasəti, TransAtlantik əlaqələr, qlobal siyasət, Aİ, enerji sektoru, kritik xammal və kosmosla bağlı məsələlər üzrə "strateji məsləhətlər" verir. Təşkilatın əsas müştərilərindən biri də Ermənistan hökumətidir. Aİ-nin şəffaflıq reyestrinin saytında "Rasmussen Global" şirkətinə aid "Cari maliyyə ilində müştərilər" bölməsinə baxdıqda bunu aydın görmək olar.

Rasmussen ötən ilin yazında Ermənistana səfər etmişdi. Oradan isə Azərbaycanla sərhədə gəlmiş, burada Ermənistan bayrağı fonunda fotolar çəkdirərək, sosial şəbəkədəki hesablarında yerləşdirmişdi. O, səfər təəssüratlarını əks etdirən yazıda isə növbəti dəfə Azərbaycanın ünvanına hədyanlar səsləndirmişdi. Sabiq baş katibin "Project Syndicate" üçün yazdığı geniş məqalədə Laçın–Xankəndi yolunda ekofəalların aksiyası, Ermənistan–Azərbaycan münasibətləri ilə bağlı həqiqətə uyğun olmayan fikirlər yer almışdı.

Ümumiyyətlə, Rasmussen qaranlıq keçmişə malikdir. Məsələyə 2023-cü il sentyabrın əvvəllərində Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev də münasibət bildirmişdi. O, NATO-nun sabiq baş katibinin Ermənistan hökumətindən pul almasını ifşa etmiş, həmçinin BBC-ni qərəzli olmaqda suçlamışdı. "X" platformasında etdiyi paylaşımda H.Hacıyev yazmışdı: "Pullar danışır" seriyasından! Göründüyü kimi, Avropanın ən dəhşətli, qanlı və cinayətkar separatçı qurumu olan qondarma "dqr"in "yubileyi" ərəfəsində Ermənistan hökumətinin və erməni lobbi qruplarının göstərişi ilə yeni dramatik dezinformasiya və manipulyasiya kampaniyasına start verilib. Biabırçılıq olsa da, NATO-nun sabiq baş katibi təbliğat kampaniyasına görə, Ermənistan hökumətindən pul aldığını inkar etmir. Bəzi siyasətçilər riyakarlıqla dünyanı "yaxşı və pis separatçılara və cinayətkarlara" bölürlər. Köhnə vərdişlərdən imtina etmək çətin olur". Prezidentin köməkçisi NATO-nun sabiq baş katibinin hansı mənbələrdən vəsait aldığına dair bəyannaməni də paylaşımına əlavə etmişdi.

Onu da qeyd edək ki, Rasmussen 2016–2019-cu illərdə Ukrayna Prezidentinin müşaviri işləyib. Müşavir kimi Ukrayna dövlətinin rəhbərinə "strateji məsləhətlər" verib. Hazırda Ukraynanın başına gələnlər həm də avropalı müşavirlərin verdikləri məsləhətlərin nəticəsi kimi qiymətləndirilə bilər. Daha əvvəllər isə qərblilər Gürcüstan hökumətinə belə məsləhətlər vermişdilər. Həm Ukraynanın, həm də Gürcüstanın hansı aqibətlə üzləşdiyi hər kəsə məlumdur.

Bu gün isə Rasmussenin timsalında qərbli emissarlar Ermənistana "məsləhət" verməklə məşğuldurlar. Həmin "məsləhətlər"in İrəvanı uçuruma doğru yuvarladığı fikri artıq daha çox siyasi şərhçinin, politoloqun dilindən eşidilir.

Rusiyalı politoloq Fyodor Lukyanov erməni mediasına müsahibəsində bildirib ki, Qərb Cənubi Qafqazda möhkəmlənmək üçün müxtəlif vasitələrdən istifadə edir. Müharibədən sonrakı mərhələdə Ermənistanın ilk vəzifəsi Qərb platformasında danışıqlar təşkil edərək, Rusiyanı nizamlanma prosesindən çıxarmaq idi: "Bununla belə, Qərb danışıqlarda, sonda isə yekun sənədin imzalanmasında vasitəçi, eləcə də gələcəkdə müəyyən təminat verən tərəf olmaq istərdi. Bu ssenari hələ ki, uğurlu alınmır, çünki Azərbaycan ikitərəli əsasda danışıqlar aparmaq istəyir. Ermənistan Qərbdən müəyyən zəmanətlər almaq üçün KTMT-dən çıxmaq və İrəvan–Moskva münasibətlərini dəyişmək kartından istifadə edərək başqa bir ssenari həyata keçirmək istəyir. Almaniya tərəfinin təşkil etdiyi danışıqlardan sonra məlum oldu ki, Qərb vasitəçiliyinin gələcəyi yoxdur və Qərbin regionda mövcudluğunu təsdiqləmək üçün başqa bir ssenariyə ehtiyac var. İndi də Ermənistan KTMT-dən çıxmağa hazırlaşır və bunun müqabilində Qərbdən ciddi dəstək gözləyir. Çünki sülh sazişi ilə Qərbdən dəstək almaq mümkün deyil. Üstəlik, bu gün də sazişin imzalanması ilə bağlı problemlər qalmaqdadır".

Maraqlıdır ki, Rasmussenin çağırışına baxmayaraq, Ermənistanın hazırkı mərhələdə Aİ-yə daxil olmaq üçün ərizə vermək məsələsini müzakirə etmədiyi məlum olub. Ermənistan parlamentinin spikeri Alen Simonyan jurnalistlərə bildirib ki, hazırda ölkəsinin Aİ-yə üzvlük məsələsi müzakirə mövzusu deyil: "Düşünmürəm ki, belə bir hadisə baş verə bilər. Ermənistan hələ müraciət etməyib və Aİ-yə üzv, yaxud namizəd olmaq üçün gözləyir. Bizim görülməli çox işimiz var ki, Gürcüstan və ya Türkiyə kimi illərlə Aİ-yə üzvlüyü gözləməli olmayaq".

Spiker əlavə edib ki, ölkədə bir çox standartların dəyişdirilməsinə ehtiyac var və bu səbəbdən də Aİ üzvlüyü üçün müraciət edilsə, prosesin nə qədər vaxt aparacağı sual altındadır. Halbuki, A.Simonyan bir müddət öncə Ermənistanın Aİ ilə münasibətləri dərinləşdirməyə və üzvlüyə namizəd olmağa hazır olduğunu bəyan etmişdi.

Dövlət İdarəçilik Akademiyasının müşaviri, politoloq Zaur Məmmədov "XQ"yə açıqlamasında bildirdi ki, "Ermənistanın dostları şəbəkəsi" qrupu İrəvandan aylıq məvacib alan, haylar üçün qurulan

və fəaliyyət göstərən bir platformadır. Onun sözlərinə görə, hesabat Avropanın hansısa şəhərində hazırlanmayıb, İrəvanda hazırlanıb: "Mətndə Ermənistanın istəkləri, şantajı və manipulyasiyası yer alıb. Aİ və Ermənistan arasında viza rejiminin liberallaşdırılması məsələsini biz Moldova, Gürcüstan və Ukraynaya münasibətdə də görmüşdük. Brüssel belə addımlar atmışdı. Hər üç ölkədəki vəziyyət göz önündədir. Daha çox vətəndaşların rahatlığından söhbət getsə də bu, əslində, siyasi qərardır. Bəllidir ki, bu qərarların arxasında Rusiyaya qarşı geosiyasi mübarizə dayanır. Əlbəttə, Aİ–Ermənistan münasibətləri onların daxili işidir. Özləri bilərlər. Amma digər tərəfdən bu münasibətlər Cənubi Qafqazdakı proseslərə açıq müdaxilə xarakteri daşıyır. İrəvan Qərbdəki müəyyən mərkəzlərin diktəsi altında bu və ya digər qərarlar verir. Aprelin 5-də Brüsseldə Ermənistanın baş naziri Nikol Paşinyan, Avropa Komissiyasının rəhbəri Ursula fon der Lyayen və ABŞ Dövlət katibi Antoni Blinken arasında görüş keçiriləcək. Həmin görüşün nəticəsi olaraq, Aİ-nin Ermənistanın təhlükəsizliyinin təminatçısı funksiyasını öz üzərinə götürəcəyini elan edəcəyi gözlənilir. Yeri gəlmişkən, bu, Qərbin hansısa dövlətin təhlükəsizliyinin təminatçısı funksiyasını öz üzərinə götürməsi ilə bağlı ilk fakt olacaq".

Z.Məmmədov qeyd etdi ki, ABŞ Ermənistanla bağlı özünün xarici siyasətində bir qədər korrektələr edib. Bu isə Rusiyanın Gürcüstana, Ukraynaya daxil olmasından fərqli olaraq, Ermənistana hərbi müdaxiləsinə heç bir şəkildə imkan verməməkdən ibarətdir. Odur ki, Qərb belə bir funksiyanı öz üzərinə götürməyə hazırlaşır.

Politoloq onu da bildirdi ki, baş verənlər, əlbəttə, Azərbaycanın milli və dövlət maraqlarına təsir etmiş olur: "Çünki biz Qərbin cinah olaraq Ermənistanı seçdiyini görürük. Bunun nəticəsi kimi, ölkəmizə qarşı gələcək təxribatları da istisna edə bilmərik. Eyni zamanda, Qərbin Ermənistanın təhlükəsizliyini təminat altına alması İrəvanın gələcəkdə sülh prosesində imitasiya etməsini daha da gücləndirə bilər. İrəvan yenə arxayınlaşacaq və vaxt uzatmaqla məşğul olacaq. Beləliklə, biz bir daha görürük ki, Qərbin Ermənistanla bağlı təşəbbüsləri regionda sülhə xidmət etmir. Eyni zamanda, bu təşbbüslərin həyata keçirilməsi də problematikdir. Güman ki, Ermənistana verilən bəzi vədlər elə vəd olaraq da qalacaq".

Səxavət HƏMİD
XQ

Replika

ABŞ-nin Cənubi Qafqaza "saman altdan su yeritmək"liyi

İlk baxışda hər şey məntiqə uyğundur. Sadəcə məntiqi deyil, həm də dürüst, ədalətli, beynəlxalq qayda və qanunlara tam uyğun şəkildədir. Əgər dava yorğan davası olmasaydı...

Söhbət bu yaxınlarda Amerikanın nüfuzlu RAND korporasiyasının saytında dərc olunmuş, müəlliflər Co Haberman və Pol Koxmarinin "Birləşmiş Ştatlar Azərbaycanın təhdidlərinə baxmayaraq Ermənistanın təhlükəsizliyinə zəmanət verə bilməz, amma ona kömək əlini uzada bilər" sərlövhəli analitik məqaləsindən gedir.

"Mustafası" elə sərhövhəsindən bəlli olan məqalədə müəlliflər Con Bayden administrasiyasına Şərqlə bağlı strateji tövsiyələrini sadalayırlar. Analitiklər doğru olaraq bu qənaətə gəliblər ki, okeanın o tayındakı Amerika Birləşmiş Ştatları Cənubi Qafqazda yerləşən Erməsintana, onun təhlükəsizliyinə qarant dura bilməz. Bu, ən azı, coğrafi baxımdan mümkün sayılmır.

Bu "analitik özbaşınalıqdan" qeyzlənən ABŞ Dövlət Departamenti Vaşinqtonla İrəvan arasında münasibətlərin "parlaq perspektivləri" ilə bağlı RAND nəşrinə cavab verib. Ağ evin cavabını şərtləndirən vacib məsələlərdən biri də "Amerikanın səsi" radiosunun RAND nəşrində yer alan məqalədəki müddəalarla bağlı Dövlət Departamentinə sorğu göndərməsi olub. Beləliklə, ABŞ Dövlət Departamentinin həm RAND-a, həm də "Amerikanın səsi"nə verdiyi cavabına diqqət yetirək: "ABŞ Cənubi Qafqazın bütün ölkələrinin gələcək demokratik inkişafını, suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü dəstəkləyir. Bu, ABŞ-ın regiondakı siyasətinin əsas prinsipidir və bu məqsədlə biz genişmiqyaslı münasibətlər çərçivəsində Ermənistanla qarşılqılı əlaqələrimizi genişləndiririk".

Diplomatik etiketin bütün nüanslarının gözlənildiyi cavabında Dövlət Departamenti dünyada "demokratiyanın beşiyi" olduğunu da xatırlayaraq bildirib: "Biz Cənubi Qafqaz ölkələrinə sülhü və sabitliyi gətirəcək istənilən xoşməramlı əməkdaşlığı alqışladığımızı bəyan edirik".

Bundan sonra Ağ evin "saman altından su yeritmə" taktikası işə düşür. RAND-a cavabında Dövlət Departamenti açıq mətnlə ərz edib: "Biz Rusiyanın Ukraynaya qarşı davam edən dağıdıcı təcavüzünün, Gürcüstanın suveren ərazilərini işğal altında saxlamasının, eləcə də regionda və bütün dünyada pozuculuq hərəkətlərinin şahidi olduq. Ona görə də Rusiyanı nə Cənubi Qafqazda, nə də başqa bir yerdə etibarlı və vicdanlı müttəfiq və ya tərəfdaş hesab edə bilmərik".

Hər şey aydın oldu. Vaşinqtonun məqsədi təcavüzə məruz qalanların yanında durmaq deyil, Cənubi Qafqazda "yorğanı öz tərəfinə çəkmək"dir. Əgər Ağ evin gerçək məqsədi cavabının preambluasında yazdığı kimi olsaydı, onda bunun isbatını otuz il əvvəl Azərbaycana, daha doğrusu, "Dağlıq Qarabağ münaqişəsi" adlanan problemə yanaşmasında görərdik. Amma biz bunun tam tərsini gördük.

Dövlət Departamenti İran məsələsinə də münasibət bildirib. ABŞ xarici siyasət idarəsinin açıqlamasında deyilir: "Biz ardıcıl olaraq region (Cənubi Qafqaz–red.) ölkələrini İranın niyyətlərini tam qiymətləndirməyə və İran rejimi ilə bütün münasibətlərdə ehtiyatlı davranmağa çağırmışıq".

Burada isə hər şey çoxdan göz qabağına sərgilənmiş vəziyyətdədir. İranla çoxillik mübarizəsində Azərbaycanı öz əlində vasitəyə çevirməyə çalışmış, amma buna heç vaxt nail ola bilməmiş rəsmi Vaşinqton bölgədə nüfuz sahibi Rusiyanın, İranın və hətta NATO-da müttəfiqi Türkiyənin belə maraqlarını öz mənafeyinə qurban verməyə hazırdır.

Qərb analitikləri hesab edirlər ki, ABŞ həm özünün, həm də Ermənistanın maraqları baxımından daha ehtiyatlı strategiya yürütməlidir. Onların fikrincə, Birləşmiş Ştatlar Ermənistanı özünü müdafiə vasitələri ilə təmin etməli, eyni zamanda, İrəvanın qarşısında öhdəliklərinin hüdudları ilə bağlı aydın mövqe ortaya qoymalıdır. Bu versiyanın təsadüfən irəli sürülmədiyi şəksizdir. Buradan Ermənistanın son vaxtlar Qərbə ümidlərinin artmasının səbəbləri də məlum olur.

Məntiq ciddi elmdir. Amma məntiqə uyğun gələn və onunla izah edilən bir çox nəsnələr vardır ki, siyasətdə heç də keçərli sayılmır. Misal üçün, məntiq ikiüzlülüyü qəbul etmir, amma Qərb diplomatiyası Şərqə münasibətdə özünün siyasətini məhz ikiüzlülük, ikili standartlar üzərində qurur. Son 30 ildə bu "xüsusi texnologiya"ya, özündən asılı olmayan səbəblərə görə, Azərbaycan da şahidlik edib.

İ.HƏSƏNQALA
XQ

İrəvan sülhə yaxınlaşmaq istədikcə, Paris onu geri dartır

Sən demə, siyasətin də öz "böyük bacı"sı var imiş...

Əvvəlcə onu deyim ki, köhnə dostum Surxay müəllimin danışdığı ibrətamiz və məntiq etibarilə Fransanın Cənubi Qafqazda oynadığı rol ilə üst-üstə düşən əhvalatı yazının sonuna saxlamağım təsadüfi deyil. Qoy, hörmətli oxucu "böyük bacı"lığın qlobal nümunəsi barədə fikirlərimizi biləndən sonra o məfhumun ibtidai nümunəsi ilə də tanış olsun. Hamının gözü qabağında olan məsələlərdir. Ermənistanın baş naziri Nikol Paşinyan "Biz Azərbaycanın ərazi bütövlüyünü tanıyırıq" deyib (sonradan başına qaxınc olsa da), "Ermənistan Azərbaycanla sülh danışıqlarının aparılmasına tam razıdır" bəyanatını verib, hələ də Ermənistanın nəzarətində olan Azərbaycan kəndlərinin boşaldılmasının zəruriliyini də dəfələrlə dilə gətirib. Ancaq bu "fağır" neyləsin ki, onun istənilən müsbət addımı Parisdə etirazla qarşılanır və bədbəxt geri çəkilməli olur.

Hamının yadındadır, ötən il dekabrın 7-də regionun az qala bütün kütləvi informasiya vasitələri xəbər yaymışdılar ki, Ermənistan COP29-un ev sahibliyinə Azərbaycanın xeyrinə öz namizədliyini geri götürüb. Hətta, Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Respublikası baş naziri aparatının birgə açıqlaması da yayılmışdı: "Xoş niyyətin təzahürü olaraq, Ermənistan Respublikası BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəf Dövlətlərin 29-cu Konfransına (COP29) ev sahibliyinə öz namizədliyini geri götürərək, Azərbaycan Respublikasının namizədliyini dəstəkləyir. Azərbaycan Respublikası və Ermənistan Respublikası ümid edirlər ki, Şərqi Avropa Qrupuna daxil olan digər ölkələr də Azərbaycanın namizədliyini dəstəkləyəcək. Xoş niyyətin təzahürü olaraq, Azərbaycan Respublikası Ermənistanın Şərqi Avropa Qrupundan COP-un Büro üzvlüyünə namizədliyini dəstəkləyir". Bu xəbər Azərbaycanda da, Ermənistandakı mütərəqqi düşüncəli insanlar tərəfindən də məmnunluqla qarşılanmışdı. Ancaq burnunu Cənubi Qafqaza soxmağa çalışanlar da, buradan çıxmaq istəməyənlər də həmin birgə bəyanatdan çox ciddi şəkildə narahat olmuşdular. Hələ bu gün də "qaşınmayan yerdən qan çıxartmaq" üçün minbir bəhanə uydururlar.

Dövlət qurumlarının həmin bəyanatının yayılması o vaxtlara təsadüf edirdi ki, Azərbaycan Prezidenti İlham Əliyev yerli mediaya müsahibəsində son 4-5 ayın ən sabit dövr olduğunu bildirmişdi. Elə İrəvan da bu vəziyyətdən məmnun idi. Ancaq Emmanuel Makronun fikirləri bu məmnunluğu pozmaqdan ibarət idi və o, öz iyrənc ssenarilərini diktə etdi. Nəticədə bu il fevralın 12-də Ermənistan silahlı qüvvələrinin hərbi təxribatı nəticəsində Azərbaycanın Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçusu yaralandı. Yəni, bədxahlarımız sübut etdilər ki, 2023-cü ilin sentyabr ayından bəri yaşanan sabitlik onları qane etmir. Doğrudur, Azərbaycan Ordusu dərhal lazımi addımı atdı və düşmənin təxribat törədən postu darmadağın edildi. Ancaq biz bunu istəmirik, sülhə can atırıq. Həmin təxribatın bilavasitə Ermənistandakı Avropa İttifaqı missiyasının (o missiyanın Cənubi Qafqaza məhz Makronun göstərişi və təşkilatçılığı ilə göndərildiyini artıq uşaqlar da bilirlər) müşahidə həyata keçirdiyi ərazidə baş verməsi təxribatın haradan qaynaqlandığının göstəricisi idi. Yəni güllə atan erməni olsa da, "at!" deyən fransızdır. Başqa bir məqamı da yada salaq. Bu il martın 20-də Azərbaycan parlamentinin Avronest Parlament Assambleyasındakı nümayəndə heyəti oradakı erməni deputatlarının əsassız iddialarını təkzib edərək, öz istədiklərinə nail oldular. Yəni birmənalı olaraq Azərbaycana sərf edən qərarların qəbul edilməsində erməni deputatlar da iştirak edirdilər. Bu ifadəni ona görə qələmə alırıq ki, Avronest adlı həmin qurum 2011-ci il mayın 3-də Brüsseldə Avropa İttifaqının "Şərq tərəfdaşlığı" proqramının parlament formatı olaraq yaradılmışdı. Quruma Azərbaycanla yanaşı, Gürcüstan, Ukrayna, Moldova və Ermənistanın parlamentləri daxildir. Buraya beş ölkənin hərəsindən bir nəfər həmsədrlik edir.

Yəni martın 20-də Avronestin Siyasi məsələlər, insan hüquqları və demokratiya komitəsinin hazırladığı məruzədən "Dondurulmuş Dağlıq Qarabağ münaqişəsi", "Azərbaycan–Ermənistan sərhədlərinin müəyyən edilməsində Almа-Ata Bəyannaməsinə istinad etmə", "Sülh danışıqlarının yalnız Brüsselin vasitəçiliyi ilə aparılması" kimi ifadələrin çıxarılması prosesində ermənilər də iştirak edirdilər. Onlar görəndə ki, dünyanın böyük əksəriyyəti Azərbaycanın tərəfindədir, dillərini sakit saxlamağa məcbur olurlar. Elə olanda isə ya Makron, ya da başqa bir makronabənzər ermənilər dillərini çıxarırlar. Amma, neyləsələr də, faydası yoxdur. Daha qatar keçib. Sonda isə yuxarıda anonsunu verdiyimiz məsələni, daha doğrusu, qatarla yox, avtobusla bağlı əhvalatı təqdim edək. Surxay müəllim deyir ki, rayon mərkəzindən Qəbələnin ucqar kəndlərindən birinə gedən avtobusa mindim. Təxminən 75 yaşı olan bir kişinin yanında əyləşdim. Ömründə ilk dəfə gördüyüm ağsaqqalla xeyli səmimi söhbət etdik. Bir azdan onunla belə bir zarafat etdim:

- Ağsaqqal, o məsələ necə oldu?
- Hansı məsələ?
- Əsas məsələ.
- Əşşi, düzəlmir. Böyük bacısı mane olur. Qadın özü mənə gəlməyə razıdır, bir ləçər böyük bacısı var, deyir ki, daha sənin ərə gedən vaxtın deyil.

Bəli, ləçər böyük bacılar hər yerdə var. Adi məişət məsələsində də mərdimazarlıq edirlər, beynəlxalq məsələlərdə də.

İttifaq MİRZƏBƏYLİ,
Əməkdar jurnalist

“Le Fiqaro”: Makronun anti-Azərbaycan planı iflasa uğrayıb

Fransanın dünyaca məşhur “Le Fiqaro” nəşri Azərbaycana qarşı növbəti qərəzli məqaləsi ilə gündəmə gəlib.

Məqalədə prezident Emmanuel Makronun yürütdüyü siyasətin uğursuzluğu, fəsadları tənqid atəşinə tutulsa da, Fransa hökumətinin Azərbaycana qarşı çirkin siyasəti ortaya qoyulur.

Yelisey sarayının tezisləri ilə işləyən qəzet yazır ki, Fransa lideri ermənilərin taleyinə səmimi olaraq biganə yanaşmayan yeganə liderdir, amma Fransanın təşəbbüsləri nəticə vermir. Məsələn, ötən illər Qarabağa dair Fransanın təşkil etmək istədiyi konfrans ABŞ-nin etirazı səbəbindən baş tutmamışdı. Məqalədən məlum olur ki, 2022-ci ilin oktyabrında Makron “erməni məsələsini” Roma Papası ilə də müzakirə etmək istəyib, özü ilə ermənipərəst yazıçı Silven Tessonu da aparıb. Amma Vatikandan istədiyi dəstəyi ala bilməyib.

Bu məlumatları sızdırmaqla Yelisey sarayı Azərbaycana qarşı planlarının iflasa uğramasına görə məsuliyyəti ABŞ-nin, Vatikanın və digərlərinin üzərinə atmaq istəyir, çünki Makron Prezident İlham Əliyevə məğlub olduğunu etiraf etmək istəmir. Makron məhz İ.Əliyevə məğlub olub.

Fransanın “Le Figaro” nəşrində “Dağlıq Qarabağın yox olması, reallaşdırıla bilinməyən fransız vədinin xronikası” adlı məqalə dərc olunub. Həmin məqaləni olduğu kimi təqdim edirik:

“Erməni anklavının Azərbaycan tərəfindən ildırımsürətli istilasından 6 ay sonra “Le Figaro” Fransanın Ermənistanla əlaqələrinə görə xüsusi olaraq gözləndiyi dosyenin siyasi kulislərinə yenidən qayıdır.

Fransaya Azərbaycanın blokadası nəticəsində 8 ay ərzində təcrid qalmış Dağlıq Qarabağ ermənilərinin yardımına gəlməsi üçün təzyiq etmək məqsədilə Silven Tessonun xəyalına gətirdiyi bütün fikirlərdən bəlkə də bu, ən fantastik olub. Jan Dujardini prezident rolunu oynamağa məcbur etmək və azərbaycanlılar tərəfindən blokada edilmiş anklava aparan yol – Laçın dəhlizinə qədər yürüş təşkil etməkdir. Aktyor yazıçı tərəfindən hazırlanmış mətni oxumalı idi, o sözləri ki, dövlət başçısı özü əraziyə gəlsəydi onları ifadə edə bilərdi. Çünki Tesson əmindir: Emmanuel Makronun səfəri məsələləri dəyişə bilərdi. Məgər Emmanuel Makron “France 2”-nin canlı yayımında yazıçının 2022-ci ilin payızında “Le Figaro Magazine”-də dövlət başçısına qarşı olan dərc edilmiş açıq məktubuna cavab vermədimi: “Biz ermənilər heç bir zaman tərk etməyəcəyik”?

Bu ifadələr, iki il bundan qabaq Latviyanın paytaxtı Riqada dövlət başçısının “Azərbaycanı istila layihəsinə təşviq edən” Türkiyənin “hərbi ismarıclarını” qınayan ifadələrini xatırlatdı. Bakının Dağlıq Qarabağ regionunun 70%-ni götürdüyü 44 günlük müharibənin başlanmasından bir neçə gün qabaq dövlət başçısı döyüşkən tərzdə, bəyan etdi: “Biz bunu heç bir zaman qəbul etməyəcəyik. Fransa öz rolunda olacaq”. Artsaxın Fransadakı nümayəndəsi Hovhannes Guevorkyan yada salır: “Bu o qədər güclü idi! O qədər unikal idi!”

Qabaqcadan müəyyən edilmiş tale

Azərbaycanlıların iştahasını sakitləşdirmək üçün daha çox şey lazım idi. 2023-cü il 19 və 20 sentyabrda Azərbaycan Dağlıq Qarabağın yaşayış məntəqələrinə qarşı ordusunu hücuma keçirtdi. 24 saat ərzində 200-dən çox erməninin öldürülməsi və 400-ünün yaralanması yerli hakimiyyəti silahı yerə qoymağa məcbur etdi. Artsaxlılar özlərini, o cümlədən laqeydliklə parıldayan erməni baş naziri Nikol Paşınyan tərəfindən tərk edilmiş hiss edirlər. 120 000 mülki şəxs qədim dövrdən yaşadığı və 5-ci əsrdə xristianlaşdırılmış bu dağlıq ərazini, öz torpağını tərk etdi. Qondarma Dağlıq Qarabağ respublikası öz rəsmi süqutunu elan etdi. Həmin dövrdən, qınayıcı bəyanatlar xaric, Bakı heç bir sanksiyaya məruz qalmadı. Lakin Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistan cənubunun onun növbəti hədəfi olması ilə bağlı xəbərdarlıq etməsindən sonra Paris Yerevanla hərbi əməkdaşlıq qurdu. Dekabrda, ordunun daşınması üçün 24 ədəd zirehli nəqliyyat vasitəsi və həmkarlarına yüksək dağlarda döyüş hazırlığı keçmək üçün 15 dağ atıcıları Qafqaza göndərildi. Fevralın ortasında Yerevana presedenti olmayan səfər çərçivəsində ordu naziri Sebastian Lekornu yeni hərbi avadanlığın göndərilməsini vəd etdi. Fransanın mövqeyi sürgün olmuş artsaxlıları birmənalı olmayan vəziyyətə salır: “Erməni diplomatik mənbəyə görə, Emmanuel Makron bəlkə də yeganə dövlət başçısıdır ki, həqiqətən də onların taleyindən narahatdır. Onun iştirakı səmimi olub. Mən deyə bilmərəm hansı o, uğurlu ola bilmədi”.

Yeliseydə bağlı qapılar arxasında

2023-cü ilin yanvar ayı, günorta radələrində, Dağlıq Qarabağ hələ blokada altındadır, bir qrup ermənipərəst fəallar və jurnalistlər Yelisey sarayında toplaşıblar. Burada Paskal Brukner, Olivier Veber və futbolçu Yuri Djorkaeff də var. Prezident onlara diqqətlə qulaq asır, sonra söz alır. “Guilde européenne du Raid” QHT-sinin vitse-prezidenti Hugues Devavrin danışır ki, “o, bizə aşırı dərəcədə həssas olan bir sıra məsələ barəsində məlumat verdi”. “O, diplomatik müşaviri İzabelle Dumont ilə hazırladığımız qeydi mükəmməlcəsinə oxumuşdu”.

İlk növbədə prezidentin səfərini tövsiyə edirdi. Hugues Devavrin izah edir - “Mitteranın Sarayevoda etdiyini etmək, əraziyə getmək və bunun daha mümkün olmadığını bəyan etmək”. Qeyd həmçinin, qida və dərmanlardan məhrum edilmiş artsaxlıların yardımına gəlmək üçün humanitar konfransın təşkilini təklif edirdi. Və nəhayət, o, Fransanın mülki-hərbi əməliyyatının başlanmasını tövsiyə edirdi.

Sylvain Tesson yada salır ki, “Biz onun məsələyə yiyələnməsi səviyyəsindən heyran idik. O, azərbaycanlıların iştahasını anlamışdı və bizdən daha çox bədbin idi – bu da normaldır, çünki o, bizdən daha yaxşı məlumatlıdır. O, artıq bilirdi ki, qurudan hücum olacaq”. Qısaca olaraq, intellektuallar mövzunun icraedici qurumda layiq olduğu yerdə olduğu əminliyi ilə çıxdılar. “Makron qarşıdan gələn geosiyasi qarışıqlıq fonunda məsələnin reallıqda Ermənistandan üstün olduğunu anlayırdı”.

Ora tək getməmək...

Dövlət başçısı cavabında deyirdi ki, “rəhbərlərlə müzakirə etmək üçün son şansı verin”. Danışıq yolu ilə çıxış tapmağa cəhd etmək üçün Emmanuel Makron bürosundan, Azərbaycan və Ermənistan rəhbərləri ilə boşuna çoxsaylı telefon danışıqları etdi. Diplomatik mənbə qeyd edir ki, “Bəlkə də o, Prezident İlham Əliyevlə ən çox danışan xarici liderdir”.

Humanitar Konfrans layihəsinə start verildi. Lakin heç bir izah olmadan, o, keçirilməsi nəzərdə tutulan tarixdən bir neçə gün əvvəl ləğv edildi. Diplomatik mənbə qeyd edir ki, “Bütün səylərimizə rəğmən, həmin dövrdə iştirakı gözlənilən tərəflər arasında minimal konsensus yox idi”. Müxtəlif mənbələrə görə, layihə Vaşinqtonun etirazı səbəbindən ləğv olundu. Ondan 6 ay sonra Parisdən heç bir yeni təşəbbüs irəli sürülmür.

Estafeti diaspora götürür. Fransadakı erməni təşkilatlarını koordinasiya edən CCAF-ın həmsədri Frenk Papaziyan da, öz növbəsində, Emmanuel Makrona humanitar yük aparması üçün təzyiq edir. Ermənisilli fransız danışır ki, “O mənə deyir: bu çox yaxşı ideyadır, mən razıyam” və inanmaq istəyir ki, bu “səmimi” istək idi. Lakin bundan sonra heç bir şey baş tutmur. Frenk Papazyan əmin edir ki, bu yenə də “tərəfdaşların çatışmazlığındandır”.

Fransa niyə belə təkdir? Avropa tərəfindən – 27 ölkə Ukraynaya baxır. Bundan əlavə, Avropa İttifaqı və Bakı 2022-ci ilin iyulunda “enerji əməkdaşlığında yeni fəsil” açmaq üçün qaz sazişi imzalayıblar. Beləliklə, vahid mövqeyin olmamasından Azərbaycana sanksiya təklif edən heç bir qətnamə qəbul edilmədi. Erməni məsələsinə yaxından cəlb olunmuş “Renew”un avrodeputatı Natali Loiseau əmin edir ki, “Biz qətiyyətlə döyüşdük, lakin karbohidrogenlərə ümid bəsləyən bir neçə ölkə bu yolla getməyə hazır deyildi”. Bu xüsusda, o, İtaliya və Macarıstanı qeyd edir. Fransanın keçmiş naziri Almaniyaya gəlincə təəssüf hissi ilə qeyd edir ki, "o, Şarl Mişel kimi, təcavüzkarla təcavüzə məruz qalan arasında vasitəçiliyin mümkün olduğuna əmindir. Lakin bu birincinin tərəfini tutmaqdır”.

Hətta Vatikan kənardadır. 2022-ci ilin oktyabrında Roma Papasını ziyarət edərkən, Emmanuel Makron özü ilə Tessonu apardı ki, sonuncu Ermənistanla bağlı söz desin. Yazıçı katoliklərin rəhbəri və onun xarici işlər naziri Qallaqgherin biganəliyindən heyrətə gəldi. O söyləyir ki, “ermənilərin taleyini qeyd edəndə, hər ikisi tam biganəlik, hətta aqressivlik nümayiş etdirdilər”. Yazıçı acı bir şəkildə istehza edir: “Roma Papası yeni qlobal və bir - biri ilə əlaqəli bir dünyanın ortaya çıxması ilə çox məşğuldur, ona görə də ilk xristianlara qayğı göstərə bilmir. Erməni - bir xalqın müəyyən bir torpağa bağlılığı və müəyyən bir mənəviyyata mənsub olması deməkdir. Bu əbədi dəyişiklik ayaqqabısında bir daşdır. Ermənistan buna görə narahat edir. Vatikanda olduğum zaman başa düşdüyüm bu oldu”.

Ərazi vahidlərinin dəstəyi

Bu ümumi laqeydlik içərisində fransız dəstəyi fərqli şəkildə özünü göstərir. Senat bir çox qətnaməyə səs verir. Seçkilərdə seçilmiş şəxslər, xüsusilə də Auvergne-Rhône-Alpes regionunun prezidenti Laurent Vauquiez və avrodeputat François-Xavier Bellami səfərlər edirlər. Fransız ərazi vahidləri səfərbər olunur. Sol siyasi düşərgədə Anne Hidalgo Artsax istiqamətində humanitar yük göndərir. Xavyer Bertrandan başlayaraq ekoloqçu Janna Barsegyandan keçərək Bruno Retailleauya qədər sağçı və solçulardan ibarət balaca qrupla əhatə olunmuş Parisin meri 2023-cü ilin avqustun sonunda rus sülh əsgərlərinin saxladığı sərhədə qədər səfər edib. Lakin Île-de-France, Hauts-de-France, Occitanie və Pays de la Loire regionları, eləcə də Paris, Marsel və Strasburq şəhərlərinin loqosunu daşıyan və uşaq qidası və elektrik generatorlarla yüklənmiş yük maşınları digərləri kimi blok edilmiş vəziyyətdə qalırlar.

Parisin Minsk qrupunun həmsədri rolunun tələb etdiyi neytrallığı dərk edən Xarici İşlər Nazirliyi (ATƏT tərəfindən 1992-ci ildə Qafqazda münaqişənin həlli üçün yaradılmış Fransa, ABŞ və Rusiyadan ibarət vasitəçi qrup) sakit qalır. Ketrin Kolonna İrəvana yalnız Azərbaycanın 19 və 20 sentyabr 2023-cü il tarixli hərbi əməliyyatından sonra səfər edir. Ermənilərin kütləvi köçü fonunda fransız diplomatiyasının rəhbəri vəziyyətin “etnik təmizləməyə bənzəməsinin” mümkünlüyünü hesab edir və hərbi avadanlığın çatdırılmasını elan edir.

Bir neçə gün sonra İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın ziyarət etməkdən imtina edəcəyi Qranadadakı Avropa Sammitində Emmanuel Makron Bakıya qarşı "sanksiya vaxtının olmadığını" bəyan edəcək. O, azərbaycanlı həmkarına "təzyiqi saxlamaq" və Ermənistanı “ən yaxşı şəkildə qorumaq" üçün zəng edəcəyinə dair öhdəlik götürəcək. Prezident Əliyevi heyrətləndirmək üçün kifayət etmədi. Azərbaycan Prezident Administrasiyası kommünikesində Fransanı Ermənistanı “silahlandırmaqla” Qafqazda “yeni müharibə hazırladığında” ittiham edəcək. Fevralda, 97% səslə yenidən seçilmiş İlham Əliyev öz inauqurasiya çıxışında bəyan edib ki, Ermənistanla mübahisəsində heç bir beynəlxalq vasitəçilik istəmir. Və Fransanın ünvanına “Öz işinizlə məşğul olun”, – deyə vurğulayıb.

PKK-nın Almaniyada Türkiyə konsulluğuna basqını

Türkiyənin Almaniyada yerləşən baş konsulluğu PKK tərəfdarlarının hücumuna məruz qalıb. Türkiyə XİN bununla bağlı bəyanat yayıb. Bəyanatda deyilir ki, martın 26-sı gecə saatlarında Türkiyənin Hannoverdəki baş konsulluğunun giriş qapısına PKK təşkilatının tərəfdarları hücum ediblər.

Hücumdan sonra Almaniya rəsmiləri ilə əlaqə saxlanılaraq, alman hakimiyyətinin Türkiyə vətəndaşlarının və diplomatik nümayəndəliklərinin təhlükəsizliyinə cavabdeh olduğu xatırladılıb.

*

Dünən Almaniyanın Türkiyədəki səfiri Yurgen Şults törədilən təxribatla əlaqədar Türkiyə Xarici İşlər Nazirliyinə çağırılıb.

Türkiyə tərəfinin kəskin mənfi mövqeyi həm Almaniyanın rəsmi strukturlarının, həm də bu ölkənin Türkiyədəki diplomatik missiyasının rəhbərinin diqqətinə çatdırılıb.

Türkiyə tərəfi təxribatda iştirak edənlərin hamısının məsuliyyətə cəlb olunmasını tələb edib.

XQ

Qarabağ libasları UNESCO-nun “geyim günü”ndə

Azərbaycan Parisdə UNESCO-nun mənzil-qərargahında keçirilən "Ənənəvi geyim günü"ndə iştirak edib.

UNESCO-nun İcraiyyə Şurasının 219-cu sessiyası çərçivəsində 27 Mart Ənənəvi Geyim Günü qeyd edilib.

Azərbaycanın UNESCO yanında Daimi nümayəndəliyinin üzvləri Şuranın son iclasına Qarabağa aid olan milli geyimlərdə qatılıblar. Milli geyimlərimiz zərifliyi, incəliyi, eləcə də milli bəzəkləri ilə diqqəti cəlb edib.

Qeyd edək ki, bu təşəbbüs İndoneziya və Polşanın UNESCO yanında Daimi nümayəndəlikləri tərəfindən ortaq mədəni müxtəlifliyi və irsi, eləcə də qarşılıqlı anlaşmanın təbliği və təşviqi məqsədilə irəli sürülüb. UNESCO-nun iclasında ilk dəfə daimi nümayəndələr milli geyimdə iştirak ediblər.

XQ

Xocalıda 500 ev dirçəldilir

Mayın sonundan başlayaraq Xocalıya ilk köç nəzərdə tutulub.

Bunu Xocalı rayon İcra Hakimiyyətinin başçısı Şahmar Usubov jurnalistlərə açıqlamasında deyib. O bildirib ki, hazırda təmizlik işləri başa çatmaq üzrədir: “Yenidənqurmaya yaramayan evlərin söküntüsü aparılır. Bununla da paralel olaraq tikinti işləri həyata keçirilir. Xocalıda 500-ə yaxın evdə təmir-tikinti, abadlıq işləri görülür. Yollar, qaz və sular çəkilir”.

İcra başçısı qeyd edib ki, may ayının sonu, iyun ayının əvvəllərində Xocalıya ilk köç nəzərdə tutulub: “Birinci 50 ailə öz doğma el-obalarına qayıdacaq. Daha sonra davamlı olaraq köç olacaq. Xocalı şəhərinin 8400, Xocalı rayonun 17000 min əhalisi var”.

XQ

Füzuli 35 ailəni də ağuşuna aldı

Dünən Füzuli şəhərinə daha 35 ailə – 134 nəfər köçürülüb.

Xatırladaq ki, indiyədək Füzuliyə 631 ailənin, yəni 2379 nəfərin daimi məskunlaşması təmin edilib.

Maskalar yırtılır, paktlar üzə çıxır

(əvvəli 1-ci səhifədə)

Ermənistan hakimiyyəti illüziyaya qapılır

Aprelin 5-də baş nazir Nikol Paşinyanın Brüsseldə Avropa Komissiyasının sədri Ursula fon der Lyayen və ABŞ Dövlət katibi Antoni Blinkenlə nəzərdə tutulan görüşünün yekunu kimi Ermənistana təhlükəsizlik zəmanəti verəcək paktın imzalanacağı gözlənilir. Üçtərəfli görüşlə bağlı sızan məlumatlara görə, bu pakt Ağ ev və Brüsselin vasitəçiliyi ilə Ukrayna ilə Böyük Britaniya, Fransa, Almaniya və digər ölkələr arasında imzalanan ikitərəfli sazişlərin analoqu olmalıdır. Burada söhbət, faktiki olaraq, hərbi paktdan gedir. İmzalanacaq paktın təkcə Azərbaycana deyil, ümumilikdə, region ölkələrinə qarşı yönələcəyini indidən söyləmək olar. ABŞ-nin və Avropanın məqsədi Cənubi Qafqazda yenidən hərbi qarşıdurma yaratmaq, bölgə ölkələrini qeyri-sabitlik və fəlakət burulğanına sürükləmək, burada ikinci Ukrayna ssenarisi reallaşdırmaq, Rusiyaya qarşı daha bir cəbhəni açmaqdır. Əgər "üçlər"in bu planı reallaşarsa, o zaman Cənubi Qafqazda geosiyasi hadisələrin sürətlə inkişaf edəcəyini əminliklə proqnozlaşdırmaq mümkündür.

Ermənistan təhlükəsizlik şurasının katibi Armen Qriqoryanın qarşıdakı görüşlə bağlı "tədbir Ermənistanın müqavimətini gücləndirmək məqsədi daşıyır" fikrinə də bu kontekstdə yanaşmaq lazımdır. Digər bir məlumata görə, konfransda Lyayen, Blinken və Paşinyan Qarabağı tərk etmiş ermənilərin geri dönmələri məsələsini də müzakirə edəcəklər. Üçlərin konfransı və onun proqnozlaşdırılan nəticələri Azərbaycana qarşı hərbi təzyiqin, müdaxilə planının tərkib hissəsi olmaqla, həm də İrəvanı revanşa şirniləndirmək planıdır.

2024-cü il aprelin 5-də Brüsseldə keçiriləcək Aİ–Ermənistan–ABŞ birgə konfransı ilə bağlı yerli medianın suallarını cavablandıran Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə bildirib ki, bu tədbir açıq şəkildə birtərəfli və qərəzli xarakter daşıyır və ikili standart yanaşmasına əsaslanır: "Konfrans tam şəffaf şəkildə keçirilmir, regional inklüzivlikdən məhrumdur və regionda təşviq edilən və çox ehtiyac duyulan qarşılıqlı etimad quruculuğuna və inteqrasiyaya ziddir. Bu konfrans, erməni tərəfini xoş niyyətlə danışıqlara sövq etmək əvəzinə, regionda yeni bölücü xətlər və "təsir dairələri" yaradır".

XİN rəsmisinin açıqlamasında, həmçinin qeyd olunub ki, "Ermənistandakı revanşist əhval-ruhiyyə fonunda Vaşinqton və Brüssel tərəfindən bu kimi açıq ermənipərəst ictimai təzahür Ermənistanın Azərbaycana qarşı yenidən mümkün təxribatlarında Aİ və ABŞ-nin İrəvanı dəstəkləyəcəyinə dair təhlükəli illüziya yarada bilər".

XİN-in məlumatında daha sonra deyilir ki, bu halda Aİ və ABŞ Ermənistanın sabitliyi pozan hər hansı mümkün hərəkətinə görə məsuliyyəti bölüşəcəklər: "Beynəlxalq hüququn əsas norma və prinsipləri əsasında davamlı sülhə, sabitliyə və təhlükəsizliyə nail olmaq üçün unikal imkan yarandığı bir zamanda biz bir daha bütün tərəfləri sülh səylərinə əks təsir göstərən və regionda yeni eskalasiya və gərginlik dalğalarına səbəb ola biləcək addımlardan çəkinməyə çağırırıq".

Şimaldan və Cənubdan gözlənilən "şapalaqlar"

Mövzu ilə bağlı "XQ"-yə açıqlama verən **Milli Məclisin deputatı, politoloq Rasim Musabəyov** hesab edir ki,

indiki şəraitdə nə Avropa İttifaqı, nə də ABŞ Ermənistana təhlükəsizliklə bağlı təminat verə bilməzlər: "Çünki onların səfirlərdən və müşahidəçilərdən başqa İrəvanda mövcudluğundan danışmaq olmaz. Bu ölkədə heç bir kommunikasiyaya da malik deyillər. Amma Ermənistanın sərhədlərini rus hərbçiləri qoruyurlar. O tərəfdə isə İran dayanıb. Buna görə Brüsselin və Vaşinqtonun İrəvana nəsə verəcəyi və onun Bakı ilə ayaqlaşa biləcəyini demək absurddur. Belə bir şey mümkün deyil. Onların edə biləcəkləri maksimum Paşinyana verə biləcəkləri siyasi dəstəkdir. Bəlkə müəyyən miqdarda maliyyə yardımı da göstərə bilərlər. Əsas məqsəd Rusiyaya arxa çevirmiş Ermənistan hakimiyyətinin bu səbəbdən keçirdiyi qorxu hissindən azad etməkdir. Aİ və Ağ evin bu xarakterli dəstəyi İrəvanı Rusiyanın təsir dairəsindən çıxarmağa yönəlib. Bu zaman Azərbaycana nəsə etmək imkanları belə yoxdur".

Paşinyan iqtidarının qibləsini Avropaya dəyişməsində təəccüblü heç nə görmədiyini qeyd edən deputat bunun Azərbaycan üçün heç bir təhlükəyə səbəb olmayacağını birmənalı şəkildə vurğulayır: "NATO üzvü və Aİ üzvlüyünə namizəd Türkiyə bizim strateji müttəfiqimiz, Şimali Atlantika alyansına daxil olmaq arzusunu bəyan edən, Aİ-yə hazırlaşan Gürcüstan isə müttəfiqimizdir. Ən azı buna görə Azərbaycan üçün hər hansı problem yarana bilməz. Ermənistanın Qərbə meyillənməsi bizi narahat etməməlidir. Soyuqqanlı olmalıyıq. Amma ermənipərəst ölkələrin dəstəyindən şirniklənən rəsmi İrəvan sülh danışıqlarında sağlam mövqedən yayınacaqsa, onu başa salmağa hər cür imkanımız var. Əslində, Azərbaycanın müdaxiləsi olmadan Ermənistan Rusiya və İrandan tutarlı "şapalaqlar" yeyəcək.

Bəli, Şimal–Cənub məngənəyə salınmaq üçün hazırlanan Ermənistan bunun hansı fəsadlara aparıb çıxaracağının fərqində deyil. Altı il bundan əvvəl onu hakimiyyətə gətirənlərə "sadiqliyini" nümayiş etdirmək üçün fürsət axtaran N.Paşinyan, daxili və xarici təzyiqlərə,

üstünə yeriyən müxalif ordunun hücumlarına baxmayaraq, bugünədək hakimiyyətdə qalmasına görə, əlbəttə ki, məhz Qərbə, ABŞ-a minnətdar olmalıdır. Həm də ona görə kürsüsünü tərk etməyib ki, həmin "daydayı"ların Paşinyanla bağlı planları hələ başa çatmayıb.

Bütün görünən və görünməyən səbəblər onu deməyə əsas verir ki, ABŞ rəsmiləri Bakı və İrəvan arasında birbaşa dialoq, davamlı sülhlə bağlı bəyanatlarında sonadək səmimi deyillər. Axı, qonşular arasında uzunmüddətli sülh təmin olunacağı təqdirdə ABŞ-nin regiona təsir imkanları xeyli azalacaq. Bölgədə sabitlik, ümumiyyətlə, kənar aktorların vasitəçiliyinə, üçüncü tərəfə ehtiyacı aradan qaldıracaq. Bunu yaxşı anlayan Ağ ev hərdən varlığını xatırlatmaqdan ötrü "mən də burdayam" ismarıcını verir və bundan daha əhəmiyyətlisi, Rusiyanın Cənubi Qafqazda əvvəlki kimi "at oynatmasına" imkan verməməyə çalışır.

Elə ABŞ Dövlət Departamentinin sözçüsü Metyu Millerin 5 aprel görüşünü şərh etməkdən boyun qaçırmasına da bu prizmadan baxmaq lazımdır. M. Miller Brüssel konfransı barədə ətraflı danışmayacağını bildirib: "Ancaq demək istəyirəm ki, bizim Ermənistan və Azərbaycan hökumətləri ilə qarşılıqlı əlaqədə məqsədimiz ortadakı fikir ayrılıqlarını aradan qaldırmaq, tərəfləri möhkəm və davamlı sülhün əldə olunması üçün işləməyə təşviq etməkdir".

"Məqsəd NATO-nu bölgəyə gətirməkdir"

Dünyanın siyasi elitasının, beyin mərkəzlərinin planetdəki 10-a qədər gərginlik ocağında ən yaxın vaxtlarda proseslərin başlanacağını, qarşıdurmaların yaranacağını proqnozlaşdırdığını deyən **siyasi şərhçi Tofiq Abbasova** görə, Qafqazda vəziyyət qəsdən gərginləşdirilir: "Bu sırada turbulent zona kimi Cənubi Qafqazın da adı çəkilir. Bölgəni sülh prosesindən uzaqlaşdırıb buna sövq edənlərin kimlər olduğunu görürük. Məhz Qərb hazırda sülh danışıqlarına kölgə salmağa çalışır. Həmin dairələr yaxşı bilirlər ki, Bakı İrəvana sağlam bir

paket təklif edib və bu, onların planları ilə üst-üstə düşmür. Burada çıxılmaz duruma düşən Nikol Paşinyandır. Ola bilsin ki, baş nazir ürəyinin dərinliyində Qərbin təkliflərinin dövlətinə və xalqına yaxşı heç nə vəd etmədiyini anlayır. O, həmin qüvvələrin Ermənistanı ciddi eskalasiyaya sürüdüklərini də görməmiş deyil. Avropanın satılmış mediasının Azərbaycanın hücuma hazırlaşdığı barədə feyk-xəbərlər yayması da təsadüfi sayıla bilməz. Nikol Paşinyan Brüsselə gedənə qədər ölkənin Qərbdəki səfirləri bir ağızdan deyirlər ki, Azərbaycan bu gün olmasa da, sabah Ermənistana hücum edəcək. Onlara sifarişi Fransa, ABŞ verir. Son vaxtlar Yunanıstan da canfəşanlığa başlayıb. Məqsədləri Cənubi Qafqaza yenidən müharibə kampaniyasını gətirməkdir".

5 aprel tarixli Brüssel görüşündə NATO nümayəndələrinin də iştirakına, qurumun keçmiş rəhbəri Anders Foq Rasmussenin bölgəyə gözlənilən səfərinə diqqəti yönəldən T.Abbasov əsas məqsədin NATO-nun çəkməsini bölgəyə yerləşdirməkdən ibarət olduğuna əminliyini ifadə etdi: "ABŞ-ın elçisi qismində Fransa Cənubi Qafqazda sülhməramlı missiya adı altında casus və agentlərini yerləşdirib. Bəli, onlar bölgədə mövcuddurlar. İndi də sırf hərbi kontingenti Ermənistana yeritməyə çalışırlar. Sonra da həm Rusiyaya, həm də İrana meydan oxumağa başlamaq istəyirlər. Onlara NATO üzvü olan, faktiki bölgəyə gəlmiş Türkiyənin deyil, özlərinin legionunun gətirilməsi sərf edir. Ermənistan sadəcə platforma, aerodrom rolunu oynayır. Paşinyan isə bunlara şirniklənərək kürsüsünün laxladığını hiss eləmir. Qərbin bölgəyə xoş məramla gəlmədiyi məlumdur. Parisin və Vaşinqtonun son hərəkətləri açıq göstərir ki, onlar Azərbaycanın böyük Qələbəsini həzm edə bilmirlər. İndiki mərhələdə Türkiyə, İran və Rusiyanın həmahəng fəaliyyətindən də çox şey asılıdır".

Bəli, nə ABŞ, nə də ermənipərəst Avropa ərazi bütövlüyünü, suverenliyini bərpa etmiş Azərbaycanın gündən–günə güclənməsi ilə heç cür barışmaq istəmir, Qarabağda "Kosovo variantı"nı gerçəkləşdirməyi hədəfləyirdi. Bu məqsədlə Azərbaycanda çirkli pullarla yaratdıqları informasiya şəbəkəsini də işə salmışdılar. Və bütün bunlar nəticəsiz qaldığından indi ölkəmizə qarşı açıq şəkildə hərbi planlar qurulur. Səlibçi düşərgənin 2023-cü il sentyabrın 20-dək Qarabağ ermənilərinin "üzləşdiyi humanitar fəlakət" bəhanəsi ilə ölkəmizə, dövlət başçımıza qarşı təzyiq kampaniyasının iflasa uğraması onlara yaman yer eləyib.

Paşinyan növbəti qurban ola bilər

Vaşinqtonun xarici siyasət kursunu səciyyələndirən əsas amillərdən biri həm də ondan ibarətdir ki, dünyanın supergücü üçün daimi münasibətlər yox, daimi maraqlar mövcuddur. Birləşmiş Ştatların son iyirmi ildə Yaxın Şərqdə, Şərqi Avropada etdikləri bu prinsipin əyani sübutu sayılmalıdır. Mixail Saakaşvili "nümunəsi" isə göz qabağındadır. Nikol Paşinyanın Ağ evin bu prinsipinin növbəti qurbanına çevrilməyəcəyinə, gürcü Mişanın aqibətini yaşamayacağına kim təminat verə bilər? Bəzi xarici ekspetlər Ermənistanın hazırki vəziyyətini Suriya ilə müqayisə edirlər. Onlar hesab edirlər ki, Avropanın məqsədi Ermənistanın bütün resurslarını sovurmaq, onu bir növ anti-Rusiya məkanına çevirməkdir. Ermənistan, çox güman ki, onu məhv edəcək absurd ambisiyalarına görə hətta Suriyadan da çətin vəziyyətə düşə bilər.

Ermənistanın əli ilə bölgədə yeni münaqişə ocağını alovlandırmağı arzulayan ABŞ və Avropa əvvəllər də Ermənistandan maşa kimi yararlanıblar. XX əsrin 80-ci illərinin sonunda məhz İrəvandan körükləndirilən "Dağlıq Qarabağ" münaqişəsi SSRİ-yə qarşı dağıdıcı siyasətdə Qərbdəki erməni lobbisinin, onun Avropalı, okeanın o üzündəki müttəfiqlərinin separatçı fəaliyyəti ilə müşayiət olunurdu. Ondan xeyli əvvəl, ötən əsrin əvvəlindəki "Vudro Vilson planı"nın – "Böyük Ermənistan" ideyasının müəllifləri də eyni oyunçular idi. Üstündənn 100 il keçəndən sonra Ağ evin Ermənistanla bağlı yeni planı ortaya atılır. "Böyük güclərin" qarşıdurmasında başından böyük geosiyasi oyuna qoşulan, bununla da ülgüc üzərində yeriməyə məcbur edilən İrəvana, sadəcə, kəndirbazlıq etmək qalır.

İmran BƏDİRXANLI
XQ

Özü bir şey deyil, amma könül bulandırır

Regionun, elə həm də dünyanın gündəmini "Crocus City Hall" konsert zalında xeyli günahsız insanın ölümünə səbəb olmuş terror aktı ilə bağlı fikirlər məşğul etməkdədir. Hadisəni törətməkdə şübhəli bilinən şəxslər isti izlərlə ələ keçirilsə də, olayın motivlərinə dair müxtəlif versiyalar var. Onların təhlili, eləcə də bəzi rəsmi açıqlamalardan belə təəssürat yaranır ki, Rusiya terroru özünün xarici siyasət müstəvisində dəyərləndirməkdə israrlıdır. Ancaq mövcud xüsusda manipulyasiyalara üstünlük verənləri, özlərinin korporotiv maraqları prizmasından çıxış edənləri də görürük. Onların başında dayanan isə rusiyalı teleaparıcı və jurnalist Vladimir Solovyovdur. Söhbətimiz bu barədədir.

Rusiya ictimai rəyi Solovyova "Dur!" deməlidir

Ancaq əvvəlcə onu bildirək ki, Rusiyanın ayrı-ayrı dairələrinin günahkar axtarışını müəyyən mənada təbii saymaq mümkündür. Məsələyə bu aspektdən yanaşsaq, Rusiya Prezidenti Vladimir Putinin açıqlamasını anlayışla qarşılaya bilərik. Çünki indiki durumda Rusiya yaralı ayıya bənzəyir və obrazlı desək, ətrafında gözünə görünən hədəflərin hamısından şübhələnir. Onun fikrincə, ən böyük hədəf Ukraynadır. Putin "Crocus Citi Hall"da baş vermiş terror aktından sonra görülən tədbirlərlə bağlı keçirilmiş iclasda belə deyib: "Terror aktı radikal islamçıların əli ilə törədilib. Amma biz onu da görürük ki, ABŞ müxtəlif kanallarla hamını inandırmağa çalışır ki, onların kəşfiyyat məlumatlarına görə, guya, Moskva terrorunda Kiyev izi yoxdur. Dərhal sual yaranır: Bu hadisədən kimə fayda var? Bu, yalnız 2014-cü ildən Kiyev rejiminin əli ilə bizimlə döyüşənlər üçün faydalı ola bilər".

Putinin söylədikləri həm də V.Solovyov və onun kimi ermənipərəstlərin "Crocus City Hall" olayı ilə bağlı özlərinin konspriativ düşüncələrini işə salaraq, günahkar axtarmaq "əzmini" heçə endirir. Çünki dövlət başçısı daha böyük məsələdən söz açır. Solovyova gəldikdə isə onun məlum terror aktında Azərbaycan izini axtarmaq yönümlü mülahizələri var. Hiss olunur ki, bu şəxs ölkəmizə qarşı ənənəvi qərəz ritorikasını işə salıb. Nəinki işə salıb, həmin ritorikanın cəfəng motivlərinin sərhədlərini aşıb.

Bəli, tam açıq şəkildə görünür ki, rusiyalı telejurnalist sərsəm eyhamları ilə Azərbaycana münasibətdə informasiya təxribatı aparır. Terrorçunun heç bir milli və dini mənsubiyyətinin ola bilməyəcəyinə dair klişeləşmiş fikirləri onun nəzərə almaması bir yana, üstəlik, hadisəni törətməkdə təqsirli bilinən şəxslərin müəyyənləşdirilməsini heçə saydığı ortadadır. Açıq –aydın görünür ki, Solovyovun məqsədi azərbaycanlılara qarşı antipatiya formalaşdırmaqdır. Nəyə görə? Jurnalistin ermənipərəstliyini vurğuladıq. Əlavə edək ki, indiki durumda onun ermənipərəstliyi fürsətçi mahiyyət daşıyır.

V.Solovyov "Crocus City Hall"dakı terroru Azərbaycana qarşı alətə çevirmək niyyəti güdür. Əslində, Rusiyaya xəyanətin ən böyük göstəricisi elə budur. Məsələ ondadır ki, rəsmi İrəvan özünün Qərbyönümlü siyasi xətti ilə Moskvaya demarş xətti yürütməklə məşğuldur. Ermənistanın Azərbaycanla sülh gündəliyindən yayınması da onun anti-Rusiya xəttinin tərkib hissəsi kimi diqqət çəkir. Heç şübhəsiz, Solovyov bunu görür. Görməsinə rəğmən, o, suyu bulandırmaqla məşğuldur. İstəyi odur ki, Rusiyanın terrorla bağlı yaranmış hiddət hədəfi ölkəmiz olsun. Nəticə etibarilə bu durum Moskvanın Bakıya münasibətini dəyişsin. Solovyov belə düşüncədədir ki, dəyişiklik Rusiyanın Ermənistana yaxınlığına şərait yaradacaq. Bu, jurnalistin ermənipərəstlik naminə ayı xidmətindən başqa bir şey deyil.

V.Solovyov "Crocus City Hall"da törədilmiş terror xüsusunda azərbaycanlıları, ümumən Azərbaycanı hədəfə almaqla olaya etnik fon verir. Bu, son dərəcə təhlükəli tendensiyadır. Çünki onun eyhamları Rusiyada etnik münaqişəni alovlandırmaq təmayülü daşıyır. Ancaq jurnalistin ermənipərəstliyi o qədər güclüdür ki, belə məqamları, ümumən terrora etnik rəng qatmağın zərərini düşünmür. Həqiqətən, ortada son dərəcə rəzil durum var.

O, həqiqətləri rusiyalı jurnalist Marqarita Simonyanla və media maqnatı Aram Qabrielyanovla "işbirliyinə" qurban verir. Bu "trionun" anti-Azərbaycan fəaliyyətinin ayrı-ayrı tərəfləri həm Rusiya, həm də Azərbaycan ictimaiyyətinə yaxşı məlumdur. Hələ 2016-cı ildə Solovyov-Simonyan-Qabrelyanov üçlüyünün ölkəmizi terrorçu İŞİD-lə əlaqələndirmək yönümlü telefon danışığının detalları üzə çıxmışdı. Necə deyərlər, eyni dalğa, eyni koordinat. Solovyovun "Crocus City Hall" olayı ilə bağlı eyhamları oxşar yarıtmaz dəst-xəttin davamıdır.

Bəli, onun başlıca məqsədi Azərbaycan–Rusiya münasibətlərinin hazırkı yüksək səviyyəsinə xələl gətirməkdir. O, ölkələr arasında nifaq toxumları səpməyə çalışır. Jurnalistin ermənipərəst təəssübkeşliyi media prinsipləri, söz və ifadə azadlığının imkanları ilə aşkar manipulyasiyadır. Məsələ Rusiya ictimaiyyətini, o cümlədən, media cameəsini ciddi şəkildə düşündürməlidir. Çünki Solovyov cəmiyyəti yanlış yönləndirməklə əsl həqiqətləri və reallıqları korporativ maraqlara qurban verir. Mövcud xüsus Azərbaycan Mətbuat Şurasının yaydığı bəyanatda da əksini tapıb. Bəyanatda bildirilib ki, Solovyovun davranışı, onun jurnalist kimi dilə gətirdiyi fikirlər "Crocus City Hall" terrorunda Azərbaycan izlərini axtarmaq yönümlü ritorikası nəinki ölkəmizə, ən əsası vətəndaşı olduğu Rusiyaya vurduğu son dərəcə ağır zərər və ziyandır.

Əslində, Solovyov kimi media dələduzlarına meydan verilməsi, efir haqqının tanınması, bütövlükdə, Rusiya ictimai rəyinə həqarətdir, bu, öz yerində. Onun danışıqları informasiya diversiyasıdır, heç bir efir mədəniyyətinə malik deyil. O da məlumdur ki, Solovyov hazırkı Ermənistan rəhbərliyinə qarşı mənfi münasibətdədir və mövqeyini həmişə ortaya qoymaqdadır. Aparıcısı olduğu televiziya proqramında dediklərindən gəlinən qənaət budur ki, Solovyov Azərbaycanın Ermənistan qarşısındakı uğurlarını ikincini aşağılamaq, qıcıq doğurmaq naminə qabardır, küçə danışığına baş vurur. Təxminən belə: ermənilər nə günə qalıb ki, azərbaycanlılar onları əzirlər...

Solovyov qıcığı ona görə yaradır ki, həm Rusiyadakı ermənilər, həm də Ermənistanda hakim komandaya qarşı çıxanlar mütəşəkkil surətdə ayağa qalxsınlar və ölkə Azərbaycanla sülhdən uzaqlaşsın. Sifarişin M.Simonyandan və A.Qabrelyanovdan, eləcə də digər ruspərəstlərdən gəldiyi aşkardır. Bu iki şəxsin də eyni "məntiqi" işə saldıqlarına dair misallar yetərincə çoxdur. Sırf "Crocus City Hall" olayında Azərbaycan izi axtarmaq yönümlü ritorika isə həm də ona hesablanıb ki, Rusiya dövləti hərəkətə keçərək rəsmi Bakıya qarşı çıxsın və nəticə etibarilə Azərbaycan–Ermənistan danışıqlarında Moskvanın diktə etdiyi yeni anti-Azərbaycan gündəmi formalaşsın.

Sonda onu deyək ki, Solovyovun hansı "fikirləri" gündəmə gətirməsindən asılı olmayaraq, ortada böyük reallıqlar var. Hesab edirik ki, Rusiya dövləti həmin reallıqları yaxşı bilir. Ancaq belə bir misal da var ki, milçək bir şey deyil, könül bulandırır. Rusiya ictimai rəyi Solovyov kimi "milçəklərin" könülləri bulandırmasının, söz və ifadə azadlığının imkanlarından siyasi maraqlar naminə yararlanmasının qarşısına birdəfəlik sədd çəkməlidir. Ona görə sədd çəkməlidir ki, belə "milçəklərin" bulandırdıqları suları sonradan durultmaq çətin olur.

Ə.RÜSTƏMOV
XQ

Heydər Əliyev: milli dövlət quruculuğunun Naxçıvan mərhələsi

(“Bir millət, iki dövlət” kəlamı kontekstində)

IV MƏQALƏ

Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olar.

Heydər ƏLİYEV
Ümummilli lider

Dövlət quruculuğunun Azərbaycan sinerjisi

III məqalənin sonuncu tezisində milli dövlət quruculuğunun Naxçıvan sinerjisinin böyük potensiala və reallaşma imkanlarına malik olması əsasında, bütövlükdə, Azərbaycanda və hətta, Türk dünyasında müstəqil dövlət quruculuğu prosesini stimullaşdıra biləcəyini vurğulamışdıq. Bu qənaət yalnız nəzəri ümumiləşdirmə deyildir – praktiki-tətbiqi aspektində də onun stimulverici gücü yüksəkdir. Ulu öndər Naxçıvandakı fəaliyyəti zamanı “bir millət, iki dövlət”in konseptual aspektinin konkret praktiki tətbiqinə eksklüziv başlamışdı. Burada fərq fəaliyyət coğrafiyasının miqyasında idi. Lakin ən maraqlısı və əhəmiyyətlisi isə ondan ibarətdir ki, bir türk liderin dühası “kiçik coğrafi məkanda” “gələcək böyük coğrafi məkan” üçün də uğurlu ola biləcək müstəqil dövlət quruculuğu modelini uğurla reallaşdırması ilə bağlıdır.

Postsovet məkanında başqa nümunəsi olmayan bu uğurlu dövlətçilik transformasiyası bir neçə mühüm amil üzərində qurulmuşdur. Onlarin önündə liderin siyasi uzaqgörənliyi gəlir. İkincisi, liderin zəngin Azərbaycan dövlətçilik ənənəsi daxilində fəaliyyət göstərməsi idi ki, bunun üçün Heydər Əliyev ənənə ilə müasirliyin səmərəli sintezini müəyyən edə bilmişdir. Üçüncü amil liderin zəngin siyasi təcrübəsini məharətli siyasi-ideoloji və diplomatik keyfiyyətlərinin tamamlaması ilə bağlıdır. Dördüncüsü, Heydər Əliyevin Azərbaycanın müstəqil olmasından başqa variantı qəbul etməməsi ilə əlaqəlidir. Beşincisi, Heydər Əliyevin lider kimi qətiyyətinin, sarsılmazlığının kökündə dövlət quruculuğu prosesini dərindən bilməsi ilə bağlıdır. Nəhayət, altıncı amil Heydər Əliyevin liderlik miqyasının təməlində liderlik missiyasının dayanmasıdır.

Fikrimizcə, bütün bu amillər Ulu öndərin dövlət quruculuğunun Naxçıvan sinerjisini Azərbaycan miqyasında quruculuq sinerjisinə çevik transformasiya etməsinə imkan vermişdir. Heydər Əliyev Azərbaycan Prezidenti olduğu müddətdə də Türkiyəyə, Rusiyaya, İrana, Avropaya, Çinə, ABŞ-a səfərlərində dövlət quruculuğunun Naxçıvan mərhələsində irəli sürdüyü əsas tezisləri daha geniş və dərin formada ifadə etmişdir. Bu da özünəxas siyasi-ideoloji varislik, ardıcıllıq və məqsədyönlülüyün mühüm göstəricisidir ki, onu ifadə edən lider–şəxsiyyətin məsələni çox gözəl bildiyini sübut edir.

Nəticədə dövlət quruculuğunun Azərbaycan sinerjisinin üç aspektdə siyasi-futuroloji əhəmiyyətini vurğulamağa imkan yaranır. Birinci aspekt Azərbaycanın cəmiyyət olaraq yeni dövlət quruculuğu konseptinin tam mənasında, yəni inklüziv olaraq legitimliyini qəbul etməsindən ibarədtir. Toplumun bütün kəsimləri bu mövqeyi müdafiə etdi, ona dəstək verdi. Həmin həqiqət digər məqamların bazasıdır. Çünki müstəqil dövlət quruculuğunu ilk olaraq cəmiyyət özü anlamalı, ona arxa olmalıdır. Bu, liderin doğru yolda olduğunun əsas göstəricisidir. Onun siyasi-hüquqi əlamətləri seçki qanununun yeniləşməsində, idarəetmə institutlarının fəaliyyətlərinin səmərəliliyinin yüksəlməsində, yeni konstitusiyanın qəbulunda, enerji siyasətinin davamlı aparılmasında və məhkəmə islahatlarında ifadə olundu. Bunların fonunda ordu quruculuğuna xüsusi diqqət göstərilirdi ki, bu da təhlükəsizliyin iqtisadi (yeni enerji strategiyası) aspekti ilə hərbi və geosiyasi aspektlərinin milli təhlükəsizlik müstəvisində birləşdirilməsi demək idi. Bu cəhət Azərbaycan sinerjisinin vacib tərəflərindən birini təşkil etməkdədir.

Azərbaycan sinerjisinin başqa vacib özəlliyi Naxçıvandan başlayaraq siyasi varisliyin yeni anlamda dövlət quruculuğu prosesinə daxil edilməsi ilə əlaqəlidir. Bu, müstəqil dövlətçilik kontekstində olduqca əhəmiyyətli məsələdir. Çünki Avrasiyada ilk dəfə olaraq müasir şərtlər daxilində bir əyalətdə sınaqdan keçən üsul əsasında müstəqil dövlət quruculuğunun strategiyasında siyasi varislik aparıcı faktorlardan biri kimi məzmunlaşırdı. İndi də ikinci belə bir nümunə yoxdur.

Bu məqam sadəcə Heydər Əliyevin nəzəri-konseptual kəşfi və onun praktiki reallaşma təcrübəsi deyildir. O həm də Ulu öndərin müstəqil dövlətçiliyin təminatı aspektində yeni ənənənin əsasını qoyması və həm də sonrakı nəsillərə tövsiyəsi (bəlkə də nəsihəti) idi. Bu prosesin hüquqi təsbiti bir daha illər sonra siyasi varisin qələbəsinin xüsusi rəmzi olan Şuşa Bəyannaməsində əksini tapacaqdı. Vurğulanan keyfiyyət Azərbaycan sinerjisinin milli-regional-qlobal miqyasların qovşağında nəzəri və praktiki üstünlüyünün lakonik ifadəsidir!

Azərbaycan sinerjisinin dövlət quruculuğu kontekstində ikinci vacib aspekti regional miqyasda onun özünü təsdiq etməsi ilə bağlıdır. Məsələ ondan ibarətdir ki, müstəqil dövlət quruculuğunun Azərbaycan sinerjisi dövləti regional lider etməyə imkan yaratdı. Burada bir vilayət miqyasında quruculuq sinerjisinin bütöv ölkə miqyasında elə tərəqqisindən söhbət gedir ki, əsrlərdir görünməyən uğurla ölkə ən çətin regionlardan birinin lideri ola bilmişdir. Məsələnin bu tərəfinin ayrıca öyrənilməsinə ehtiyac vardır.

Regional liderlik Azərbaycan sinerjisinin mahiyyətini çox gözəl ifadə edir. Aydın olur ki, bu sinerji yalnız quruculuq, təhlükəsizlik, əməkdaşlıq ruhunda köklənmiş zəncirvari proseslərin yaratdığı yüksək tərəqqi effekti olan pozitiv hakimiyyət modelini əmələ gətirmişdir. İndi regionda gedən proseslər də təsdiq edir ki, regional lider kimi Azərbaycan Cənubi Qafqazda çox konstruktiv rol oynayır və faktiki olaraq təcavüzkarı və onun havadarlarını bu müstəviyə çəkir. Onun əlamətləri artıq daha aydın görünməyə başlayır. İndi hər bir böyük dövlət Azərbaycanla əməkdaşlıq üçün regiona can atır. Bu, böyük tarixi, siyasi və geosiyasi uğurdur!

Azərbaycan sinerjisinin üçüncü aspekti də çox əhəmiyyətlidir. Burada Azərbaycan sinerjisinin Ümumtürk sinerjisinə transformasiyasını görürük. Təcrübə göstərir ki, bu transformasiyanın təməli, əslində, keçən əsrin 90-cı illərində Naxçıvanda qoyulmuşdur. Onun rəmzi ifadəsi Naxçıvanda Azərbaycan bayrağının parlament salonuna gətirilməsi, sovet qoşunlarının oradan çıxarılması, sərhədlərin sökülməsi və Türkiyə ilə əlaqələrin yenidən qurulması kimi faktorlarda özünü tapmışdır. 2009-cu ildə yenə də Naxçıvanda türk dövlətlərinin ortaq fəaliyyəti ilə bağlı məlum bəyannamə imzalanmışdır (Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə toplantısının 3 oktyabr 2009-cu il tarixli Naxçıvan Bəyannaməsi). Türk Şurası belə yarandı. Sonra bu bəyannamə əsasında 2021-ci ildə İstanbulda Türk Dövlətləri Təşkilatı (TDT) yaradıldı. Eyni zamanda, “Türk Dünyası Baxışı 2040” vizyonu elan edildi. Bununla Naxçıvan sinerjisindən Azərbaycan sinerjisinə və oradan da Ümumtürk sinerjisinə tarixi-siyasi-geosiyasi keçid tamamlandı. Bu keçidin başlıca əlamətlərindən biri onun strateji xarakterli olmasıdır. Artıq türk dövlətləri 2040-cı ilə qədər olan müddət üçün strateji məqsədlərini müəyyən edib, onlar arasında uyğunluq yaratmağı hədəfləmişlər. Bu isə o deməkdir ki, Naxçıvan sinerjisi uğurla Azərbaycanı inteqrasiya edən Azərbaycan sinerjisi yaratdı və hər iki “sinerji mərhələsi”, bütövlükdə, Türk dünyasının inteqrasiyasını təmin edəcək Ümumtürk sinerjisinə transformasiya olundu.

Ümumtürk sinerjisinin qlobal təsiri: Türk enerji strategiyası fonunda

Naxçıvandan başlayan yolun geniş geosiyasi məkanda konkret nəticələr verəcəyini bəlkə də keçən əsrin 90-cı illərində Heydər Əliyevdən başqa kimsə dərindən dərk etmirdi. Lakin quruculuq proseslərini Ulu öndər elə apardı ki, fəaliyyət miqyasının genişlənməsi ilə dövləti missiyanın arasındakı uyğunluq qətiyyən zərər görmədi. Əksinə, hər yeni mərhələdə öncəki mərhələnin qurucu sinerjisi öz potensialını daha da gücləndirdi. Bu məqam onu göstərir ki, Naxçıvan sinerjisi” həm də pilləvari (ierarxik) formada müstəqil dövlət quruculuğunun imkanlarını daha da genişləndirməyə imkan vermişdir. Naxçıvandakı lider-xalq birliyi uğurla Azərbaycan miqyasında lider-xalq birliyinə transformasiya olunmuş və sonuncu da bütövlükdə türk dövlətləri arasında əməkdaşlığı liderlər-türk xalqları miqyasında birliyi fonunda qurmağa imkan yaratmışdır. Yəni faktiki olaraq, xalqlar, dövlətlər və liderlər miqyaslarında geniş bir geosiyasi məkanda birlik yaranmışdır.

Bunun nəticəsində Ümumtürk sinerjisinin qlobal təsir imkanlarından danışmaq mümkünlüyü yaranmışdır. Bu da əsasən üç istiqamətdə artıq reallaşır. Birinci istiqamət TDT-nin geniş geosiyasi məkanda iqtisadi təsirinin getdikcə güclənməsi ilə bağlıdır. “Bir kəmər, bir yol” layihəsinin reallaşması kontekstində həmin özəllik Səmərqənd Zirvə görüşündən sonra daha konkret cizgilər almaqdadır. Bu istiqamətdə Azərbaycanın daha çox fəallığı müşahidə olunur.

İkinci istiqamət TDT üzvlərinin öz aralarında əməkdaşlığı yen səviyyəyə qaldırmaqla, bütövlükdə, dünyanın digər regionlarına da təsir etməyə başlamasında özünü göstərir. Bu prosesin təsir mexanizmi konkret layihələr əsasında digər qlobal təşkilatlar vasitəsilə reallaşır. Məsələn, Qoşulmama Hərəkatı çərçivəsində yeni müstəmləkəçiliyə və insan haqlarına qarşı ortaq mübarizənin artıq konkret mexanizmi mövcuddur. Onun təşəbbüskarı və qurucusu Azərbaycandır. Digər türk dövlətləri, xüsusilə Türkiyə bu istiqamətdə Azərbaycana ciddi dəstək verir. Bu prosesin genişlənəcəyinə şübhə yoxdur.

Üçüncü istiqamət enerji təhlükəsizliyinin Azərbaycan nümunəsinin indi TDT miqyasında Ümumtürk enerji strategiyası kimi qəbul edilməsi və bununla bağlı əsasən Avropa ilə əlaqələrin yeni səviyyəyə yüksəlməsi ilə əlaqəlidir. “Türk enerji strategiyası” özündə nəqliyyat-logistika, informasiya, hərbi təhlükəsizlik, əməkdaşlıq dəhlizləri kompleksi, “yaşıl əməkdaşlıq” və sair kimi aspektləri birləşdirir. Bu mənada “türk enerjisi” daha geniş anlama və məzmuna malikdir ki, bu da yeni funksionallıq deməkdir.

Belə alınır ki, Naxçıvan sinerjisi Azərbaycanın enerji strategiyasının Ümumtürk enerji strategiyası miqyasına yüksəldilməsində də stimulverici rol oynamışdır. Nəticədə “enerji” anlayışı yeni məna çalarları almış və təbii enerji daşıyıcıları ilə məhdudlaşmır. Buraya artıq türk mədəniyyətinin, mənəvi-əxlaqi dəyərlərinin, dövlətqurma üsulunun, liderlik tərzinin və əməkdaşlıq özəlliyinin məna çalarları da daxildir.

Beləliklə, son tezis: dünya yeni bir qlobal təzahürün – Ümumtürk enerji strategiyasının formalaşmasının şahididir. Bu, çox maraqlı və əhəmiyyətli dünya hadisəsidir. Türklər yeni tarix yaradırlar! Əməkdaşlıq, ədalətlilik, təhlükəsizlik və strateji davamlı inkişaf tarixi! Bu yeniliyin mənbəyi isə Azərbaycandır! Sözün həqiqi mənasında, Azərbaycan yeni dünya yaradır!

Füzuli QURBANOV,
XQ-nin analitiki,
fəlsəfə elmləri doktoru

Milli Məclisin və Parlament Şəbəkəsinin Sədri Sahibə Qafarovanın rəhbərliyi ilə İsveçrənin Cenevrə şəhərində Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin (QHPŞ) 3-cü Konfransı keçirilib. Tədbirdə təşkilata üzv parlamentləri və beynəlxalq təşkilatları təmsil edən 53 nümayəndə heyəti iştirak edib.

Qoşulmama Hərəkatı PŞ-nin 3-cü Konfransı Azərbaycanın sədrliyi ilə keçirilib

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, konfransı giriş sözü ilə Sahibə Qafarova açaraq, tədbirin Şəbəkənin və üzv ölkələr arasında əməkdaşlığın daha da inkişafına böyük töhfə verəcəyinə əminliyini bildirib.

2021-ci ilin noyabrında Madrid şəhərində baş tutmuş təsis iclasından bəri parlament şəbəkəsinin konfransları iştirakçılarının sayının durmadan artdığını söyləyən spiker deyib ki, QHPŞ böyüməkdədir və sıralarına yeni üzvlər qəbul edir. Şəbəkə Qoşulmama Hərəkatına üzv dövlətlərin parlamentlərinin yarıdan çoxunu təmsil edir. Bu, təkcə QH-nin dəyər və prinsiplərinin təşviqinə sadiqliyi deyil, həm də parlamentlər arasında həmrəyliyi və əməkdaşlığı gücləndirmək niyyətində olduğunu göstərir.

Bu ilin yanvarında Uqanda Respublikasının Kampala şəhərində baş tutmuş Qoşulmama Hərəkatının Dövlət və Hökumət Başçılarının XIX Zirvə görüşündə Azərbaycanın QH -yə sədrliyi Uqanda Respublikasına təhvil verdiyini xatırladan S. Qafarova deyib ki, respublikamızın sədrliyi Azərbaycan Prezidenti İlham Əliyevin hərəkata üzv olan ölkələr arasında həmrəyliyin, birliyin və çoxşaxəli əməkdaşlığın möhkəmləndirilməsinə sadiqliyi ilə yadda qalacaq. Prezident İlham Əliyevin irəli sürdüyü bir sıra təşəbbüslər, məsələn, QHPŞ-nin, Qoşulmama Hərəkatının Gənclər Təşkilatının, həmçinin qurumun Qadınlar platformasının yaradılması istiqamətində atılan ilk addımlar hərəkatın institusional inkişafı baxımından mühüm əhəmiyyət kəsb etmişdir.

Spiker parlament şəbəkəsinin yarandığı gündən öz fəaliyyətini icra hakimiyyəti orqanlarının qərarları ilə əlaqələndirdiyini, onları öz fəaliyyətində və yekun sənədlərində əks etdirdiyini diqqətə çatdırıb. Xatırladıb ki, parlament şəbəkəsinin 2023-cü ilin mart ayında Bəhreynin paytaxtı Manama şəhərində keçirilmiş ikinci konfransı zamanı şəbəkənin əsasnaməsinə edilən bir sıra əlavə və düzəlişlər, PŞ-nin fəaliyyəti üzrə iş qaydalarının işlənib hazırlanması və təkmilləşdirilməsinə yönəldilib. Şəbəkənin gələcək institusional inkişafı istiqamətində iş davam etdiriləcək. Onun sözlərinə görə, parlament şəbəkəsinin büro və daimi komitələrinin formalaşdırılması onun institusional potensialını və səmərəli fəaliyyətini daha da gücləndirəcək. S.Qafarova, həmçinin Manama şəhərində dörd beynəlxalq təşkilata şəbəkə yanında müşahidəçi statusu verildiyini xatırladıb. Deyib ki, Manama konfransından sonra parlament şəbəkəsi TürkPA və Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisi yanında müşahidəçi statusu qazanıb. Bundan başqa, Asiya Siyasi Partiyalarının Beynəlxalq Konfransı ilə anlaşma memorandumu imzalanıb. İki gün öncə isə ən qədim və ən böyük parlamentlərarası təşkilat olan Parlamentlərarası İttifaqla Anlaşma Memorandumu imzalanıb.

Cenevrə konfransının “İqlim dəyişikliyi ilə mübarizədə parlament fəaliyyətinin canlandırılması” mövzusuna həsr olunduğunu xatırladan spiker deyib ki, bu gün iqlim dəyişikliyi diqqət yetirilməsi ən önəmli və təcili olan çağırışlardan biridir. Eyni zamanda, bu, qlobal cavab tədbirləri və birgə səylər tələb edən bir çağırışdır.

S.Qafarova Azərbaycanın yekdilliklə COP29-a evsahibliyi edən ölkə seçildiyini diqqətə çatdırıb. Qeyd olunan tədbir bu ilin noyabrında Bakı şəhərində keçiriləcək. Biz bununla qürur duyuruq. Bu, Azərbaycanın iqlim dəyişikliyi ilə mübarizədə təkcə milli deyil, həm də regional və qlobal miqyasda göstərdiyi səylərin tanınmasının bariz nümunəsidir. Ölkəmizdə 2024-cü il “Yaşıl dünya uğrunda həmrəylik ili” kimi qeyd olunur. Bu gün Azərbaycanın çox ciddi yaşıl enerjiyə keçid gündəliyi mövcuddur və ölkəmizdə bərpa olunan enerjinin həm istehsalına, həm də ixracına böyük investisiyalar qoyulur.

Spiker bir daha vurğulayıb ki, Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi bundan sonra da parlamentlərarası əməkdaşlığın və ölkələrimiz arasında dialoqun təşviqinə davamlı sadiqliyini nümayiş etdirəcək.

Konfransda daha sonra təşkilatı məsələlərə baxılıb və Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Büro və daimi komitələrinin formalaşdırılması, QHPŞ yanında beynəlxalq təşkilatlara müşahidəçi statusunun verilməsi haqqında qərarlar qəbul olunub.

Tədbir konfransın yekunlarına dair Cenevrə Bəyannaməsinin qəbul edilməsi ilə başa çatıb.

*

Milli Məclisin Sədri Sahibə Qafarova İsveçrənin Cenevrə şəhərində keçirilən Parlamentlərarası İttifaqın 148-ci Assambleyası çərçivəsində İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) Baş direktoru Salim bin Məhəmməd əl-Maliklə görüşüb.

S. Qafarova ötən ilin dekabr ayında Mərakeşə rəsmi səfəri çərçivəsində ICESCO rəhbəri ilə görüşünü xatırladaraq, ölkəmizin bu təşkilata və İslam ölkələri ilə əməkdaşlığa böyük önəm verdiyini vurğulayıb. Bildirib ki, Azərbaycan İslam Əməkdaşlıq Təşkilatı (İƏT) ailəsinin fəal üzvüdür. Ölkəmizin üzv dövlətlərlə həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq etdiyi və digər dövlətlər arasında həmrəyliyin möhkəmlənməsinə daim səy göstərdiyi qeyd edilib.

Spiker diqqətə çatdırıb ki, Azərbaycan ICESCO ilə əməkdaşlığı yüksək qiymətləndirir və bu əməkdaşlığa xüsusi önəm verir.

Görüşdə Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin konfransının əhəmiyyəti və aparılan müzakirələrin aktuallığı vurğulanıb. QHPŞ-də ICESCO-ya müşahidəçi statusunun verilməsinin tərəflər arasında əməkdaşlığı genişləndirəcəyi bildirilib.

Söhbət zamanı Salim bin Məhəmməd əl-Malik ICESCO-nun Azərbaycanla əməkdaşlığın daha da inkişafında maraqlı olduğunu bildirib. O, ötən illərdə Azərbaycana səfərləri çərçivəsində ölkə rəhbərliyi ilə keçirdiyi görüşləri məmnunluqla xatırlayıb, imzalanmış Fəaliyyət Planının ICESCO ilə Azərbaycan arasında əməkdaşlığın daha da dərinləşməsinə töhfə verəcəyini bildirib. Baş direktor Heydər Əliyev Fondunun İslam dünyasında təhsil, elm, mədəniyyət sahələrində gördüyü işləri yüksək qiymətləndirib.

O, həmçinin Azərbaycanın BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyi etmək hüququ qazanmasına, Şuşa şəhərinin 2024-cü il üçün “İslam dünyasının mədəniyyət paytaxtı” elan olunmasına görə təbriklərini çatdırıb.

Əliqismət BƏDƏLOV
XQ

"Döyüş qardaşlığı" silahlı qrupu məğlub ölkədə at oynadır

Ermənistan terroru dəstəkləyir?

Ermənistanda Qazax rayonunun hələ də işğal altında olan 7 və Naxçıvanın Kərki kəndinin Azərbaycana geri verilməsi ilə bağlı müzakirələr davam edir. Baş nazir Nikol Paşinyan bu kəndlərə gedib əhali ilə görüşündə açıq mətnlə bildirmişdi ki, "bizim olmayanı geri verməliyik." İlkin olaraq 4 kəndin boşaldılıb təhvil verilməsindən söhbət gedirdi və Paşinyan kəndlilərə açıq söylədi ki, əgər bu addımı atmasaq, müharibə başlaya bilər.

Çünki bu ərazilər Paşinyanın tez-tez təkrar elədiyi Ermənistanın 29,8 min kvadratkilometrlik ərazisinə daxil deyil. Yəni, bu ərazilərin Azərbaycanın olduğu qəbul edilməlidir. Paşinyanın bu görüşündən sonra Ermənistan cəmiyyəti demək olar ki, bütün seqmentlərdə və bütün səviyyələrdə həmin kəndlərin qaytarılması ilə bağlı müzakirələrə başladı. Paşinyan hakimiyyətinə qarşı olan qüvvələr bu gəlişmələrdən öz xeyirlərinə istifadə etməyə başlayıblar. Ermənistan cəmiyyəti irqçi düşüncədən və şovinist əhvali-ruhiyyədən azad olmadığına görə məsələnin revanşist meydana da daşınması gözlənilən idi və son günlər Ermənistanda bilinən və bilinməyən terrorçu qruplaşmalar daha fəal pozisiyada görünməkdədirlər. VOMA, Yerkrapa, Sasna Tsrer və başqa hərbi-könüllü qruplaşmalar dərhal mövqelərini bildirdilər və Azərbaycanın bu kəndlərinin təhvil verilməsinə qarşı çıxdılar. Parlament və küçə müxalifətinin də dəstəklədiyi bu dəstələr bölgəyə "döyüşçülərini" göndərməyə və Azərbaycana qarşı hərbi əməliyyatlara hazırlıq prosesinə başladılar.

Adı çox da hallanmayan "Döyüş qardaşlığı" adlı qrup artıq Ermənistan cəmiyyətinin müzakirə predmetinə çevrilmişdir. Bu qrupun fəaliyyəti indiyədək gizli aparılırdı və onların hansı qaynaqlardan maliyyələşməsi də bilinmirdi. Amma bəlli idi ki, Azərbaycan kəndlərinin geri qaytarılmaması üçün ərazidə qeyri-qanuni məskunlaşan əhalini müharibəyə səsləməyi, delimitasiya prosesinin icrası zamanı isə Azərbaycan Ordusuna qarşı təxribat törətməyi planlaşdırır. "Döyüş qardaşlığı" Ermənistanın nəzarətində olan Qazaxın Yuxarı Əskipara və digər kəndlərinə girəcəyini və ərazinin Azərbaycana geri qaytarılmasına imkan verməyəcəyini keçən ay bəyan etmişdi.

Qazaxın işğal altındakı Yuxarı Əskipara kəndinə döyüş hazırlığı keçməyə gedən silahlı dəstə hakimiyyət qüvvələri tərəfindən saxlanıldıqdan sonra gərginlik artmağa başlayıb.

"Döyüş qardaşlığı" adlı silahlı dəstənin 24 üzvü hüquq-mühafizə orqanları tərəfindən saxlanılandan və tərksilah ediləndən sonra digər terrorçu qruplar onların sərbəst buraxılmalarını, üzvlərinin həbs olunmamalarını tələb ediblər. "Döyüş qardaşlığı" qruplaşmasının digər üzvləri İrəvanda Nor-Nork icmasının polis şöbəsinin binasına silahlı basqın etməyə cəhd ediblər. Nəticədə qrupun daha 49 üzvü saxlanılıb. Təbii ki, digər silahlı qruplaşmalar, o cümlədən "Sasna Tsrer" Paşinyan hakimiyyətinə qarşı kəskin ittihamlarla çıxış edirlər. Onların siyasi dayağı olan "Milli Demokratik Qütb"ün rəhbərləri ənənəvi erməni terrorçularıdır. Onların bəziləri ASALA üzvləri olaraq bilinməkdədir. Həmin şəxslərdən biri Jirayr Sefiryandır. Artıq "Sasna Tsrer", VOMA, Yerkrapa da daxil olmaqla, bütün revanşist ünsürlər Paşinyan hakimiyyətinin devrilməsi üçün istənilən addımı atacaqlarını bəyan ediblər. Ona görə də onlar tərəfindən hər hansı iğtişaşın törədilməsi gözlənilirdi.

"Döyüş qardaşlığı" adlı silahlı dəstənin qurucu üzvlərindən olan Hrant Ter-Abrahamyan verdiyi müsahibəsində deyir ki, bu dəstə bir ildən artıqdır, Bağanis və Yuxarı Əskipara kəndlərində hazırlıq işlərinə başlamışdır: "Biz orada döyüş taktikası və digər hərbi əməliyyatları yerli özünüidarə orqanları ilə birlikdə etmişik. Biz Noyemberyan icma rəhbəri ilə sənəd imzalamışıq. Bütün məsuliyyəti öz üzərimizə götürmüşük və yerli əhali ilə qarşılıqlı anlaşmalarımız da var. Bu qrupun üzvləri 44 günlük savaşda yer alan adamlardır və İrəvanda ayrıca hərbi hazırlıq düşərgəsində təlim keçməkdədirlər".

Bu, o deməkdir ki, "Döyüş qardaşlığı" silahlı qrupundan Ermənistanın hakimiyyət orqanlarının xəbəri var və dövlət öz içində terrorçu qruplaşmasının fəaliyyətinə şərait yaratmışdır. Eyni zamanda VOMA adlı silahlı qrupun rəhbəri Vova Vartanov da etiraf edir ki, Azərbaycanla sərhədin bəzi hissələrində VOMA hərbi təlimlər keçirmiş və bundan Ermənistan hakimiyyətinin xəbəri olmuşdur.

Artıq aşkar şəkildə ortadadır ki, Ermənistan hakimiyyəti öz ərazisində hərbi dəstə və terrorçu qrupların fəaliyyəti üçün imkanlar yaratmışdır və bu da Ermənistanın terrorçu xarakterini ortaya qoyan önəmli arqumentlərdən biridir.

Amma məsələ burasındadır ki, həmin silahlı qruplar və terrorçu dəstələr Paşinyan hakimiyyəti üçün problemlər yaratmaqdadır, Paşinyan öz qazdığı quyuya özü düşmək ərəfəsindədir. Hakimiyyət orqanları bu silahlı dəstələrin təzyiqləri ilə qarşılaşmaqdadır. İrəvanın Nor Nork polis idarəsinə basqından və adlarını çəkdiyimiz silahlı qrupların bəyanatından sonra Paşinyana qarşı olan qüvvələr də ürəklənmişlər.

Nikol Paşinyanı zorla hakimiyyətdən uzaqlaşdırmaq üçün yeni "Miasin" (Birlikdə) hərəkatı yaradılıb və Paşinyan hakimiyyətindən narazı olan bütün qüvvələri birləşdirmək üçün mitinqlərin keçirilməsi üçün qərar qəbul edilib. Ter-Petrosyanın prezidentliyi zamanı baş nazir olmuş Hrant Baqratyan yeni qurumun rəhbərliyinə gətirilərək dövlətin başına keçmək üçün iddia ortaya qoyub. Qiyamın həm siyasi, həm də hərbi dayaqları hərəkətə keçmək ərəfəsindədir…

Mövzu ilə bağlı "Türkiye" qəzetinin əməkdaşı Yılmaz Bilgen fikrini qəzetimizə bildirmişdir: "Bir müddət əvvəl araşdırmalarımız nəticəsində o faktı ortaya çıxarmışdıq ki, Ermənistanın Azərbaycanla sərhəd bölgələrinə 10 mindən artıq silahlı dəstələr yerləşdirilmişdir. Onlar İran və Fransa tərəfindən maliyyələşdirilir. Ermənistan bu dəlilləri təkzib etməyə çalışdı və Ermənistanın KİV-ində bizim əleyhimizə kampaniya başladıldı. İndi dəlillər ortadadır. Bu gün həmin qeyri-qanuni silahlı birləşmələrin Ermənistan hakimiyyəti ilə əlaqələrinin mövcudluğu təsdiq olunur və bu hərbi birləşmələrin necə böyük təhlükələrə yol açacağına, həm də Azərbaycan və Türkiyənin Ermənistanla sülh danışıqları prosesinə zərbə vuracağına işarədir. Bölgədə hər hansı gərginliyin yaranmasının məsuliyyəti Ermənistanın üzərinə düşəcəkdir."

Qafar ÇAXMAQLI,
XQ-nin Türkiyə müxbiri

İrəvanda Azərbaycan mediası hədəfə alınır

Tovio Klaara müraciət ruhlu bəyanatın məqsədi nədir?

Ermənistanda "Girdman–Şirvan–Naxçıvan" Ümumerməni Birliyi adlı təşkilat var. Təşkilatın erməni avantürizminin daşıyıcısı olduğunu söyləmək üçün onun yalnız adına diqqət yetirmək kifayətdir. Azərbaycan və türk toponimlərindən özünə ad seçmiş belə bir qurum ölkədə qeydiyyatdan keçib fəaliyyət göstərirsə, deməli, Ermənistan Azərbaycana qarşı ərazi iddiasını davam etdirir. Məsələyə başqa cür yanaşmaq mümkünsüzdür.

Bəli, "Girdman–Şirvan–Naxçıvan" Ümumerməni Birliyi bəyanat yayıb. Sənəd Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Toivo Klaara ünvanlanıb. Daha doğrusu, birlik cənab Klaara Azərbaycandan şikayət edib. Qurumun bəyanatını nekroloq kimi qiymətləndirmək mümkündür. Yaxud ona can verməkdə olan erməni avantürizmi üçün elegiya da demək yerinə düşər. Hiss olunur ki, sənəd vay-şivən musiqisinin notlarına köklənib.

Əlqərəz, "Girdman–Şirvan–Naxçıvan"çıların əsas hədəfi Azərbaycan mediasıdır. Sən demə, ölkəmizin kütləvi informasiya vasitələri Ermənistanı təhdid edirlərmiş. İddia o qədər gülməlidir ki, deməyə söz tapmırsan. Elə bil, erməni mediası süddən çıxmış ağ qaşıqdır, illərdir anti-Azərbaycan təbliğatı aparmır...

"Girdman–Şirvan–Naxçıvan" Ümumerməni Birliyinin bəyanatında bildirilib ki, guya Azərbaycanda söz və ifadə azadlığı yoxdur. Buna görə ölkə mediasında Ermənistanla bağlı yazılanların hamısı sifarişdir və bu sifariş illərdir yerinə yetirilir. Belə anabioz təfəkkür sahibləri çox güman, erməni cəmiyyəti ilə Azərbaycan cəmiyyətini səhv salıblar. Fərqinə varmırlar ki, torpaqları işğal altında olan ölkənin xalqı kimi mediası da təcavüzə və təcavüzkarlara qarşı barışmaz mövqe tutmalıdır. Eyni mövqe indi də davam etməlidir. Çünki rəsmi İrəvan sülhə gəlmək istəmir, hər cür avantürizmə baş vurur.

"Girdman–Şirvan–Naxçıvan"çılar T.Klaarın diqqətinə çatdırırlar ki, guya mediamızın apardığı təbliğat ermənifobiya yaradıb. Nəticədə Azərbaycan cəmiyyəti uşaq bağçasından tutmuş, müxtəlif təhsil və tərbiyə səviyyələrinə qədər Ermənistana və ermənilərə qarşı hədsiz nifrətlə qidalanır. O zaman sual olunur: beşikdəki körpənin qulağına türklərin düşmən olduqlarını pıçıldayanlar kimlər olub? Əlbəttə, ermənilər! Məhz bu təbliğatın nəticəsidir ki, erməni cəmiyyətində azərbaycanlılara qarşı nifrət körüklənib. Müasir dövrdə nifrət özünün ən pik həddinə 1992-ci ilin 26 fevralında – Xocalı soyqırımında çatıb. Hələ ötən yüzilin tarixində yaşanan digər qanlı faciələrimiz də var...

Ancaq nifrətlə bəslənmiş bir qövm körpə uşağın dərisini soyub onun can verməsinə baxaraq dinclik tapa bilərdi. Yalnız qəzəblə yüklənmiş məxluqlar hamilə qadının bətnini süngü ilə yarmağı bacarardılar. Bu kimi vəhşilik əməllərini sıralamaq mümkündür. T.Klaarın da məsələdən xəbərsizliyini demək olmaz. Eləcə də Avropanın və dünyanın aparıcı təşkilatlarının təmsilçilərinə hər şey gün kimi aydındır. Ancaq...

"Girdman–Şirvan–Naxçıvan" Ümumerməni Birliyi azərbaycanlıların ermənilərə qarşı törətdikləri vəhşiliklər kimi qələmə verdiyi olayları sadalayır və bu baxımdan 1988-ci ildə Sumqayıt hadisələrini yada salır. Əlbəttə, təşkilat həmin hadisələrin bilavasitə erməni millətçilərinin əli ilə həyata keçirildiyini bildirməz. Bəyanatına daxil etməz ki, Sumqayıtda dinc insanlara qarşı qəddarlıq Qarabağ avantürasına haqq qazandırmaq naminə reallaşdırılmış məkrli ssenari idi. Ancaq qurum T.Klaara müraciətə köklənmiş sənədində Qarabağdakı erməni mədəni irsinin dağıdılmasından bəhs edir. Mədəni irs də nə imiş? Qondarma rejimin "parlament" binası. Həyasızlıq olar, bu qədər də yox. Başqa dövlətin daxilində separatçı quruluş yaradasan, ona "parlament" binası ucaldasan, sonra da deyəsən ki, onun dağıdılması erməni mədəni mirasına qəsddir. O bina nəinki dağıdılmalı, yeri də kürünməlidir ki, murdarlıq torpağa keçməsin.

Sonda "Girdman–Şirvan–Naxçıvan"çılar beynəlxalq aktorlardan Azərbaycanın media vasitələrinin yaydıqları anti-erməni təbliğatının, habelə Ermənistana və erməni xalqına qarşı nifrət və düşmənçiliyin qızışdırılmasının araşdırılması və pislənməsi üçün təsirli addımlar atmağı tələb ediblər. Məlumdur ki, həm bu tələb, həm də ümumən belə bir bəyanatın qəbulu adi məsələ deyil. Çünki təşkilatın bilavasitə Ermənistan iqtidarı tərəfindən idarə olunduğu məlumdur. Ona rəhbərliyi hakim "Vətəndaş sazişi" partiyasının mənsubları həyata keçirirlər. Məqsəd bəllidir – Azərbaycanla sülh şəraitində yaşamağın mümkünsüzlüyünü göstərmək, buna görə ölkəmizi günahlandırmaq.

Ə.CAHANGİROĞLU
XQ

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində 2024-cü ilin aprel ayında vətəndaşların qəbulu cədvəli

Qəbulu aparan şəxs	Qəbul günü
Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri Əmirov Natiq Ərziman oğlu	1
Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Əliyeva Fərəh Şirməmməd qızı	2
Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hacıyev Hikmət Fərhad oğlu	3
Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri Nağdəliyev Zeynal Səfər oğlu	4
Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi Qasımov Azər Məhəmməd oğlu	4
Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi Həsənov Altay Tofiq oğlu	5,19,26
Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri Ələsgərov Fuad Murtuz oğlu	5,23
Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsi	8
Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Mövsümov Şahmar Arif oğlu	9
Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri Məcidov Tələt Tahir oğlu	15
Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri Həsənov Kərəm Əvəz oğlu	16
Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri Məmmədəliyev Yusuf Ülfət oğlu	17
Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Vəliyev Ədalət Məqsəd oğlu	18
Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri İsmayılov Süleyman Abbas oğlu	19
Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru	22
Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi	24
Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Hüseynov Emin Zamin oğlu	24
Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Kərimov Aydın Zöhrab oğlu	25
Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Hacıyev Vahid Rasim oğlu	25
Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri Kərimov Gündüz Hacı oğlu	26
Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məmmədov Məsim Əhməd oğlu	26
Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Yusubov Elçin Mustafa oğlu	29
* * *	
Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi Usubov Ramil İdris oğlu	30

Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.
Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev,79.
Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.
Qəbul saat 14:00-dan başlayır.
Əlaqə üçün: Çağrı Mərkəzi – 1111.

Anders Rasmussenin şübhəli lobbiçilik və təsir xidmətləri

Danimarkanın keçmiş Baş naziri, habelə NATO-nun keçmiş Baş katibi olmuş Anders Foq Rasmussenin rəhbərlik etdiyi "Ermənistanın Dostları Şəbəkəsi" adlı qrup tərəfindən hazırlanmış 2024-cü il 21 mart tarixli "Avropa İttifaqı–Ermənistan münasibətlərinin dərinləşməsi: Ermənistanda daha çox Avropa; Avropada daha çox Ermənistan" adlı hesabatda yer alan Azərbaycan əleyhinə əsassız iddiaları qətiyyətlə pisləyir və rədd edirik.

Bu fikirlər Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin Anders Foq Rasmussenin rəhbərlik etdiyi qrupun hesabatına dair şərhində yer alıb.

A.Hacızadə qeyd edib ki, hesabatda bütün faktların təhrif olunduğu, böhtan xarakterli və tamamilə əsassız müddəalar Azərbaycan əleyhinə aparılan qarayaxma kampaniyasının tərkib hissəsidir. Bu müddəalar, Ermənistanla Avropa İttifaqı arasında münasibətlərin dərinləşdirilməsinə yönəldiyi iddia olunan sözügedən hesabatla bağlı ciddi suallar doğurur. Əslində bu, absurd təbliğatdan başqa bir şey deyil. Bundan əlavə, hesabatın ermənipərəst hekayələrin təbliğatı məqsədilə Ermənistan hökuməti ilə gəlirli sövdələşməyə uyğun olaraq hərəkət edən sözügedən erməni lobbi qrupu tərəfindən aprelin 5-də keçiriləcək ABŞ–Avropa İttifaqı–Ermənistan üçtərəfli konfransı ərəfəsində ictimaiyyətə açıqlanması sözügedən hesabatın və onu imzalayan sabiq rəsmilərin əsl niyyətlərini üzə çıxarır. Açıq mənbələrdən əldə edilən maliyyə sənədləri sübut edir ki, Anders Rasmussen öz lobbi şirkəti "RasmussenGlobal"ı tanıtmaq və şübhəli lobbiçilik və təsir xidmətləri göstərmək üçün NATO-nun keçmiş Baş katibi statusundan sui-istifadəyə davam edir. Ermənistan Respublikası hökuməti onun müştərisi kimi, "çox düşünülmədən təsdiqlənmiş" bu hesabata görə yüz minlərlə ABŞ dolları xərcləyib.

"Maraqlıdır ki, Azərbaycanın Ermənistanın ərazi bütövlüyü və suverenliyinə təhdid törətməkdə ittiham olunduğu bu hesabatın həmmüəlliflərindən bəziləri böyük şövqlə müdafiə etdikləri Ermənistan tərəfindən Azərbaycana qarşı törədilən işğal və etnik təmizləmənin birbaşa şahidi olublar.

Biz qəti şəkildə, sözügedən birtərəfli mövqenin, eyni zamanda, bütün mövcud faktlara heç bir məhəl qoyulmamasının Ermənistandakı revanşist qrupları Azərbaycana qarşı daha radikal mövqe tutmağa sövq etməklə yanaşı, cəmiyyətdə "Qərbin" sülh prosesində Ermənistanın qeyri-konstruktiv mövqeyini dəstəklədiyi illüziyası yaratdığı qənaətindəyik. Ermənistan hökumətinin maliyyələşdirdiyi təbliğat kampaniyaları qarşı tərəfin regional sülh gündəmi ilə bağlı səmimi olmadığını bir daha nümayiş etdirir. Avropa Parlamenti və Avropa Şurası Parlament Assambleyası kimi təsisatlar da daxil olmaqla, müəyyən dar düşüncəli siyasətçilər vasitəsilə bahalı və mənasız böhtan kampaniyalarının aparılması regional sabitliyə və sülh quruculuğu səylərinə xidmət etmir. Bunun əvəzinə, Ermənistan hökuməti və erməni lobbi qrupları regionda əsl sülh gündəminin təşviqinə diqqət yetirməlidirlər", – deyə XİN rəsmisi vurğulayıb.

Türk dövlətlərinin dünyada iqtisadi çəkisi artır

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) nəzdində fəaliyyət göstərən Türk Dünyası Araşdırmalar Mərkəzi "Türk iqtisadi icmalı"nın növbəti sayını təqdim edib. Nəşrin 2023-cü ili əhatə edən birinci bölməsində Türk Dövlətləri Təşkilatının (TDT) üzv və müşahidəçi ölkələrinə dair ümumi baxış təqdim olunub. Topluda onların ərazi, əhali, ümumi daxili məhsul (ÜDM) və ticarət dövriyyəsi üzrə ümumiləşdirilmiş göstəriciləri və dünyadakı payları göstərilib. Bundan əlavə türk ölkələrinin ayrı-ayrılıqda ÜDM artımının müqayisəsi aparılıb. Həmçinin türk dünyasından keçən mövcud və planlaşdırılan nəqliyyat dəhlizləri əks etdirilib.

Birinci bölmədə, eyni zamanda TDT-yə üzv və müşahidəçi dövlətlərin ümumi baxış statistikasında 2022-ci il üzrə türk dövlətlərinin ÜDM-nin 1 trilyon 537 milyard dollar, ticarət dövriyyəsinin isə 1 trilyon 193 milyard dollar təşkil etdiyi bildirilib. Bundan başqa, icmalda 2023-cü il üzrə Türkiyə iqtisadiyyatının 4,5 faiz, Azərbaycan iqtisadiyyatının 1,1 faiz, Özbəkistan iqtisadiyyatının 6 faiz, Qırğızıstan və Qazaxıstan iqtisadiyyatlarının müvafiq olaraq 6,2 faiz və 5,1 faiz böyüdüyü, TDT-də müşahidəçi qismində iştirak edən Macarıstanda isə 2023-cü il üzrə 0,9 faiz iqtisadi geriləmə qeydə alındığı vurğulanıb.

"Türk iqtisadi icmalı"nın birinci bölməsində 2023-cü ildə dövlət büdcəsinin gəlirlərinin artımı baxımından ən yaxşı göstəricinin 86,1 faizlə Türkiyədə qeydə alındığı, həmin dövrdə qardaş ölkənin dövlət büdcəsinin gəlirlərinin isə 176 milyard 687 milyon dollara yüksəldiyi bildirilib.

Xarici ticarətdə ən yüksək saldo Qazaxıstan (ticarət balansı 17 milyard 511 milyon dollar) və Azərbaycanda (ticarət balansı 10 milyard 298 milyon dollar) qeydə alınıb. 2023-ci ilin yanvar–dekabr ayları ərzində TDT-nin üzv ölkələrinin hər birində əsas kapitala yönələn vəsaitlərdə də artım müşahidə edilib.

"Türk iqtisadi icmalı"nın ikinci bölməsində isə Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə, Özbəkistan və Macarıstanın 2023-cü ilin yanvar–dekabr ayları üzrə, Şimali Kipr Türk Respublikasının isə 2021-ci il üzrə əsas makroiqtisadi göstəriciləri müqayisəli şəkildə verilib.

Son illərdə TDT-nin sıraları əhəmiyyətli dərəcədə möhkəmlənib, quruma üzv dövlətlər arasında ümumi ticarət dövriyyəsinin həcmi 30 milyard dollara yaxınlaşıb. Tərəflər arasında həm qarşılıqlı şəkildə, həm də TDT çərçivəsində ticarət dövriyyəsinin artırılması davamlı şəkildə yaxşılaşıb, əlaqələrin daha da güclənməsi məqsədilə genişmiqyaslı nəqliyyat layihələri reallaşıb.

Ötən il Astanada keçirilən TDT-nin "Türk əsri" çağırışı altında 10-cu yubiley Zirvə görüşündə dövlətimizin başçısı çıxış edərək bununla bağlı bir sıra məqamlara toxunub. Ölkə rəhbəri bu təşkilata üzv dövlətlər arasında münasibətlərin möhkəmləndirilməsinin Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biri olduğunu, artıq beynəlxalq səviyyədə böyük siyasi çəkiyə və nüfuza malik qurum kimi tanındığını diqqətə çatdırıb. Prezident İlham Əliyev daha sonra respublikamızın TDT-nin iqtisadiyyatına 20 milyard dollardan çox sərmayə qoyduğunu və bunun əsas hissəsinin Türkiyəyə yönəldildiyini də qeyd edib.

Təşkilatda təmsil olunan ölkələr arasında ötən müddətdə həm çoxtərəfli, həm də ikitərəfli formatlarda əməkdaşlıq əlaqələri qurulub. İndiyədək vaxtaşırı iqtisadi münasibətlər çərçivəsində bu birliyə üzv dövlətlərin müvafiq qurumlarının yüksək səviyyəli rəsmiləri arasında çoxsaylı görüşlər keçirilib, bir neçə biznes forum gerçəkləşdirilib. Həmin tədbirlərdə quruma üzv dövlətlərin iqtisadi imkanları, əməkdaşlıq sahələri təqdim olunub. O cümlədən, investisiya mühitinin yaxşılaşdırılması, iqtisadiyyatın şaxələndirilməsi və sahibkarlıq üzrə işçi qruplarının yaradılması haqqında qəbul edilən qərarlar müsbət nəticələrlə diqqət çəkib.

Yeri gəlmişkən, Azərbaycan türk dövlətləri arasında əməkdaşlığın dərinləşməsi prosesində aparıcı rola malik ölkələrdəndir. Rəsmi Bakı türk dövlətlərinin inteqrasiyası üçün fəal siyasi təşəbbüslərlə çıxış edir, iqtisadi maraqların uzlaşdırılması məqsədilə koordinasiyanın formalaşmasını gerçəkləşdirir. Nəticədə respublikamızın türk dövlətləri ilə iqtisadi münasibətləri getdikcə möhkəmlənir və bu istiqamətdə yüksək göstəricilər aydın nəzərə çarpır. Bu baxımdan Azərbaycanın sıx, tarixi əlaqələrə malik türk dövlətlərindən biri olan Türkiyə ilə münasibətlər daha çox diqqət çəkir.

Ölkələrimiz arasında imzalanmış sənədlər, o cümlədən investisiyaların təşviqi və qarşılıqlı qorunması, həmçinin ikiqat vergitutmanın aradan qaldırılması haqqında sazişlər ikitərəfli hüquqi bazanı daha da möhkəmləndirib. İndiyədək iki ölkə arasında yüzlərlə işgüzar tədbir, biznes forumlar, ixrac missiyaları keçirilib ki, bu da birgə layihələrin icrasını stimullaşdırıb.

Azərbaycan–Türkiyə qardaşlığı iqtisadi tərəfdaşlığın inkişafında xüsusi önəm daşıyır. Türkiyə Azərbaycanın 2-ci əsas ticarət tərəfdaşıdır. 2023-cü ilin 11 ayında ticarət dövriyyəmiz təxminən 7,2 milyard dollar təşkil edib. Bu göstərici 2022-ci ilin analoji dövrü ilə müqayisədə 33 faiz artıb. Ticarət əməkdaşlığında müşahidə olunan müsbət dinamika dövlət başçıları tərəfindən qarşıya qoyulan hədəfə sürətlə çatacağımıza inam yaradır.

Azərbaycan xarici ölkələrdə ən çox investisiyanı Türkiyəyə yatırıb. Həmçinin ölkəmizdə qeyri-neft-qaz sektoruna investisiya yatıran ölkələr sırasında Türkiyə 1-ci yerdə qərarlaşıb. Qarşılıqlı sərmayələrin təşviqi və sahibkarlığa dəstək sahəsində imkanların artırılması iqtisadi tərəfdaşlığı təşviq edir.

Azərbaycanın Qazaxıstanla münasibətləri də daha çox diqqət çəkir. Ölkələrimiz arasında geniş hüquq-müqavilə bazası formalaşıb. İndiyədək Azərbaycanla Qazaxıstan arasında 150-yə yaxın sənəd imzalanıb. Bu normativ-hüquqi baza tədricən daha da genişlənir və təkcə son 1 il 6 ay ərzində 40-a yaxın mühüm ikitərəfli sənəd imzalanıb. Bu sənədlər arasında "Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında dostluq münasibətləri və strateji tərəfdaşlıq haqqında Bəyannamə" (2004-cü il 1 mart, Astana), "Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri haqqında Müqavilə" (2005-ci il 24 may, Bakı), "Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında strateji münasibətlərin möhkəmləndirilməsi və müttəfiqlik qarşılıqlı fəaliyyətinin dərinləşdirilməsi haqqında Bəyannamə" (2022-ci il 24 avqust, Bakı) xüsusi vurğulanmalıdır.

Regionda yaranmış yeni reallıqlar çərçivəsində nəqliyyat-kommunikasiya xətlərinin açılması istiqamətində aparılan işlər və postmünaqişə dövrünün reallığı olan Zəngəzur Dəhlizi Mərkəzi Asiya regionu, o cümlədən Qazaxıstan üçün də yeni fürsətlər yaradır. Ölkələrimizin beynəlxalq nəqliyyat-kommunikasiya dəhlizinə çevrilmələrinə xidmət edən "Rəqəmsal İpək Yolu" (Digital Silk Way) layihəsinin əsas hissəsi olan Xəzəraltı fiber-optik kabel magistralının inşası istiqamətində görülmüş işlər təqdirəlayiqdir.

Bununla bağlı vurğulamaq yerinə düşər ki, 2022-ci il sentyabrın 28-də "AzərTelecom" və "Kazakhtelecom" telekommunikasiya şirkətləri arasında Xəzər dənizinin dibi ilə fiber-optik rabitə xəttinin çəkilməsi layihəsi üzrə strateji tərəfdaşlıq haqqında memorandum imzalanıb.

Azərbaycan–Qazaxıstan əməkdaşlığında ticarət-iqtisadi əlaqələr xüsusi yer tutur. Ölkəmizdə Qazaxıstan investisiyalı 182 kommersiya qurumu (sənaye, kənd təsərrüfatı, tikinti, nəqliyyat, ticarət, xidmət) qeydiyyatdadır. Qazaxıstandan Azərbaycana 102,2 milyon dollar, Azərbaycandan Qazaxıstana isə 205,2 milyon dollar investisiya qoyulub. Ötən il ölkələrimiz arasında ticarət dövriyyəsi 599 milyon dollar təşkil edib.

Bütün bunlarla yanaşı, iki ölkə arasında neft və neft məhsullarının ticarəti sahəsində uğurlu əməkdaşlıq davam etdirilir. Buraya Qazaxıstan mənşəli xam neftin Bakı–Tbilisi–Ceyhan neft boru kəməri ilə dünya bazarına çatdırılması, Qazaxıstan mənşəli xam neftin Azərbaycanda emalı, Qazaxıstan mənşəli xam neftin dünya bazarına təchizatı və s. daxildir. "SOCAR Midstream Operations" MMC 2023-cü ilin martından etibarən Qazaxıstanın Tengiz yatağından ayda 125 min ton həcmində neftin Bakı-Tbilisi-Ceyhan boru kəməri ilə nəqlinə başlayıb. Qazaxıstan neftinin Aktau limanından "Prezident Heydər Əliyev" tankerinə ilk yüklənməsi ötən il martın 21-də, "Şuşa" tankerinə ikinci yüklənməsi isə martın 28-də həyata keçirilib.

Azərbaycan ilə Qazaxıstan arasında əlaqələr bütün sahələrlə yanaşı, enerji sektorunda da uğurla inkişaf edir. SOCAR ilə "KazMunayGaz" arasında ötən il imzalanan yol xəritəsi əlaqələrin genişləndirilməsi üçün geniş imkanlar yaradıb. Qarşılıqlı səmərəli əməkdaşlıq, neftin emalı, tranziti, ticari-iqtisadi münasibətlər Azərbaycanın sürətli inkişafına təkan verərək onu regional enerji mərkəzinə çevirib.

Vaqif BAYRAMOV
XQ

Şərqi Zəngəzurda sənaye zonaları yaradılacaq

Azərbaycanın işğaldan azad edilmiş Zəngilan, Cəbrayıl və Qubadlı şəhərlərinin girişində sənaye zonaları yaradılacaq. Bu barədə Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 Saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti məlumat yayıb. Bildirilib ki, artıq bu istiqamətdə hazırlıq işləri görülür, yaxın vaxtlarda adları çəkilən ərazilərdə layihələndirmə işlərinin aparılmasına başlanılacaq.

Xatırladaq ki, hazırda işğaldan azad edilmiş ərazilərdə 2 sənaye parkı fəaliyyət göstərir. Bunlar Cəbrayıldakı "Araz Vadisi İqtisadi Zonası" və Ağdam Sənaye Parkıdır.

Xalçalarımız ABŞ və Avropa bazarlarında layiqli yer tutur

"Azərxalça" Açıq Səhmdar Cəmiyyətin (ASC) yaydığı məlumatda bildirilir ki, qurum tərəfindən ötən il 2 min 725 kvadratmetr xalça istehsal olunub, bunun 22,5 faizi ixrac edilib.

Məlumatda, eyni zamanda vurğulanır ki, hesabat dövründə xalça ixracı 2022-ci illə müqayisədə 29 faiz artaraq 612 kvadratmetr təşkil edib. Hazırda Azərbaycan xalçalarının ABŞ və Avropa İttifaqı ölkələrinə ixracına başlanılıb. Xalçalar, əsasən, ABŞ, Almaniya, İspaniya, İsveçrə, Latviya kimi ölkələrə tədarük edilir.

Hazırda Azərbaycanın ipək xalçalarına tələbat daha çox olduğuna görə, bu məhsullar uğurla satılır. Buna görə də ötən ildən etibarən ənənəvi xalçalar əsasında ipək xalçaların toxunmasına başlanılıb.

Məlumatda o da qeyd edilir ki, hesabat ilində "Azərxalça"nın Avropa Şurasının baş qərargahında, Fransanın Strasburq şəhərində, Vyanada fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzində, Latviyanın Liepaya şəhər muzeyində açılan sərgidə, Nyu-Yorkdakı "Türk evi"ndə, İspaniyanın Kral Xalça Fabrikinin sərgi salonunda Azərbaycan xalçalarının sərgiləri təşkil olunub.

"Bərgüşadçay" su anbarı bu il işə salınacaq

İşğaldan azad olunmuş ərazilərdə inşaat işləri həyata keçirən Türkiyənin "Proyapı" şirkətinin İdarə Heyətinin sədr müavini Akif Aygen mediaya müsahibəsində bildirib ki, ümumi su tutumu 70,5 milyon kubmetr olan "Bərgüşadçay" su anbarının inşasının bu il tamamlanacağı gözlənilir.

A.Aygenin sözlərinə görə, su anbarı vasitəsilə Qubadlı rayonu ərazisində 12 min hektar əkin sahələrinin suvarma suyu ilə təmin edilməsinə zəmin yaranacaq, uzunluğu 61,5 kilometr olan magistral boru kəməri vasitəsilə isə "Qız qalası" hidroqovşağından su götürəcək magistral kanalın qidalandırılması üçün saniyədə 12 kubmetr suyun verilməsi mümkün olacaq.

XQ

Azərbaycan Avropanın önəmli qaz təchizatçısıdır

TANAP vasitəsilə 60 milyard kubmetr qaz nəql olunub

(əvvəli 1-ci səhifədə)

Məlum olduğu kimi, Cənub Qaz Dəhlizinin əsas seqmentlərindən biri olan TANAP Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsi çərçivəsində hasil edilən qazı Gürcüstan–Türkiyə sərhədindən Türkiyənin qərb sərhədinə nəql edir. Yeri gəlmişkən, Avropanın enerji xəritəsinin zənginləşdirilməsinə xidmət edən "Cənub Qaz Dəhlizi" layihəsi 2011-ci ilin yanvar ayında həyata vəsiqə qazanıb. Azərbaycan Prezidenti İlham Əliyev və Avropa Komissiyasının sədri Manuel Barrozu arasında Cənub Qaz Dəhlizi haqqında Bakıda imzalanmış Birgə Bəyannamədə Azərbaycan "Cənub Qaz Dəhlizi" layihəsinə əsas töhfə verən və onu həyata keçirən ölkə kimi göstərilib. Eyni zamanda sözügedən sənəddə genişləndirilmiş Cənubi Qafqaz Boru Kəmərini, Trans-Anadolu Qaz Boru Kəmərini (TANAP) və Trans-Adriatik Qaz Boru Kəmərini (TAP) özündə birləşdirən Cənub Qaz Dəhlizi Marşrutu XXI əsrin layihəsi adlandırılıb.

2011-ci il oktyabr ayının 25-də Türkiyənin İzmir şəhərində "Azərbaycan Respublikasının Hökuməti və Türkiyə Respublikasının Hökuməti arasında təbii qazın Türkiyə Respublikasına satışı və Azərbaycan Respublikasından gələn təbii qazın Türkiyə Respublikasının ərazisi vasitəsilə tranziti haqqında və təbii qazın Türkiyə Respublikasının ərazisindən nəql edilməsi üçün müstəqil boru kəmərinin inşasına dair" saziş imzalanıb. 2012-ci il iyun ayının 26-da isə İstanbul şəhərində "Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikasının Hökuməti arasında Trans-Anadolu təbii qaz boru kəməri sisteminə dair" sazişə imza atılıb. Beləliklə də, "Şahdəniz" yatağının ikinci işlənmə mərhələsi çərçivəsində hasil ediləcək təbii qazı Avropa bazarlarına çatdıracaq Trans-Anadolu ixrac boru kəməri layihəsi ilə bağlı hüquqi bazanın yaradılması təmin olunub.

2015-ci il martın 17-də qardaş ölkənin Qars şəhərində TANAP-ın təməlqoyma mərasimi isə keçirilib. Bununla da, boru kəmərinin inşasına start verilib. 12 iyun 2018-ci il tarixində Əskişəhərdə Cənub Qaz Dəhlizinin mühüm hissəsi olan Trans-Anadolu Boru Kəmərinin açılışı olub. Həmin ayın 30-da ilk kommersiya qazının bu kəmərlə Türkiyəyə nəqlinə başlanılıb. Noyabrın 30-da isə TANAP-ın Avropa ilə birləşən hissəsinin açılış mərasimi keçirilib. Uzunluğu 1850 kilometr olan TANAP-ın ümumi dəyəri 7 milyard ABŞ dollarına yaxındır. Kəmərin illik ötürmə gücü 16,2 milyard kubmetr təşkil edir. Qazın, təxminən, 6 milyard kubmetri Türkiyəyə, qalanı isə Avropaya tədarük olunur. Azərbaycanın zəngin qaz ehtiyatları, eləcə də Avropada "mavi yanacağ"a tələbatın artması ilə əlaqədar gələcəkdə sözügedən kəmərin illik ötürmə qabiliyyətinin 31 milyard kubmetrədək artırılması gözlənilir.

Göründüyü kimi, Cənub Qaz Dəhlizinin genişləndirilməsi ilə ölkəmizin ixrac imkanları xeyli artacaq. Bu isə Azərbaycan qazının ixrac coğrafiyasının hazırda "köhnə qitə"nin bir sıra ölkələri arasında inşa edilən interkonnektorlar (birləşdirici kəmərlər) vasitəsilə daha da genişlənməsinə səbəb olacaq. Yeri gəlmişkən, Albaniya da 2026-cı ildə Azərbaycan təbii qazından öz ehtiyaclarını ödəmək üçün istifadə etməyi planlaşdırır. Bu barədə "S&P Global Ratings" beynəlxalq reytinq agentliyi məlumat yayıb. Bildirilib ki, bu məqsədlə zəruri qazpaylayıcı infrastrukturun inkişafı üzrə planlar hazırlanır. "Trans-Adriatik Boru Kəməri (TAP) kimi mövcud infrastruktur vasitəsilə Albaniya enerji mənbələrini şaxələndirir və hidroenergetikadan asılılığını azaldır. TAP-ın Albaniyada əsas rolu Azərbaycan qazının Avropa bazarlarına, o cümlədən İtaliyaya tranzitinə dəstək olmaqdır", – deyə agentliyin məlumatında bildirilir.

Azərbaycan qazının Albaniyaya illik tədarükü təxminən 200 milyon kubmetr həcmində gözlənilir. Bu, Trans-Adriatik Qaz Boru Kəmərinin ötürücülük qabiliyyətinin 1,2 milyard kubmetrə qədər artırılmasının birinci mərhələsinə təsadüf edəcək. Həmin həcmin isə 1 milyard kubmetri İtaliya üçün nəzərdə tutulub. Beləliklə, Albaniya İtaliya, Yunanıstan, Bolqarıstan, Rumıniya, Gürcüstan, Türkiyə, Macarıstan və Serbiyadan sonra Azərbaycandan təbii qaz tədarük edən 9-cu ölkə olacaq. Bununla yanaşı, Bosniya-Herseqovina, Monteneqro, Xorvatiya, Slovakiya və Şimali Makedoniya da yaxın illərdə Azərbaycandan qaz almaq niyyətindədir.

Azərbaycan Avropaya təbii qaz ixracını 2021-ci ildəki 8 milyard kubmetrdən 2023-cü ildə 11,8 milyard kubmetrə qədər artırıb. Ümumilikdə isə, ötən il ölkəmiz 23,8 milyard kubmetr qaz ixrac edib. Avropa İttifaqı ilə imzalanmış memoranduma əsasən, Azərbaycan 2027-ci ilə qədər Avropaya təbii qaz tədarükünü 20 milyard kubmetrə çatdırmalıdır.

Xatırladaq ki, Azərbaycan qazının Trans-Adriatik Qaz Kəməri ilə Avropaya tədarükü 2020-ci ilin sonunda başlayıb. Hazırda kəmərin ötürücülük qabiliyyəti ildə 12 milyard kubmetr qaz təşkil edir. TAP-ın ümumi uzunluğu 878 kilometr təşkil edir ki, bunun da 550 kilometri Yunanıstanın şimal hissəsindən, 215 kilometri Albaniya ərazisindən, 105 kilometri Adriatik dənizinin dibi boyunca, 8 kilometri isə İtaliya ərazisindən keçir.

Yeri gəlmişkən, Azərbaycanın təsdiq edilmiş təbii qaz ehtiyatları 2,6 trilyon kubmetrdir. Hazırda isə ölkəmizdə qaz hasilatının artırılması istiqamətində konkret tədbirlər həyata keçirilir. 2023-cü ildə istismara verilmiş "Abşeron" yatağının birinci işlənmə mərhələsi çərçivəsində bu il 1,5 milyard kubmetr qaz hasil olunacağı proqnozlaşdırılır. Cari ilin sonunadək "Azəri-Çıraq-Günəşli" yataqlar blokunda "Dərin qaz" adlandırılan layihə çərçivəsində də ilk qaz əldə olunacaq.

Heç şübhəsiz, ölkəmizin potensialı bununla kifayətlənmir. Məlum olduğu kimi, bu il "Abşeron" qaz yatağının ikinci mərhələsi ilə bağlı yekun investisiya qərarının verilməsi nəzərdə tutulur. Bu layihənin reallaşdırılması ilə adı çəkilən yataqda illik hasilatın həcmi 5 milyard kubmetrə çatdırılacaq. Bununla yanaşı, Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Şəfəq", "Asiman", "Ümid", "Babək", "Naxçıvan" və "Qarabağ" yataqlarının da potensialı olduqca yüksək qiymətləndirilir.

Mirbağır YAQUBZADƏ
XQ

31 Mart Azərbaycanlıların Soyqırımı Günüdür

İnsan qədim zamanlardan hər şeyin ən dəyərlisinə, fərqlisinə və gözəlinə can atmiş, xüsusilə maddi və mənəvi cəhətdən qiymətli olana, müqəddəs bildiyinə özəl yanaşmış, onu toplamış və qorumuşdur. Elə bilirəm, sənət ruhunun formalaşması, nəticə etibarilə muzeylərin əsasının qoyulması da bundan irəli gəlib. Ona görə də, muzeyləri keçmişlə gələcəyin görüş yeri, yaxud, körpüsü adlandırırlar. Təkcə əşyaları, bəlgələri, heykəlləri, tikmə-toxumaları, pul-paraları qorumaq üçün deyil, həm də öyrətmək, məlumatlandırmaq, maarifləndirmək məqsədi daşıyır muzeylər. Orda sərgilənən hər əşya, hər dəlil, sənət nümunəsi xalqı, onun mədəniyyətini, tarixini, yaşam tərzini, hətta taleyini ifadə edir. Azərbaycan xalqının da qədim və müasir mədəniyyətini ifadə edən dünya səviyyəli muzeyləri var. Amma coğrafi qədər anlayışının mövcudluğunu da bildirməliyik. Təəssüf ki, xalqımız hər zaman terrora, soyqırıma məruz qalıb. Dünyada soyqırımı muzeyləri çox deyil. Qəribədir ki, belə muzeylərin əksəriyyəti türk-müsəlman ölkələrindədir, özəlliklə də Türkiyədə və Azərbaycanda. Çünki coğrafiyamız qədərimizdir, qonşularımız isə son dərəcə məkirlidir...

Keçmişlə gələcəyin görüş yeri

İllər öncə Quba şəhərindəki Soyqırımı Memorial Kompleksini ziyarət edərkən, bir xanım diqqətimi çəkdi. Dayanmadan şəkil çəkir, suallar verir, dəftərçəsində qeydlər edirdi. Kimliyi ilə maraqlandım, rusiyalı jurnalist olduğunu deyən İrina Vladimirovnaya xüsusi yanaşması üçün təşəkkür edib, daha dolğun məlumat verməyə çalışdım. Söhbət əsnasında dedi ki, illər əvvəl Ermənistandakı soyqırımı muzeyində olmuş və oradan da böyük reportaj hazırlamışdır. Soruşdum ki, Ermənistandakı muzeydə soyqırımı ifadə edən insan sümükləri və ya bir ədəd də olsa, kütləvi məzarlıq nümayiş olunurmu? Burada gördüyünüz dəlilləri orada da gördünüzmü? Reportaj hazırlayarkən soyqırımını sübut edən insan qalıqlarını, məzarlığı göstərə bildinizmi? Baxın, bu muzeydə heç bir dekorasiyadan, bəzək-düzəkdən istifadə olunmayıb, məzarlıqlar olduğu kimi gün üzünə çıxarılıb. 1915-ci ildən indiyədək Ermənistan dövləti türklərin onlar üçün qazdığı bircə kütləvi məzarlığı üzə çıxara bilsə, onlara soyqırımı muzeyini türklər özü tikər. Amma göstərə bilməzlər, çünki yoxdur. Sizdən xahiş edirəm: şahidi olduqlarınıza ədalətli yanaşın.

Ona məsləhət gördüm ki, Türkiyəyə getsin, İğdırdakı Şəhid Türklər Anıt Muzeyini ziyarət etsin. O muzeyin olduğu yer Ermənistan sərhədinə 15 kilometr yaxınlıqdadır. Orada sərgilənən onlarca kütləvi məzarlığa baxın və soyqırımının nə demək olduğunu öyrənin. Şərqi Anadolu bölgəsində daşnakların qətl etdikləri türklərə aid yüzlərlə kütləvi məzarlıq var və onların bir neçəsi həmin muzeydə sərgilənir.

İki yüz ildir ki, eyni taleyi yaşayırıq, iki yüz ildir ki, ölkəmizin hər yeri açıq səma altında soyqırımı "muzeyi"dir. Ayağımızı yerə basarkən canımız yanır, hər qarış torpağımızın altında qətledilmiş yaşlı, uşaq, gənc, qadın sümükləri sızlayır. Bunları bir daha yaşamamaq, tarixin acı dərsləri kimi soyqırımlarımızı muzeylərdə toplayıb, gələcəyə ötürmənin zamanıdır artıq.

1918-ci ildə bolşevik-erməni silahlı dəstələrinin Azərbaycan torpaqlarında həyata keçirdikləri kütləvi qırğınlar nəticəsində həlak olmuş on minlərlə azərbaycanlının xatirəsinə ucaldılan ilk Soyqırımı Memorial Kompleksi Qubada açıldı. Lakin tariximizin son dönəmlərində Qarabağda baş verən qanlı hadisələrdə silahsız, köməksiz qalan xalqımız dəfələrlə soyqırımı dəhşətini yaşadı. Xocalı, Ağdaban, Qaradağlı, Meşəli, Malıbəyli-Quşçular soyqırımları törədildi, günahsız insanlar amansızlıqla qətlə yetirildi. Bunlar beynəlxalq ictimaiyyətin gözü qarşısında baş versə də, dünyanın xalqımıza qarşı bəsirət gözü bağlandı, bununla da, Ermənistanın dövlət terrorizmi daha geniş vüsət aldı.

Muzeyə gəl, tarixini öyrən!

Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda fəaliyyət göstərən Memorial Soyqırımı Muzeyi ölkəmizdə bu təyinatlı ikinci muzeydir. Demək olar ki, böyük bir kompleks, hətta araşdırma, elmi mərkəzdir. Təəssüflə qeyd edək ki, işğaldan azad edilmiş ərazilərimizdə aşkarlanan kütləvi məzarlıqlar bundan sonra hələ neçə belə soyqırımı muzeylərinin yaradılacağından xəbər verir. Qısa müddətdə Xocavənddə, Xocalıda, Şuşada və ətraf bölgələrdə 13 məzarlıq qeydə alınıb. Aşkarlanan qalıqların işgəncələrə məruz qaldıqları müəyyənləşib. Onların, haradasa, 25 il əvvəl öldürülərək, kütləvi şəkildə bastırıldığı məlum olub. Mütəxəssislərin fikrincə, işğaldan azad olunmuş bölgələrimizdə belə kütləvi məzarlıqlar çoxdur.

Hərbi Prokurorluğun nəzdində fəaliyyət göstərən Memorial Soyqırımı Muzeyi 24 fevral 2014-cü ildən fəaliyyətdədir. Əgər dünyada ədalət varsa, gəlsinlər, görsünlər, öyrənsinlər, araşdırsınlar. Muzeydə bütün tədqiqatçılara yetəcək qədər material, sənəd, kitab və maddi sübutlar toplanıb.

Prokurorluğun təşəbbüsü ilə yaradılan muzey xalqımızın 200 ilə yaxın bir tarixdə yaşadığı faciələrin əyani şəkildə, maddi və mənəvi sübutlarla təsdiqidir. İçəri girəndə, insanın ilk ağlından keçən fikir bu olur: İlahi, biz nələr yaşamışıq?! Əsrlərdir bu zülmə necə dözmüş və məhv olmamışıq?! Bu qədər soyqımları, qətllər, repressiyalar, terror hadisələri, zülm və işgəncələr olarmı?!

Muzeyi yaratmaqda məqsəd erməni millətçilərinin xüsusi amansızlıq və qəddarlıqla törətdikləri kütləvi qırğınların, insanlıq əleyhinə törədilən cinayətləri tariximizin yaddaşına həkk etmək, əşyayi-dəlil kimi, onları dünyaya göstərmək və qan yaddaşımızı unutmamaq üçün gələcək nəsillərə geniş məlumat və tutarlı dəlillərlə verməkdir. Millətə ən böyük xidmətlərdən biri də budur, hər vətəndaş xalqının tarixini buradan öyrənə, yaşadığı faciələri tanıya bilər. Nümayiş olunan bütün fakt və sənədlər, eksponatlar prokurorluq tərəfindən istintaq materialları əsasında yaradılıb. Muzey XX əsrin əvvəllərindən bəri bolşevik-erməni silahlı dəstələrinin Azərbaycan torpaqlarında həyata keçirdikləri kütləvi qırğınlar nəticəsində həlak olan on minlərlə soydaşımızın əziz xatirəsinə həsr edilib.

Dünyanın ən üstün standartlarına uyğun təşkil edilmiş muzey ilk baxışdan ziyarətçini bir xalqın yaşadığı faciələrlə əhatəli şəkildə tanış edir, divarlardan baxan qandonduran şəkillər, sərgilənən sənədlər buz kimi kəsir insanın ruhunu. İstər 1918-ci ilin Mart soyqırımının əks olunduğu stendlər, məlumatlar, fakt və rəqəmlər, istər otuzuncu illərin qanlı repressiya qurbanlarına həsr edilmiş məlumat və şəkillər, istərsə də, son 30 illik tariximizin qara səhifələri olsun – hər ekspozisiya unikal arxiv sənədləri ilə zəngindir.

320 kvadratmetr sahəni əhatə edən muzey 4 bölmədən ibarətdir. Hər bölmədə tariximizin qara səhifələri barədə nümayiş olunan maddi və mənəvi sübutlar – divarlardan asılan şəkillər, qana boyanmış hərbi bilet və ya pasport sənədləri bir haraydır, çağırışdır, xalqımıza qarşı qalxan qanlı əllərə üsyandır. Fəxrlə deyə bilərik ki, o əllər bu gün "dəmir yumruğ"a çevrildi və zərblə düşmənin başına endi. Müzəffər Ali Baş Komandanımızın dediyi kimi, bundan sonra "dəmir yumruq" hər zaman yerində olacaq.

Muzey ekspozisiyası müxtəlif dillərdə təqdim olunur. Faciələr və qətllər ayrı-ayrı bölmələrdə zəngin foto, arxiv sənədləri, statistik məlumat və diaqramlarla verilib. Hər bölmənin qarşısında da məlumat bazası Azərbaycan və ingilis dillərində öz əksini tapıb.

Muzey Tarix, Deportasiya-repressiya, Soyqırımı və Terror bölmələrindən ibarətdir. Girişdə yerləşdirilmiş rəsm əsərləri şiddətli ağrıları təcəssüm etdirir və soyqırımı qurbanlarının matəm sükutunu özündə daşıyır. Giriş "Xocalı fəryadı" adlı böyük rəsmlə başlayır. Fəxrlə deyə bilirik ki, Xocalı soyqırımının 20-ci ildönümü ilə əlaqədar 2012-ci ilin fevralın 26-da Prezident İlham Əliyevin rəhbərliyi altında 100 mindən artıq insanın Xətai rayonu ərazisindəki "Ana fəryadı" abidəsinə keçirilmiş yürüşünün iri həcmli fotoşəkli yerləşdirilib.



Muzey xalqımızın məruz qaldığı soyqırımı hadisələrinin beynəlxalq aləmdə tanıdılmasında mühüm rola malikdir. Hər şey aşkardır, inkaredilməz fakt və dəlillərdən, mühüm sənədlərdən ibarətdir. Muzeydə toplanmış məxəzlərlə biz cinayəti törədənləri ədalət mühakiməsində cavab verməyə məcbur edə bilərik və şübhə yoxdur ki, günlərin birində bu da baş verəcək. Ermənistan 110 ildir ki, "erməni soyqırımı" deyə fəryad edib, dünyanı bu qondarma iddiaya inandırmaq istəsə də, indiyədək ortaya nə bir maddi sübut, nə elmi araşdırma, arxiv sənədi qoya bilib. Bizim sübutlarımız isə göz önündədir. Nə edək ki, dünya bunları qəbul edəcək qədər obyektiv deyil...

Tarix və Deportasiya-repressiya bölmələrində XX əsrin əvvəllərində Azərbaycanın müxtəlif bölgələrinin ermənilər tərəfindən dağıdılıb, viran edilmiş görüntüləri əks olunub. Quraşdırılmış sensor ekranlı monitorda göstərilən xəritədə ermənilərin ötən əsrdə müxtəlif bölgələrdə xalqımıza qarşı həyata keçirdikləri soyqırımları barədə bir neçə dildə məlumat yerləşdirilib. Bu bölmədə Ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırımı siyasətinin ifşa olunaraq, dünya ictimaiyyətinə çatdırılması istiqamətində gördüyü işlərin və imzaladıqları sərəncamların nümayiş etdirildiyi guşə yaradılıb. Quba, Cavad, Göyçay, Şamaxı və Bakı qəzalarında ermənilərin törətdikləri vəhşiliklər haqqında da dolğun məlumatlar yer alıb. Rusiya imperiyası və İran dövləti arasında bağlanmış və Azərbaycanı ikiyə bölən "Gülüstan" və "Türkmənçay" müqavilələri, "Azərbaycan xalqına qarşı etnik təmizləmə və soyqırımı siyasətinin deportasiya və sürgün mərhələsi" kompozisiyası, 1930-cu illərdə repressiya qurbanı olmuş Azərbaycan ziyalılarına və görkəmli şəxsiyyətlərinə qarşı açılmış cinayət işlərindən götürülmüş fraqmentlər, azərbaycanlıların tarixi torpaqlarından son deportasiyasını əks etdirən fotolar da sərgilənir. 1988–1991-ci illərdə ermənilərin etnik təmizləmə siyasəti nəticəsində Ermənistandakı 185 azərbaycanlı kəndindən 350 min nəfər azərbaycanlı təcavüzə məruz qalaraq, doğma yurd-yuvalarından qovuldu. 217 nəfər qətlə yetirildi, 1154 nəfər yaralandı, yüzlərlə insana işgəncə verildi.

Muzey işi o qədər mükəmməl şəkildə təşkil olunub ki, hətta ən adi ziyarətçi də bütün bunların nümayişi üçün nə qədər ağır zəhmət sərf olunduğunun fərqindədir.

Soyqırımı və Terror bölmələrində erməni silahlı birləşmələri və Sovet ordusunun Xankəndidə yerləşən 366-cı motoatıcı alayının 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərinə hücumu ilə bağlı maket və fotolar, habelə digər maddi sübutlar, sənədlər və eksponatlar yerləşdirilib. Bu bölmədə 1:7500 miqyasında maket qurulub. Hərbi Prokurorluq tərəfindən aparılmış ibtidai istintaq materiallarına uyğun olaraq, hücum zamanı erməni silahlı birləşmələri və 366-cı alayın bölmələrinin yerləşdiyi ərazilər və xüsusi amansızlıqla qətlə yetirilən dinc əhalinin meyitlərinin olduğu yerlər də maketdə əks olunub.

Qeyd etmək yerinə düşər ki, 2005-ci il mayın 5-dən etibarən Respublika Hərbi Prokurorluğu tərəfindən istintaq olunan həmin iş üzrə insanlıq əleyhinə müharibə cinayətləri törətmiş 296 nəfərin təqsirləndirilən şəxs qismində cəlb olunmalarına dair qərarlar çıxarılmaqla, barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib, axtarışları elan edilib.

Bölmələrdə, həmçinin fakt üzrə aparılan cinayət işinin cildləri, hadisə yerinə baxış protokolları, erməni təcavüzkarlarının törətdikləri vəhşilikləri sübut edən əşyalar, ekspert rəyləri, ifadələr, meyitlərin fotoşəkilləri və eləcə də Xocalıda, Meşəlidə, Qaradağlıda və digər yaşayış məntəqələrində cinayət izlərini özündə əks etdirən əşyalar yer alıb. 1991-ci ildə Meşəlidə tamamilə qətlə yetirilmiş Novruzovlar ailəsinə məxsus qandonduran fotoşəkillər, əşyalar, üst qadın geyimləri və yarımçıq qalmış toxuma da unikal eksponat kimi sərgilənir. Kütləvi qırğın zamanı hadisə yerindən götürülmüş partladıcı qurğular, güllə başlıqları nümunələri də muzeydə nümayiş etdirilir.

Respublika hərbi prokurorunun köməkçisi, prokurorluğun mətbuat xidmətinin rəhbəri, baş ədliyyə müşaviri Firat Əliyev mənimlə söhbətində bildirdi ki, fəaliyyətə başladığı gündən indiyədək muzeyi 35 mindən çox insan ziyarət edib. Təkcə bu il 3000 nəfərdən çox ziyarətçi qəbul olunub. Ziyarətçilərə Hərbi Prokurorluğun müvafiq əməkdaşları tərəfindən muzey haqqında məlumat verilir. Muzeyi ziyarət etmək ödənişsizdir.

Bəli, qürurverici faktdır ki, Respublika Hərbi Prokurorluğu böyük əmək sərf edərək, bunu bacarıb və xalqımızın 200 illik faciələrlə dolu soyqırımı tarixini, hərbi cinayətlərin istintaq materiallarını toplayaraq, böyük bir mərkəzdə birləşdirib. Qeyd etdiyimiz kimi, bura təkcə ziyarət etmək üçün deyil, öncə yetişməkdə olan nəslin üzərinə bu həqiqətləri dünyaya eşitdirmək və qəbul etdirmək öhdəliyi qoyulmalıdır. Artıq əziyyət çəkməyə, arxivlərdə, kitabxanaların oxu zallarında aylarla vaxt itirməyə ehtiyac qalmır, bütün məlumatlar burada ən yüksək səviyyədə nümayiş olunur. Muzey geniş oxucu kütləsi, araşdırmaçılar, tədqiqatçılar üçün zəngin mənbədir. Yetər ki, tariximizi öyrənək təbliğ edək, dünyanı gerçəklərə inandırmağı bacaraq.

Əminə YUSİFQIZI,
Əməkdar jurnalist

Elm Günü və Günün elmi: yeniləşmə prosesləri

İsa HƏBİBBƏYLİ,
AMEA-nın prezidenti, akademik

(əvvəli 1-ci səhifədə)

Bununla belə, etiraf etmək lazımdır ki, Azərbaycan elminin inkişafında XIX əsrdən başlanan maarifçilik hərəkatının böyük rolu olmuşdur. Orta əsrlərdən gələn mədrəsə təhsilinin davam etdirilməsi ilə bərabər, XIX əsrin əvvəllərindən etibarən Azərbaycanın bütün bölgələrində meydana çıxmış dünyəvi məktəblər, genişlənən ədəbi məclislər, milli teatr hərəkatının və milli mətbuatın yaranması və inkişaf etməsi sistemli elmi fikrin formalaşmasında xüsusi əhəmiyyətə malik olmuşdur. Artıq XIX əsrdə ədəbi-ictimai fikirdə "ikihakimiyyətlilik" yaranmağa başlamışdır. Yeni Azərbaycan ədəbiyyatının inkişafında parlaq yazıçı və şairlər kimi şöhrət qazanan sənətkarlar həm də elmi əsərləri ilə də ölkədə və onun hüdudlarından kənarda tanınmışlar. Məsələn, Abbasqulu ağa Bakıxanov "Təbriz əhlinə xitab" kimi maarifçi şeirləri, "Kitabi-Əsgəriyyə" adlı didaktik hekayəsi ilə bərabər, həm də "Gülüstani-İrəm" kimi fundamental tarix kitabı ilə də Çar Rusiyasında, Osmanlı Türkiyəsində və İranda ad qazanmışdır. Onun yazdığı "Coğrafiya" kitabı Türkiyədə nəşr edilmişdir. Yaxud Azərbaycan dramaturgiyasının və realist nəsrinin banisi Mirzə Fətəli Axundzadə, eyni zamanda ölkəmizdə professional ədəbi tənqidin də əsasını qoymuşdur. Tanınmış maarifçi şair və pedaqoq Məhəmməd Tağı Sidqi həm də "Nümuneyi-əxlaqi", "Töhfeyi-bənat, yaxud qızlara hədiyyə", "Coğrafiya" kimi elmi-populyar xarakterli dərsliklərin də müəllifi idi. Bu baxımdan XIX əsrin sonu və XX əsrin əvvəllərində meydana çıxmış Rəşid bəy Əfəndiyev, Abdulla Şaiq, Mahmud bəy Mahmudbəyov, Abbas Səhhət, Hüseyn Cavid və başqalarının dərslikləri həm də dövrün elmi-maarifçi əsərləri kimi qəbul olunmuşdur. Beləliklə, Azərbaycanda elm məktəb dərsliklərindən keçərək müstəqil elmi təlim səviyyəsinə yüksəlmişdir.

Bütün bunlarla bərabər, Azərbaycanda elmin inkişafında elmi təşkilatların yaranması xüsusi əhəmiyyət kəsb edir. Bu cəhətdən 1923-cü ildə təsis edilmiş Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti çoxəsrlik elm tariximizə ilk elmi qurum kimi daxil olmuşdur. Bu Cəmiyyətin 5 ildən çox keçdiyi yol Azərbaycanda daha əsaslı şəkildə təşkilatlanmış akademik qurumlara yol açmışdır. Həmçinin Tədqiq və Tətəbbö Cəmiyyətinin ətrafında cəmlənmiş və ya bu zəmində formalaşmış alimlər gələcək elmi təşkilatların qurucuları və əsas elmi heyəti kimi çıxış etmişlər. Qısa müddət fəaliyyət göstərməsinə baxmayaraq, Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutu Tədqiq və Tətəbbö Cəmiyyəti ilə Azərbaycan Elmlər Akademiyası arasında körpü funksiyasını yerinə yetirmişdir.

Nəhayət, 1932-ci ilin 29 dekabrında təsis edilmiş SSRİ Elmlər Akademiyası Zaqafqaziya Filialının Azərbaycan şöbəsinin yaradılması ilə respublikamızda ilk akademik elmi təşkilatın yaranması baş tutmuşdur. Az sonra, 1935-ci ildə həmin akademik qurumun SSRİ Elmlər Akademiyasının Azərbaycan Filialı statusunda fəaliyyətini davam etdirməsi ilə ölkəmizin müstəqil akademik təşkilatının qurulması üçün zəruri olan addım atılmışdır. Bütün bunların əsasında 27 mart 1945-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasının yaranması ilə ölkə elminin davamlı və sistemli inkişafı təmin edilmişdir. Milli Elmlər Akademiyasının keçdiyi 80 ilə yaxın məsuliyyətli və şərəfli yol Azərbaycan elminin çoxəsrlik inkişafı tarixinin xüsusi bir mərhələsidir. Azərbaycan Milli Elmlər Akademiyasına rəhbərlik etmiş Mir Əsədulla Mirqasımov, Yusif Məmmədəliyev, Musa Əliyev, Zahid Xəlilov, Rüstəm İsmayılov, Həsən Abdullayev, Fəraməz Maqsudov, Mahmud Kərimov, Akif Əlizadə və başqaları öz dövrlərinə görə ölkəmizdə fundamental tədqiqatların və tətbiqi elmin inkişaf etdirilməsi üçün məqsədyönlü islahatlar həyata keçirmiş, irəliyə doğru əhəmiyyətli addımlar atmışlar. Nəticədə Milli Elmlər Akademiyası zəminində Azərbaycanda müxtəlif istiqamətlər üzrə elmi məktəblər yaranmışdır. Azərbaycan keçmiş Sovetlər İttifaqında və onun hüdudlarından kənarda neft kimyası, neft geologiyası, yarımkeçiricilər fizikası, paleontologiya, idarəetmə sistemləri, fotosintez və seleksiya və sair kimi elm sahələri üzrə əsas elmi mərkəz kimi tanınmışdır. Elmlər Akademiyası həmçinin ölkəmizdə həmişə ümummilli ideayaların, milli dövlətçilik ideologiyasının, milli-mənəvi dəyərlərin əsas inkişaf mərkəzlərindən biri olmaq funksiyasını şərəflə yerinə yetirmişdir.

Azərbaycanda cəmiyyət həyatının bütün sahələri kimi, elmin də inkişaf etdirilməsində Ümummilli lider Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. Məhz Ulu öndərin xidmətləri sayəsində ölkə elminin baş qərargahı olan Elmlər Akademiyasının maddi-texniki bazası əsaslı şəkildə yenidən qurulmuş, elmi tədqiqatların ölkə həyatı ilə əlaqələndirilməsi üçün geniş imkanlar yaradılmışdır. Heydər Əliyevin uzaqgörənliyi sayəsində humanitar və ictimai elmlərin azərbaycançılıq istiqamətində inkişaf etdirilməsi, Azərbaycan dilinin və milli mədəniyyətin tədqiqi və təbliğinə xüsusi diqqət yetirilməsi xalqımızın gələcək dövlət müstəqilliyinə hazırlanmasına uğurla xidmət göstərmişdir. Sonralar Azərbaycanda müstəqillik uğrunda mübarizə hərəkatında və dövlət müstəqilliyi quruculuğunda alimlərin, yaradıcı ziyalıların aparıcı mövqe qazanmasının əsası görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycan Sovet Respublikasına rəhbərlik etdiyi illərdə qoyulmuşdur. Sovet İttifaqı Qəhrəmanı, akademik Ziya Bünyadov, akademik Fəraməz Maqsudov, AMEA-nın müxbir üzvləri Abbas Zamanov, Xudu Məmmədov, tanınmış professorlar Murtuz Ələsgərov, Yəhya Məmmədov, xalq yazıçıları Anar, Elçin, Yusif Səmədoğlu, xalq şairləri Bəxtiyar Vahabzadə, Məmməd Araz, Xəlil Rza Ulutürk, Vaqif Səmədoğlu, Sabir Rüstəmxanlı, Zəlimxan Yaqub və başqaları Azərbaycan tarixinin Heydər Əliyev epoxasının görkəmli milli ziyalıları, böyük mübariz vətəndaşlarıdır. Azərbaycanın yeni vətənpərvər nəsilləri ölkəmizin milli ruhlu adlı-sanlı vətəndaş alimlərinin və şairlərinin ideyalarının işığında yetişib formalaşmışlar. Azərbaycan Elmlər Akademiyasının 1975-ci ildə keçmiş SSRİ-nin ən yüksək mükafatlarından biri olan "Xalqlar dostluğu" ordeni ilə təltif olunması da Heydər Əliyev epoxasında qazanılmış tarixi nailiyyətdir.

Ölkəmiz müstəqillik qazandıqdan sonra da yeni tarixi epoxasının lideri olan Heydər Əliyev Azərbaycan elmini inkişaf etdirmək üçün genişmiqyaslı tədbirlər həyata keçirmişdir. Prezident Heydər Əliyevin Fərmanı ilə 2003-cü ildə Akademiyaya Milli Elmlər Akademiyası statusunun verilməsi elmimizin keçmiş sovet imperiyasının təsirindən xilas edilərək, xalqın milli maraqlarına və ölkənin dövlətçilik mənafelərinə doğru istiqamətləndirilməsi sahəsində atılmış əhəmiyyətli addımdır. Milli Elmlər Akademiyasının müstəqillik dövrünə aid Heydər Əliyevin təsdiqlədiyi ilk Nizamnaməsinin qəbul edilməsi də ölkə elminin müstəqil dövlət quruculuğuna və bəşəri dəyərlərə doğru inkişafında xüsusi rol oynamışdır. Azərbaycan alimlərinin yubileylərinin keçirilməsi, yüksək dövlət mükafatları ilə təltif olunması, yeni elmi nəslin nümayəndələrinin irəli çəkilməsi Heydər Əliyev ideallarının işığında elmimizin tarixinə yazılmış mühüm səhifələrdir.

Yeni tarixi epoxada Azərbaycan elmi ölkəmizin rəhbəri İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində yeni inkişaf mərhələsinə daxil olmuşdur. Dövlət başçısının təsdiq etdiyi ölkəmizin inkişaf strategiyasında və milli prioritetlər sırasında elmə dair müddəaların yer alması elmin rolunun daha da artırılması ilə bərabər, həm də cəmiyyət həyatının inkişafına doğru qəti dönüşün təmin edilməsinə həlledici təsir göstərmişdir. Prezident İlham Əliyevin 13 dekabr 2014-cü ildə AMEA-nın yeni Nizamnaməsini təsdiq etməsi ilə Azərbaycan elminin yeni mərhələsinin məsul vəzifələrinin inkişafına doğru istiqamətləndirilməsinə hüquqi təminat verilmişdir. Müstəqillik dövrü Azərbaycan elminin inkişafında müstəsna rolu olan "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzinin, Yüksək Texnologiyalar Parkının yaradılması, AMEA Gəncə Bölməsinin, Lənkəran Regional Elmi Mərkəzinin təşkili, AMEA Mərkəzi Elmi Kitabxanasının fəaliyyətə başlaması, Şamaxı Astrofizika Rəsədxanasının maddi-texniki bazasının yeniləşdirilməsi, Milli Azərbaycan Tarixi Muzeyinin, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin əsaslı şəkildə yenidən qurulması kimi dövlət əhəmiyyətli addımlar Prezident İlham Əliyevin dövlət səviyyəsində həyata keçirdiyi tədbirlər kimi əhəmiyyətlidir.

Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 28 iyul 2022-ci il tarixli Fərmanı ilə Azərbaycan elminin inkişafında yeni mərhələ başlanmışdır. AMEA-nın 3 noyabr 2023-cü ildə təsdiq edilmiş yeni Nizamnaməsi Akademiyanın və ümumiyyətlə elmi fəaliyyətin ölkəmizin inkişafında başlanmış yeni dövrün tələblərinə uyğun şəkildə yenidən qurulmasına geniş meydan açır. Son illərdə yenidən təşkilatlanma və müasir idarəetmə ilə əlaqədar Milli Elmlər Akademiyasında həyata keçirilən genişmiqyaslı islahatlar elmin tərəqqisinə, dövrün məsul vəzifələrinə doğru inkişafına təminat verir. AMEA-da azərbaycançılıq ideyasının ön mövqeyə çıxarılması, dövrün milli ideologiyasının müəyyən edilməsi istiqamətindəki araşdırmalar elmimizin milli dövlətçilik maraqlarına və milli-mənəvi dəyərlərimizin tədqiq edilərək yeni nəsillərə çatdırılmasına hesablanmış tədbirlərdir.

Azərbaycanın ədəbiyyatı və tarixinin, habelə milli mədəniyyətimizin yeni dövrləşdirilmə konsepsiyasının hazırlanması, çoxəsrlik inkişaf mərhələlərinin müəyyən edilməsi, milli fəlsəfi təlimlərin formalaşdırılması sahəsində aparılan müzakirələr və əldə edilən yekun qənaətlər xalqımızın tarixinin müstəqillik işığında yenidən yazılmasına, ədəbiyyat və mədəniyyət tariximizin azərbaycançılıq əsasında mərhələlər üzrə təsnifləndirilməsinə əsas verir. Artıq Azərbaycan ədəbiyyatı tarixinin 10 cildindən 7 cildinin yeni konsepsiya əsasında yazılıb başa çatdırılması, Azərbaycan tarixinin 15 cilddə yenidən yazılması üçün elmi konsepsiyanın və plan-prospektin müəyyən edilməsi, çoxcildlik milli fəlsəfi təlimlər kitabə seriyasının davam etdirilməsi yeni tarixi mərhələnin elmdəki əks-sədasının əməli təzahürüdür. Nəsimi adına Dilçilik İnstitutunda repressiya qurbanı olmuş özbək əsilli Azərbaycan alimi Xalid Səid Xocayevin 1935–1937-ci illərdə ərəbcədən dilimizə tərcümə edilmiş "Divani-lüğat-it-türk" kitabının 86 ildən sonra üzə çıxarılması və 3 cilddə müqəddimə, giriş məqaləsi və şərhlərlə birlikdə nəşr edilməsi yeni tarixi mərhələnin mühüm elmi naliyyətlərindən biri kimi qiymətləndirilməyə layiqdir.

"Qarabağın və Şərqi Zəngəzurun Dialektoloji Atlası"nın hazırlanıb nəşr edilməsi də günün əhəmiyyətli elmi nailiyyətlərindəndir. Humanitar və İctimai Elmlər Bölmələrinin əhatə etdiyi elmi-tədqiqat institutlarında aparılan tədqiqatlar və bu mövzuda nəşr edilən kitabların əsasında Akademiyanın yeni Qarabağnamələr silsiləsi yaradılmışdır. Arxeologiya və Antropologiya İnstitutunun Qarabağın işğaldan azad edilmiş ərazilərində həyata keçirdiyi qazıntılar həm bu diyarın qədim tarixinin, həm də I Qarabağ müharibəsi zamanı Ermənistan tərəfinin azərbaycanlılara qarşı törətdiyi vəhşiliklərin üzə çıxarılmasını təmin etmişdir. Bu il işğaldan azad olunmuş ərazilərdə arxeoloji tədqiqatların və qazıntıların əhatə dairəsi daha da genişləndirilərək bütün Qarabağı və Şərqi Zəngəzuru əhatə edəcək.

AMEA Prezident İlham Əliyevin elan etdiyi "Heydər Əliyev İli"ndə Ümummilli liderin xalqımız və dövlətimiz qarşısındakı xidmətlərinin, böyük ideallarının tədqiq edilib öyrənilməsi sahəsində böyük uğurlara imza atılmışdır. Artıq Akademiyanın alimləri tərəfindən 2 cildlik "Heydər Əliyev ensiklopediyası"nın hazırlanması üçün ilkin sözlük bazası üzərində iş başa çatdırılmışdır. "Heydər Əliyev İli"ndə Azərbaycan elmində Ulu öndərin həyatı və fəaliyyətinin tanıdılmasından və təbliğ edilməsindən fundamental tədqiqatlar əsasında araşdırılıb ümumiləşdirilməsinə keçidi əks etdirən bir kitabxanalıq monoqrafik tədqiqatlar hazırlanıb nəşr olunmuşdur. Akademiyanın ümumi yığıncağının xüsusi iclasında, təşkil olunmuş beynəlxalq və respublika miqyaslı konfranslarda dinlənilmiş mərzuzələr, aparılan müzakirələr XX əsrin böyük dahi rəhbəri Heydər Əliyevin şəxsiyyəti, xidmətləri və ideallarının təbliğinə uğurla xidmət edir.

Akademiya "Nizami Gəncəvi İli"ndə Azərbaycan nizamişünaslığının azərbaycançılıq meyarları ilə yeni elmi əsaslarının yaradılmasına əhəmiyyətli elmi töhfələr vermişdir. Ölkəmizdə və xaricdə nəşr edilmiş monoqrafik əsərlər və nüfuzlu jurnallarda yer almış məqalələr Nizami Gəncəvi dühasının sənət qüdrətinə, ölməz şairin milli kimliyinə, nəsil şəcərəsinə, onun dünya şöhrətinə gur işıq salan yeni araşdırmaların ana xətlərini müəyyən edir.

Prezident İlham Əliyevin irəli sürdüyü Qərbi Azərbaycana Qayıdış ideyasının elmi əsaslarını formalaşdırmaq üçün də akademiyada bir sıra əhəmiyyətli tədbirlər keçirilmişdir. Qərbi Azərbaycan Tədqiqatları Əlaqələndirmə Şurasının iclaslarında bu məsələ ilə əlaqədar əməli və konseptual məsələlər müzakirə olunaraq, müvafiq qərarlar qəbul edilmişdir. Artıq "Qərbi Azərbaycan ensiklopediyası"nın sözlüyü üzərində iş başa çatdırılmış, Qərbi Azərbaycana həsr edilmiş elmi əsərlərin bibliografiyası hazırlanaraq kitab halında nəşr edilmişdir. Tarix və Etnologiya İnstitutunda yaradılmış Qərbi Azərbaycan Tarixi, Folklor İnstitutundakı Qərbi Azərbaycan Folkloru, Dilçilik İnstitutundakı Toponimika şöbələrində arxiv sənədləri və dövri mətbuat materialları əsasında fundamental tədqiqatların aparılması sahəsində işlər uğurla davam etdirilir. AMEA-da Qərbi Azərbaycana dair yaradılan şöbələr və aparılan tədqiqatlar Ermənistan EA-da ciddi narahatlıq doğurmuş və buna görə qonşu ölkənin akademik təşkilatının rəhbəri ölkəsinin Təhlükəsizlik Şurasına müraciət edərək, özlərində də bizə qarşı tədqiqat və təbliğat aparmaq üçün əlavə köməklik göstərilməsini xahiş etmişdir. AMEA-nın Tarix və Etnologiya İnstitutu Atatürk Kültür, Dil və Tarix Qurumunun Türk Tarix Qurumu ilə birlikdə 29 noyabr 2023-cü ildə "Rəvandan–İrəvana və Qərbi Azərbaycana" mövzusunda beynəlxalq elmi konfrans keçirməklə Qərbi Azərbaycan tədqiqatlarının miqyasını daha da genişləndirmişdir.

Akademiyada aparılan islahatlar sırasında Elektron hərəkat xüsusi yer tutur. Akademik fəaliyyətin elmmetrik qiymətləndirilməsi, akademiya alimlərinin əsərlərinə elmi istinadların müəyyən edilməsi üçün beynəlxalq elmi bazalarda profillər yaradılması, elmi jurnalların elektron bazasının qurulması, elmi-tədqiqat institutlarında Elektron xidmətlər şöbəsinin təşkili Akademiya elektron hərəkatının yeni elmi addımlarıdır. MDB EA-ları məkanında ilk dəfə olaraq AMEA-da Virtual Elektron Resurslar Sisteminin yaradılması mühüm elmi hadisədir. Türk dövlətləri içərisində Türkiyə Cümhuriyyətindən sonra ilk dəfə olaraq AMEA-da elmi jurnalların Dərgi Park Şəbəkəsinin təşkili də əhəmiyyətli yenilikdir. Nəhayət, AMEA-nın Türkiyə Cümhuriyyətinin nüfuzlu TÜBİTAK akademik təşkilatı ilə 28 fevral 2024-cü ildə imzaladığı qarşılıqlı əməkdaşlıq haqqında müqavilə qardaş ölkənin elmi qurumu ilə birlikdə ölkəmizin TÜBİTAK-ının yaradılmasını hədəfləmişdir. Hazırda Elektron Akademiyaçılar sadə elmmetrik hesablamalar aparmaq bacarığına malik robot texnologiyaları modeli yaratmaq üzərində hazırlıq işləri aparırlar. Eyni zamanda 2024-cü ildə AMEA-da "Süni intellekt və rəqəmsallaşdırma: imkanlar və risklər" mövzusunda elmi konfransın keçirilməsi nəzərdə tutulur ki, bu da öz növbəsində elektron hərəkatın nəzəri dərkinə və praktik əhəmiyyətinə diqqətin daha da artırılmasına səbəb olmuşdur.

Günün elmi haqqında danışarkən AMEA-nın dünya elminə inteqrasiyası sahəsində atdığı addımları da ayrıca qeyd etməyə ehtiyac var. Belə ki, Akademiyanın tarixində ilk dəfə olaraq, 2023–2024-cü illərdə Milli Elmlər Akademiyası 3 beynəlxalq elmi təşkilatın üzvlüyünə qəbul edilmişdir. Hazırda AMEA Beynəlxalq Elmi Şura, Asiya Elmlər Akademiyaları və Elmi Cəmiyyətləri Assisiasiyası və Avrasiya Universitetlər Birliyində tam səsvermə hüququna malik olan akademik qurum statusu qazanmışdır. Son illərdə Türkiyə, Pakistan, Bolqarıstan, Özbəkistan, Qazaxıstan, Monteneqro Elmlər Akademiyaları ilə bağlnmış müqavilələr, əldə edilmiş razılaşmalar AMEA-nın üfüqlərini daha da genişləndirmişdir. Əməkdaşlarımızın Çin Xalq Respublikasının Honkonq Elmlər Akademiyasının, Qazaxıstan və Gürcüstan Elmlər akademiyalarının fəxri üzvü seçilmələri, Nobel mükafatı laureatı Əziz Sancarın AMEA-nın fəxri üzvlüyünə qəbul edilməsi, alimlərimizin nüfuzlu beynəlxalq elmi jurnalların redaksiya heyətində təmsil olunmaları dünya elmi meridianlarındakı yeni səhifələrdir.

Eyni zamanda AMEA-da 17 noyabr 2023-cü ildə "Nobel mükafatına aparan yolun dərsləri: mif, reallıqlar, uğurlar və çağırışlar" mövzusunda keçirilmiş beynəlxalq elmi konfransda Azərbaycan alimlərinin sağlam rəqabət əsasında beynəlxalq elmi səviyyəyə çıxmaq imkanlarına iddialı olmalarını təşviq etməyə hesablanmışdır. Bu günlərdə Nobel Sülh Mükafatı laureatı, banqladeşli Məhəmməd Yunusun AMEA-da olması və aparılan müzakirələrdə beynəlxalq elmi əməkdaşlığın üfüqlərinin genişləndirilməsinə doğru yeni addımların atılması zərurətinin diqqətə çatdırılması bu sahədə yeni hədəflərin müəyyən edilməsinə meydan açır. İlk dəfə olaraq Türkiyə Cümhuriyyəti Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumunun Türk Dil Qurumu ilə birlikdə 2023-cü ilin 26 sentyabrında AMEA-da Türk Dili Bayramının qeyd edilməsi Humanitar Elmlər Bölməsinin institutları ilə qardaş ölkənin eyni profilli qurumlarının əlaqələrinin daha da genişləndirilməsinə səbəb olmuşdur. Bunun ardınca Türk Dil Qurumunun nəşr etdiyi 420 kitabı Nəsimi adına Dilçilik İnstitutuna hədiyyə etməsi səmərəli elmi əməkdaşlığın nəticəsidir. Bu ilin mart ayında Dilçilik İnstitutunda təşkil olunmuş Novruz bayramı Milli Elmlər Akademiyası ilə Türkiyə Elmlər Akademiyasının, Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumu və Türk Dil Qurumu ilə qarşılıqlı əməkdaşlığımızın yadda qalan hadisəsidir. Bu əlaqələrin yüksələn xətlə inkişaf etməsi Azərbaycan Milli Elmlər Akademiyasının 2023-cü ildə Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumunun və Türk Dil Qurumunun "Türk dilinə xidmət" beynəlxalq mükafatı ilə təltif olunmasında öz əksini tapmışdır.

Struktur islahatları sahəsində atılmış addımlar Azərbaycan Milli Elmlər Akademiyasındakı yeniləşmə proseslərinin mühüm hadisəsidir. AMEA Tarix İnstitutunun bazasında Tarix və Etnologiya İnstitutunun, Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun əsasında Arxeologiya və Antropologiya İnstitutunun təşkili bu istiqamətlərdə tədqiqatların və tədbirlərin də miqyasının dərinləşdirilməsinə və genişləndirilməsinə xidmət edir. Eyni zamanda AMEA-nın müxtəlif elmi-tədqiqat institutlarının tərkibində zamanın müasir tələblərinə uyğun olaraq "Qarabağ müharibəsinin tarixi və Böyük Qayıdış hərəkatı", "Türk xalqlarının tarixi və etnologiyası", "Xəzərin arxeologiyası", "Erkən realizm və yeni dövr Azərbaycan ədəbiyyatı", "İdrak nəzəriyyəsi və məntiqi", "Türk xalqlarının əlyazmaları", "Musiqi folkloru" şöbələrinin, Ədəbiyyat İnstitutunda Mehmet Akif Ərsoy türk ədəbiyyatı Mərkəzinin fəaliyyətə başlaması Azərbaycan elminin yeniləşmə imkanlarının daha da genişləndirilməsinə şərait yaradır.

Azərbaycan Milli Elmlər Akademiyası Elm Gününə hesabat verərkən qarşıda duran məsul vəzifələri də diqqətlə və məsuliyyət hissi ilə nəzərdən keçirərək irəliyə doğru addımlayır. Azərbaycançılıq istiqamətində tədqiqatların mükəmməl elmi sisteminin yaradılması, türk dünyası ilə elmi əlaqələrin daha da genişləndirilməsi, humanitar və ictimai elmlər sahəsində süni intellektin tətbiq edilməsi, yeni elmi nəslin hazırlanmasına diqqətin artırılması, daha optimal idarəetmə sistemlərinin qurulması, elektron sənəd dövriyyəsinin müasir səviyyəyə qaldırılması, süni intellektin humanitar və ictimai elm sahələrinə tətbiq olunması və ən başlıcası isə müstəqil dövlətimizin daha da inkişaf etdirilməsində Azərbaycan elminin rolunun artırılması Akademiyanın gələcəyə doğru hədəflərində mühüm yer tutur. Artıq Azərbaycan Milli Elmlər Akademiyasının embleminin dəyişdirilməsi və yeni loqotipinin yaradılması üçün keçirilmiş müsabiqənin başa çatmaqda olması da yeniləşmə proseslərinin detallarından birinin də gündəmə daxil olmasından xəbər verir. Məlumat üçün qeyd edək ki, AMEA-nın yeni loqotipinin yaradılması üçün təşkil olunmuş müsabiqəyə 23 Akademiya əməkdaşının çəkdiyi 57 layihə təqdim olunmuş, 27 mart 2024-cü il tarixdə keçirilən Elm Günü tədbirləri çərçivəsində həmin eskiz layihələrinə ictimai baxışı təmin etmək üçün ilk sərgi təşkil edilmişdir. Tərkibində görkəmli rəssamların da olduğu müsabiqə komissiyasının qiymətləndirilməsindən sonra həmin eskiz layihələri içərisindən AMEA-nın loqosu üçün seçilmiş iş qəbul ediləcək.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2024-cü il fevralın 14-də Andiçmə mərasimində irəli sürdüyü çağırışlar Milli Elmlər Akademiyası kollektivinin, alimlərimizin qarşısında daha mühüm vəzifələr qoyur. Azərbaycan alimləri müstəqil dövlətimizin inkişafına xidməti müqəddəs borc kimi qəbul edərək, daha böyük elmi hədəflərə doğru inamla addımlamağı şərəf işi hesab edirlər. Azərbaycan Milli Elmlər Akademiyasının elmi heyəti bu akademik təşkilatın təsis edilməsinin 80-ci ilinin başlanğıcında Elm Gününü bu əhval-ruhiyyə ilə qeyd edir. Alimlərin peşə bayramı olan Elm Günü mahiyyəti etibarilə bugünün elminin vəzifələrinə, öhdəliklərinə və çağırışlarına işıq salır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

№ 162 **Bakı şəhəri, 16 mart 2024-cü il**

"Müntəzəm beynəlxalq, şəhərlərarası (rayonlararası) və şəhərdaxili (rayondaxili) sərnişin daşımalarının yerinə yetirilməsi ilə bağlı sifarişçinin keçirdiyi müsabiqədə iştiraka görə ödənişin məbləği"nin təsdiq edilməsi haqqında

"Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 973-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2008-ci il 4 iyul tarixli 792 nömrəli, "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli 1016-VQD nömrəli Qanununun tətbiqi və "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" 2018-ci il 17 aprel tarixli 1926 nömrəli, "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin fəaliyyətinin təmin edilməsi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında" 2011-ci il 20 iyul tarixli 472 nömrəli, "Sumqayıt şəhərində avtomobil nəqliyyatı ilə sərnişin daşınması sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" 2015-ci il 7 dekabr tarixli 704 nömrəli və "Gəncə şəhərində avtomobil nəqliyyatı ilə sərnişin daşınması sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" 2016-cı il 25 yanvar tarixli 750 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" 2022-ci il 8 sentyabr tarixli 1842 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 18 avqust tarixli 2300 nömrəli Fərmanının 2.1.5-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Müntəzəm beynəlxalq, şəhərlərarası (rayonlararası) və şəhər-daxili (rayondaxili) sərnişin daşımalarının yerinə yetirilməsi ilə bağlı sifarişçinin keçirdiyi müsabiqələrdə iştiraka görə ödənişin məbləği" təsdiq edilsin (əlavə olunur).

Əli ƏSƏDOV,
Azərbaycan Respublikasının
Baş naziri

Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

№ 163 **Bakı şəhəri, 16 mart 2024-cü il**

"İnternet informasiya ehtiyatı vasitəsilə elektron ticarəti həyata keçirən qeyri-rezidentin elektron qaydada vergi uçotuna alınması, yenidən uçota alınması və uçotdan çıxarılması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 oktyabr tarixli 387 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 677-VIQD nömrəli Qanununun tətbiqi, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" 2000-ci il 30 avqust tarixli 393 nömrəli və "Fiziki şəxs olan istehlakçılar tərəfindən Azərbaycan Respublikasının ərazisində pərakəndə ticarət, ictimai iaşə və tibb fəaliyyəti göstərən şəxslərdən alınmış mallara (neft və qaz məhsulları, avtomobillər, alkoqollu içkilər və tütün məmulatları istisna olmaqla) və göstərilən xidmətlərə görə ödənilmiş ƏDV-nin qaytarılması Qaydası"nın təsdiq edilməsi haqqında" 2020-ci il 21 mart tarixli 969 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" 2022-ci il 30 dekabr tarixli 1946 nömrəli və "Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında" Azərbaycan Respublikasının 2022-ci il 2 dekabr tarixli 661-VIQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublika-sının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanında dəyişiklik edilməsi, "Kiçik sahibkarlığa dövlət köməyi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1999-cu il 4 avqust tarixli 171 nömrəli Fərmanının ləğv edilməsi haqqında" 2023-cü il 26 yanvar tarixli 2001 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 16 dekabr tarixli 2409 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"İnternet informasiya ehtiyatı vasitəsilə elektron ticarəti həyata keçirən qeyri-rezidentin elektron qaydada vergi uçotuna alınması, yenidən uçota alınması və uçotdan çıxarılması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 oktyabr tarixli 387 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 10, maddə 1467 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

Əli ƏSƏDOV,
Azərbaycan Respublikasının
Baş naziri

Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

№ 168 **Bakı şəhəri, 19 mart 2024-cü il**

"Azərbaycan Milli Elmlər Akademiyasının nəzdində Təbiət Tarixi Muzeyinin Nizamnaməsinin və strukturunun təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 10 iyul tarixli 265 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

"Azərbaycan Milli Elmlər Akademiyasının Nizamnaməsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 3 noyabr tarixli 2340 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Milli Elmlər Akademiyasının nəzdində Təbiət Tarixi Muzeyinin Nizamnaməsinin və strukturunun təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 10 iyul tarixli 265 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 7, maddə 896 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1. Adında, 1-ci və 2-ci hissələrdə "Azərbaycan Milli Elmlər Akademiyasının nəzdində" sözləri "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki" sözləri ilə əvəz edilsin.

2. Həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərbaycan Milli Elmlər Akademiyasının nəzdində Təbiət Tarixi Muzeyinin Nizamnaməsi" üzrə:

2.1. adında və 1.1-ci bənddə "Azərbaycan Milli Elmlər Akademiyasının nəzdində" sözləri "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki" sözləri ilə əvəz edilsin;

2.2. 1.3-cü bənddə "Azərbaycan Milli Elmlər Akademiyasının (bundan sonra - AMEA)" sözləri "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin (bundan sonra - Nazirlik)" sözləri ilə əvəz edilsin;

2.3. 1.4-cü bənddə "AMEA-nın" sözləri "Nazirliyin" sözü ilə əvəz edilsin;

2.4. 3.1.1-ci yarımbənddə, 6.3-cü bəndin ikinci cümləsində, 6.4-cü bəndin üçüncü cümləsində, 6.9-cu bənddə, 6.10.5-ci və 6.10.7-ci yarımbəndlərdə "AMEA-nın Rəyasət Heyəti" sözləri "Nazirlik" sözü ilə əvəz edilsin;

2.5. 4.2-ci bənddə "AMEA-nın Rəyasət Heyətinin" sözləri "Nazirliyin" sözü ilə əvəz edilsin;

2.6. 6.10.6-cı yarımbənddə "AMEA-nın Rəyasət Heyətinə" sözləri "Nazirliyə" sözü ilə əvəz edilsin.

3. Həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Azərbaycan Milli Elmlər Akademiyasının nəzdində Təbiət Tarixi Muzeyinin strukturu"nun adında "Azərbaycan Milli Elmlər Akademiyasının nəzdində" sözləri "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki" sözləri ilə əvəz edilsin.

Əli ƏSƏDOV,
Azərbaycan Respublikasının
Baş naziri

Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

№ 169 **Bakı şəhəri, 19 mart 2024-cü il**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 26 fevral tarixli 65 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan peşə təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 26 fevral tarixli 65 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 2, maddə 361 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 21 fevral tarixli 95 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan peşə təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi"nin 5.2-ci bəndində "Ali təhsil" sözləri "Peşə təhsili" sözləri ilə əvəz edilsin.

Əli ƏSƏDOV,
Azərbaycan Respublikasının
Baş naziri

Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

№ 164 **Bakı şəhəri, 16 mart 2024-cü il**

"Azərbaycan Respublikası Prezidentinin "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 29 dekabr tarixli 963-VQD nömrəli Qanununun tətbiqi haqqında" 2018-ci il 5 fevral tarixli 1816 nömrəli, "Patent haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli 1005-VQD nömrəli Qanununun tətbiqi haqqında" 2018-ci il 5 aprel tarixli 1913 nömrəli, "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli 1006-VQD nömrəli Qanununun tətbiqi haqqında" 2018-ci il 5 aprel tarixli 1914 nömrəli, "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli 1007-VQD nömrəli Qanununun tətbiqi haqqında" 2018-ci il 5 aprel tarixli 1915 nömrəli, "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli 1008-VQD nömrəli Qanununun tətbiqi haqqında" 2018-ci il 5 aprel tarixli 1916 nömrəli, "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 4 may tarixli 1140-VQD nömrəli Qanununun tətbiqi və "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 7 fevral tarixli 192 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2018-ci il 1 iyun tarixli 105 nömrəli və "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2018-ci il 26 iyun tarixli 148 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 16 dekabr tarixli 2405 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 29 dekabr tarixli 963-VQD nömrəli Qanununun tətbiqi haqqında" 2018-ci il 5 fevral tarixli 1816 nömrəli, "Patent haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli 1005-VQD nömrəli Qanununun tətbiqi haqqında" 2018-ci il 5 aprel tarixli 1913 nömrəli, "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli 1006-VQD nömrəli Qanununun tətbiqi haqqında" 2018-ci il 5 aprel tarixli 1914 nömrəli, "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli 1007-VQD nömrəli Qanununun tətbiqi haqqında" 2018-ci il 5 aprel tarixli 1915 nömrəli, "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respub-likasının 2018-ci il 23 fevral tarixli 1008-VQD nömrəli Qanununun tətbiqi haqqında" 2018-ci il 5 aprel tarixli 1916 nömrəli, "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 4 may tarixli 1140-VQD nömrəli Qanununun tətbiqi və "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 7 fevral tarixli 192 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2018-ci il 1 iyun tarixli 105 nömrəli və "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2018-ci il 26 iyun tarixli 148 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 16 dekabr tarixli 2405 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Dövlət ilkin kəmiyyət vahidi etalonlarından kəmiyyət vahidlərinin ötürülməsinə görə xidmət haqqının məbləğinin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 437 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2152 (Cild I) 3-cü hissəsi ləğv edilsin.

2. "Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 21 dekabr tarixli 556 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (II kitab), maddə 2751 (Cild I) 6-cı hissəsi ləğv edilsin.

3. "Peşəkar mühasib təşkilatının akkreditasiya olunması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 2 may tarixli 204 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 941 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

4. "Peşəkar mühasib sertifikatının verilməsi prosesinin təşkili, imtahanların keçirilməsi və peşəkar mühasib sertifikatı almış şəxslərin dövlət reyestrinin aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 22 may tarixli 237 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 970 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 28 fevral tarixli 109 nömrəli Qərarı) 2-ci hissəsi ləğv edilsin.

5. "İxtira, faydalı model, sənaye nümunəsi, əmtəə nişanları və coğrafi göstəricilərin hüquqi mühafizəsi sahəsində göstərilən xidmətlərin siyahısı və həmin xidmətlərə görə Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinə ödəniləcək haqların məbləğləri"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 27 may tarixli 247 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 980 (Cild I) 3-cü hissəsi ləğv edilsin.

6. "Uyğunluğu qiymətləndirən qurumların akkreditasiyasının həyata keçirilməsinə görə xidmət haqqının məbləği"nin və "Uyğunluğu qiymətləndirən qurumların akkreditasiyasının həyata keçirilməsi üçün planlaşdırılan iş həcminin xüsusiyyətləri"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 13 iyun tarixli 271 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 6, maddə 1160 (Cild I) 4-cü hissəsi ləğv edilsin.

7. "Mikro, kiçik və orta sahibkarlığın inkişafı ilə əlaqədar təhsil, elm, tədqiqat və dəstək layihələrinin maliyyələşdirilməsi Qaydası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 sentyabr tarixli 364 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 9, maddə 1236 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 8 fevral tarixli 77 nömrəli Qərarı) 2-ci hissəsi ləğv edilsin.

Əli ƏSƏDOV,
Azərbaycan Respublikasının
Baş naziri

Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

№ 166 **Bakı şəhəri, 18 mart 2024-cü il**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 25 dekabr tarixli 503 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dərman vasitələrinin farmakonəzarət Qaydası"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nairlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 25 dekabr tarixli 503 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 2084 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 13 mart tarixli 153 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Dərman vasitələrinin farmakonəzarət Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 2-ci hissə üzrə:

1.1. 2.1-ci bəndin birinci abzası aşağıdakı redaksiyada verilsin:

"2.1. Bu Qaydanın məqsədləri üçün aşağıdakı əsas anlayışlardan istifadə olunur:";

1.2. 2.1.19-cu yarımbəndə "istifadə edilən" sözlərindən sonra "Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin (bundan sonra - Nazirlik) qərarı ilə təsdiq edilmiş" sözləri əlavə edilsin;

1.3. 2.1.23-cü yarımbənddə "Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin (bundan sonra - Nazirlik) təlimatıdır." sözləri "Nazirlik tərəfindən müəyyən edilmiş prosedur;" sözləri ilə əvəz edilsin;

1.4. aşağıdakı məzmunda 2.1.24–2.1.26-cı yarımbəndlər əlavə edilsin:

"2.1.24. dərman vasitəsinin qeydiyyat tarixi - eyni təsiredici maddə və ya eyni təsiredici maddə kombinasiyalı dərman vasitələrində, həmin təsiredici maddə və ya təsiredici maddə kombinasiyalı bir dərman vasitəsinin Avropa İttifaqında (bundan sonra - Aİ) ilk dəfə qeydiyyata alındığı tarix və ya bu tarixi müəyyən etmək mümkün olmadıqda, həmin təsiredici maddə və ya təsiredici maddə kombinasiyalı bir dərman vasitəsinin məlum olan ilk qeydiyyat tarixi;

2.1.25. dərman vasitəsinin beynəlxalq qeydiyyat tarixi - bu Qaydanın 2.1.24-cü yarımbəndində nəzərdə tutulmuş dərman vasitələri istisna olmaqla hər hansı bir ölkədə dərman vasitəsinin ilk qeydiyyat tarixi;

2.1.26. məlumat kilid tarixi - dövri olaraq yenilənən təhlükəsizlik hesabatında verilən məlumatların toplanmasının bitdiyi tarix.".

2. 3.8-ci bəndə "rus" sözündən sonra ", türk" sözü əlavə edilsin.

3. 13-cü hissə üzrə:

3.1. 13.1-ci bəndə "vəsiqə sahibi" sözlərindən sonra ", müalicə-profilaktika müəssisələri, tibb və əczaçılıq işçiləri" sözləri əlavə edilsin;

3.2. 13.2-ci bəndə "Vəsiqə sahibi" sözlərindən sonra ", müalicə-profilaktika müəssisələri, tibb və əczaçılıq işçiləri" sözləri əlavə edilsin;

3.3. 13.4-cü bəndə "Vəsiqə sahibi" sözlərindən sonra "və müalicə-profilaktika müəssisələri" sözləri əlavə edilsin;

3.4. 13.5-ci bəndin birinci abzasına "Vəsiqə sahibi" sözlərindən sonra "və müalicə-profilaktika müəssisələri" sözləri əlavə edilsin.

4. 16-cı hissə üzrə:

4.1. 16.2.3-cü və 16.2.8-ci yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

"16.2.3. dərman vasitəsinin satışda olduğu digər ölkələrdən əldə etdiyi dərman vasitəsinin istifadə təlimatında əks edilən məlumatlara uyğun olmayan ciddi əlavə təsirlər haqqında bildirişləri həmin məlumatı aldıqdan sonra 15 (on beş) təqvim günü müddətində Quruma göndərir;

16.2.8. təsiredici maddəsi Avropa Dərman Agentliyinin rəsmi internet saytında göstərilən "Dərman vasitələrinin Avropa İttifaqında (Aİ) qeydiyyat tarixləri və dövri olaraq yenilənən təhlükəsizlik hesabatının təqdim edilmə müddətləri siyahısı"na (List of EURDs and frequency of submission of PSURs) daxil edilən dərman vasitələrinə (təsiredici maddə əsas götürülməklə) münasibətdə dövri olaraq yenilənən təhlükəsizlik hesabatını dərman vasitəsinin qeydiyyat tarixinə uyğun olaraq həmin siyahı ilə müəyyən olunmuş müddətdə və dövrilikdə Quruma təqdim edir;";

4.2. aşağıdakı məzmunda 16.2.8-1-ci və 16.2.8-2-ci yarımbəndlər əlavə edilsin:

"16.2.8-1. təsiredici maddəsi bu Qaydanın 16.2.8-ci yarımbəndində qeyd olunan siyahıya daxil edilməyən dərman vasitələrinə (təsiredici maddə əsas götürülməklə) münasibətdə dövri olaraq yenilənən təhlükəsizlik hesabatını həmin dərman vasitələrinin ilk dövlət qeydiyyatı Azərbaycan Respublikasında olduğu halda onların qeydiyyata alındığı tarixdən və ya dərman vasitəsinin beynəlxalq qeydiyyat tarixindən etibarən ilk 2 (iki) il ərzində hər altı aydan bir, sonrakı 2 (iki) il ərzində ildə bir dəfə, sonrakı dövr ərzində - hər 3 (üç) ildən bir Quruma təqdim edir;

16.2.8-2. dövri olaraq yenilənən təhlükəsizlik hesabatını məlumat kilid tarixindən etibarən 90 (doxsan) təqvim günündən gec olmayaraq Quruma təqdim edir;";

4.3. 16.2.9-cu yarımbənd aşağıdakı redaksiyada verilsin:

"16.2.9. dərman vasitəsi yenidən dövlət qeydiyyatına alındığı zaman dövri olaraq yenilənən təhlükəsizlik hesabatını Quruma təqdim edir;".

5. 19.4-cü bənddə "tibb müəssisələrinin" sözləri "müalicə-profilaktika müəssisələrinin" sözləri ilə əvəz edilsin.

Əli ƏSƏDOV,
Azərbaycan Respublikasının
Baş naziri

Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

№ 167 **Bakı şəhəri, 18 mart 2024-cü il**

"Dövlət-özəl tərəfdaşlığı Qaydaları"nın təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Dövlət-özəl tərəfdaşlığı haqqında" Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 691-VIQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanında dəyişiklik edilməsi və "Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 15 mart tarixli 177-VQ nömrəli Qanununun tətbiqi barədə" 2016-cı il 20 aprel tarixli 867 nömrəli, "Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin investorlar tərəfindən "Tik-idarə et-təhvil ver" modeli çərçivəsində həyata keçirilməsinin şərtləri, tikinti və infrastruktur obyektlərinin növlərinə uyğun olaraq investorlar qarşısında qoyulan tələblər, bağlanılan müqavilələrin xüsusiyyətləri və şərtləri, investisiya qoyuluşu nəticəsində əldə olunacaq mal və xidmətlərin dəyərinin müəyyənləşdirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2016-cı il 7 dekabr tarixli 1149 nömrəli fərmanlarının ləğv edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 27 dekabr tarixli 1919 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Dövlət-özəl tərəfdaşlığı Qaydaları" təsdiq edilsin (əlavə olunur).

2. Müəyyən edilsin ki, ehtimal olunan ümumi dəyəri 30 (otuz) milyon manatdan yuxarı olan layihələr "Dövlət-özəl tərəfdaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən dövlət-özəl tərəfdaşlığı qaydasında həyata keçirilir.

3. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.

Əli ƏSƏDOV,
Azərbaycan Respublikasının
Baş naziri

Gimnastımız Paris Olimpiadasına lisenziya qazanıb

Azərbaycan komandası Paris Yay Olimpiya Oyunlarına daha bir lisenziya qazanıb. Bu nüfuzlu yarışa növbəti vəsiqəni batut gimnastikası üzrə Azərbaycan millisinin üzvü Selcan Mahsudova əldə edib.

Bu, Azərbaycanın gimnastika tarixində batut gimnastikası üzrə əldə etdiyi ilk lisenziyadır. Bu növdə millimizin baş məşqçisi Vladimir Şulikin Azərbaycan gimnastika məktəbinin yetirməsi olan Selcan Mahsudovanın "Paris-2024"ə vəsiqə qazanmasını qürurverici hal adlandırıb:

– Azərbaycan gimnastika məktəbinin yetirməsi olan Selcan Mahsudovanın bu nüfuzlu yarışa lisenziya qazanması bizi çox qürurlandırır. Bu gimnastla uzun yol qət etmişik. Azərbaycanda 10 ildir ki, batut gimnastikası inkişaf edir və mən şadam ki, bu müddət ərzində biz belə yaxşı nəticə əldə etmişik. Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban xanım Əliyevaya bizə göstərilən dəstəyə, diqqətə və idmançıların hazırlanmasına yaradılan şəraitə görə dərin minnətdarlığımı bildirirəm. Bu dəstək olmasaydı, biz lisenziya qazana bilməzdik. 10 il ərzində bu gimnastika növünü inkişaf etdirmək və lisenziya qazanmaq böyük və əhəmiyyətli bir işdir. Hamı bizi təbrik edir. Olimpiya lisenziyasını qazandığımızı hələ də tam

dərk etməmişəm. İndi hər şey yenidən başlayır, arxayınlaşmamalıyıq. Qarşıda bizi Avropa çempionatı gözləyir. Selcanın yüksək idman formasında olmasına çalışacağıq. İndi bütün diqqətimizi Olimpiya Oyunlarına hazırlığa yönəldəcəyik.

Selcan Mahsudova Paris Oyunlarına lisenziya qazandığı üçün çox sevindiyini deyib. O qeyd edib ki, Olimpiya Oyunlarına lisenziya qazanmağı qarşıya məqsəd qoymuşdu:

– Bu, mənim başlıca arzum idi. Sevinirəm ki, əziyyətim yerdə qalmadı və arzum həyata keçdi. Ümid edirəm ki, qazandığım nəticə gəncləri də ruhlandıracaq və onlara örnək olacaq. Gənclərimizin də gələcəkdə bu növ üzrə Olimpiya Oyunlarında ölkəmizi təmsil edəcəklərinə inanıram.

İdmançı qarşıdakı Avropa çempionatında medal qazanmaq üçün yüksək şanslarının olduğunu deyib. Bildirib ki, Olimpiada ərəfəsində keçiriləcək qitə çempionatında yüksək nailiyyət qazanaraq bayrağımızı dalğalandırmaq onun böyük arzusudur.

Qeyd edək ki, daha əvvəl bədii gimnast Zöhrə Ağamirova da olimpiya lisenziyasına sahib çıxıb. Bununla da, Azərbaycan komandasının Paris Olimpiadasına qazandığı rəsmi lisenziyaların sayı 11-ə çatıb.

L.QURBANOVA
XQ

"Qılınc və qələm" Xarəzmdə

Özbəkistanın Ürgənc Dövlət Universitetində görkəmli yazıçı Məmməd Səid Ordubadinin "Qılınc və qələm" romanının özbək dilində nəşrinin təqdimatı keçirilib.

Ali məktəbin Yusif Vəzir Çəmənzəminli adına Azərbaycan mədəniyyəti və ədəbiyyatı mərkəzində baş tutan tədbiri universitetin prorektoru, professor Sərdar Xocaniyazov açaraq "Qılınc və qələm" tarixi romanının özbək dilində nəşrini Özbəkistan-Azərbaycan ədəbi-mədəni əlaqələrinin möhkəmlənməsi istiqamətində yeni bir addım kimi qiymətləndirib.

Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin əməkdaşı Kərimulla Məmmədzadə iki ölkə arasında ədəbi-mədəni əlaqələrdən söz açaraq bu yöndə Mədəniyyət Mərkəzinin həyata keçirdiyi layihələrdən danışıb. Özbəkistanlı oxucularda Azərbaycan yazıçılarının əsərlərinə böyük maraq olduğunu qeyd edən K.Məmmədzadə Mədəniyyət Mərkəzi tərəfindən indiyə qədər müxtəlif mövzularda çox sayda əsərin özbək dilinə tərcümə edilərək nəşr olunduğunu diqqətə çatdırıb.

Özbəkistan–Azərbaycan Dostluq Cəmiyyətinin icraçı direktoru, professor Erkin Nuriddinov iki qardaş ölkə arasında

əlaqələrin dərin, qədim tarixi köklərindən söz açaraq ədəbi əlaqələrin də yüksək səviyyədə olduğunu, Azərbaycan Mədəniyyət Mərkəzi tərəfindən bu sahə üzrə məqsədyönlü işlərin aparıldığını qeyd edib.

Ürgənc Dövlət Pedaqoji İnstitutunun pedaqogika fakültəsinin dekan müavini Şadyar Dostcanov, ədəbiyyat fakültəsinin dekanı Dilşod Qayipov çıxış edərək "Qılınc və qələm" tarixi romanının özbək dilinə tərcüməsini ədəbiyyatşünaslıq sahəsində mühüm hadisə adlandırıb, Azərbaycan tarixinin, mədəniyyətinin, ədəbiyyatının öyrənilməsi baxımından çox dəyərli bir mənbə olduğunu vurğulayıblar.

Qeyd edək ki, Daşkənd şəhərində fəaliyyət göstərən "Niso naşriyot va matbaa uyi" poliqrafiya mərkəzində nəfis şəkildə çap olunan "Qılınc və qələm" tarixi romanının tərcüməçiləri Nazira Aliyeva, Muhsin Hamidov və Rustam Komilov, redaktoru və ön sözün müəllifi alim Abdulla Uluqovdur.

Romanın Mədəniyyət Mərkəzi tərəfindən Özbəkistanın aparıcı kitabxanalarına, ali təhsil ocaqlarına paylanması nəzərdə tutulub.

Qulu KƏNGƏRLİ
XQ-nin xüsusi müxbiri

Urgənc

REPLİKA

"O əjdaha"dan bizdə də olacaqmı?

Gürcüstan millisinin "AVRO-2024"-ə vəsiqə qazanmasına sözardı

Futbol üzrə Gürcüstan millisinin "Avro-2024"-ə vəsiqə qazanması mühüm hadisədir. Təkcə idman hadisəsi deyil, həm də tarixdir. Sosial şəbəkələrdə bununla bağlı diskussiyalarda bir ana xətt diqqət çəkir. Məşhur Azərbaycan filmində deyildiyimi kimi, "o əjdahadan bizdə niyə yoxdur?"

Bəli, obrazlı desək, bizə əjdaha lazımdır. Bu barədə düşünərkən reallıqları deməliyik. Etiraf etməliyik ki, hələ sabiq SSRİ zamanında da gürcülərdə futbol bizdən güclü olub. Ölkə yığmasında həmişə üç-dörd gürcü futbolçu yer alıb. Kipiani, Kavazaşvili, Mesxi, Metreveli, Şengeliya, Çivadze, Daraseliya kimi SSRİ yığmasının əfsanələri olublar. Bizdə də futbolçular olub. Amma, Banişevski istisna olmaqla, onlara "əjdaha" deyə bilməmişik.

Gürcüstanın futbol məktəbi güclü idi və indi də güclüdür. Amma hazırda futbol, demək olar ki, bütün ölkələrdə populyardır. "Futbolu hamı oynayır, udan almanlar olur" kimi klişe də əhəmiyyətini itirib. Ona görə də "gürcülər bizdən üstündürlər və ya biz zəifik" tipli deyimləri və onlar ətrafında isteriyanı da kənara qoymalıyıq. Təəssüf ki, qoya bilmirik. Baxırıq ki, ömründə futbola baxmayan biri Gürcüstan futbolçularının Avropa çempionatına çıxmasını Azərbaycan əleyhinə anti-təbliğata çevirir. Siyasi bəyanatlar verənlər də tapılır. Nə isə...

Nəyin üzərində ciddi çalışırsansa, ona əmək sərf edirsənsə, mütləq bəhrəsi olur. Gürcülər çox çalışıblar, bəhrəsini də görürlər. Futbol üzrə Avropa çempionatındadırlar. Biz klub futbolu müstəvisində "Qarabağ" üzərində çox çalışdıq, faydasını da gördük. Niyə milli komanda səviyyəsində zəifik, bunu soyuq başla düşünməliyik. Kəsəsi, ilk növbədə, düz-əməlli uşaq futbolumuzun olmadığına diqqət yetirməliyik.

Uşaq futbolu. Bunu düşünərkən, nəzərə almalıyıq ki, futbol təkcə oyun deyil, həm fəlsəfədir, həm də siyasət. Siyasətə strateji yanaşırıqsa, uğur qazanırıqsa, ölkəmiz, xalqımız əleyhinə olan yüz illik planı pozub dünyada özümüzə rəğbət formalaşdırırıqsa, siyasəti hansısa lokal maraqların əsirinə çevirmiriksə, futbola da münasibətimiz məhz bu tərzdə olmalıdır. Futbola strategiya kimi yanaşmalıyıq. Orduya yanaşdığımız kimi. Onu ayrı-ayrı biznesmenlərin, iş adamlarının, vəzifəli şəxslərin səxavətinə məhkum duruma salmamalıyıq.

Futbol böyük biznesdir. O, özünə xırda ticarət obyekti kimi yanaşılmasını sevmir. Böyük biznesə böyük yatırım da qoyulmalıdır. Düşünülməməlidir ki, onun faydası tez bir zamanda olmalıdır. Faydaya doğru səbrlə addımlamaq, bu düşüncəni rəhbər tutmaq, əzmlə çalışmaq şərtdir. Ümumən, şərtlər, görüləcək işlər çoxdur. Hələlik, ümid edək ki, o əjdahadan bizdə də olacaq.

P.S. Milli futbol komandasının böyük uğuru münasibətilə dost və qonşu gürcü xalqını səmimi qəlbdən təbrik edirik!

R.ƏVƏZ
XQ

Redaksiyamıza yazırlar

Sumqayıt–Bakı: "dəmir axın" niyə axmır?

Sumqayıt–Bakı yolunda tıxac problemi uzun illərdir ki, həllini tapmır. Bununla bağlı indiyədək hazırlanan layihələrin icrası da heç bir nəticə vermir. Beləcə, Sumqayıtdan paytaxta gələrkən Xırdalan dairəsindən başlanan tıxac 20 Yanvar dairəsinədək uzanır.

Bu problemin əsas səbəbi, təbii ki, nəqliyyat sıxlığı ilə bağlıdır. Çünki hər səhər Bakıya avtomobillər təkcə Sumqayıtdan yox, həm də Quba, Xaçmaz, Şabran, Xızı rayonlarından və digər yaşayış məntəqələrindən daxil olur. Bir avtomobilin yolda dayanması və yaxud nasaz olması isə tıxacı daha da artırır. Onu da qeyd edim ki, insanların çoxu Sumqayıtdan Bakıya və əksinə, elektrik qatarları ilə getsə də, bu, nəqliyyat sıxlığını aradan qaldırmağa əsaslı təsir göstərmir. Beləliklə, tıxac hər gün səhər və axşam saatlarında özünü qabarıq büruzə verir.

Mətbuatda bildirilir ki, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan AYNA tıxacın qarşısını almaq, yaxud azaltmaq üçün alternativ yol layihəsi hazırlayır. Amma bu layihə tamamlandıqdan sonra onun nə vaxt icrasına başlanacağı və müsbət bir nəticəsi olacağı bilinmir. Ona görə də hələlik ümid AYNA və yol polisinə qalır. İnanıram ki, adları çəkilən qurumlar bu məsələ ilə bağlı fəaliyyətlərini daha da gücləndirə, hərəkətin intensivliyini tənzimləyə bilərlər.

Qəzənfər NADİRXANLI,
Sumqayıt sakini

"Sahib çıxdığımız itlər niyə yoxa çıxır?"

Canlı Aləmin Mühafizəsi "Alyans" İctimai Birliyindən "Xalq qəzeti"nin redaksiyasına məktub daxil olub. Qurumun sədr əvəzi Arzu Gülmalıyeva yazır:

Martın 18-də //www.xalqqazeti.az/-da verilmiş "Küçə" itlərinin hücumu: Kimdir günahkar?" başlıqlı yazını oxudum. "Yaşıl Dünya" Ekoloji Maarifləndirmə İctimai Birliyinin sədri Elman Cəfərlinin Bakıda birkalı itlərin gözə dəyməməsi ilə bağlı fikirləri həyəcan siqnalıdır.

Birkalı itlərin son vaxtlar qrup halında zəhərləyib, yaxud güllələləməklə öldürülməsi halları çoxalıb. Polisə dəfələrlə müraciət etmişik. Sumqayıtda, təxminən, 15 könüllü qadından ibarət qrupumuz indiyədək yüzlərcə iti aparıb IDEA Heyvanlara Qayğı Mərkəzində qısırlaşdırıb. 80 iti şəxsi vəsaitimizlə sığınacaqda saxlayırıq. Tək bizim köməyimizlə 380 it qısırlaşdırıb, birkalanıb, peyvəndlənib, əvvəlki əraziyə buraxılıb. Bu, tək bizim statistikadır.

Sumqayıtda digər heyvansevərlər də qısırlaşdırma ilə bağlı çoxlu işlər görürlər. Eləcə də, Bakıdan minlərcə itin müvafiq dövlət qurumlarında qısırlaşdırılıb, peyvənd edilməsi üçün dövlət tərəfindən hər cür şərait yaradılıb. Bu işin görülməsinə müəyyən şəxslər tərəfindən yaradılmış sığınacaqlar da öz töhfələrini verir. Birkalayıb, peyvənd etdiyimiz itləri nəzarətdə saxlayır, müəyyən ərazidə onları yedirdirik. Bu itlərin, demək olar ki, hamısı bir müddət sonra "yoxa" çıxır.

Çox təəssüf olsun ki, onların güllələnmiş cəsədlərinə bir sıra yerlərdə, hətta mərkəzi küçələrdə rast gəlirik. Bəzilərini yaralı halda tapır, baytara aparır, uzun

müddət müalicəsi ilə məşğul oluruq. Əslində, bu işin izinə düşmək çox asandır. Çünki mərkəzi küçələrdə kameraları açıb baxmaq olar. Bunu tələb etsək də, Sumqayıt Şəhər Polis İdarəsində imtina edirlər. Güllə yarasından bəzən ölməyən itləri götürüb, aylarla müalicə edirik.

Dövlətimiz "kiçik dostlarımız"ın küçələrdə tamamilə insanlar üçün təhlükəsiz gəzməsindən ötrü hər bir tədbiri görür. Bəs bu işə kölgə salmaq istəyənlər kimlərdir? Çox maraqlıdır ki, eyni ərazidə birkalı itləri öldürüb, vəhşi şəkildə it sürüsünü vecinə almayan qurumlar hansı məqsədi güdür? İtlərin küçələrdə balalamasına, çoxalmasına şərait yaradan kimlərdir və bu, nə məqsədlə edilir?

Xahiş edirik, fikirlərimizin qəzetiniz vasitəsilə işıqlandırılmasına kömək edəsiniz.

HÜSEYNQULU SARABSKİ – 145

Azərbaycan teatr sənətinin Məcnunu

Yazın ilk ayı Azərbaycanın teatr həyatında əlamətdar hadisələrlə zəngindir. Artıq 11 ildir ki, martın 10-da ölkəmizdə Milli Teatr Günü qeyd edilir. 27 Mart Beynəlxalq Teatr Gününün təsis olunmasından isə 63 il keçir. Bu yaz görkəmli aktyor, opera müğənnisi, pedaqoq, rejissor, dramaturq, Xalq artisti Hüseynqulu Sarabskinin anadan olmasının 145 illiyi ilə də əlamətdardır.



Səhnəmizin ilk Məcnunu olmuş Hüseynqulu Sarabski 1879-cu il martın 20-də Bakıda dünyaya göz açıb. Azərbaycan peşəkar milli teatr sənətinin inkişafında böyük xidmətləri olmuş bu görkəmli sənətkarın adı mədəniyyət tariximizə qızıl hərflərlə həkk edilib. İstər opera, istərsə də dramatik teatr səhnələrində müğənni və aktyor kimi onun yaratdığı obrazlar uzun illər tamaşaçıları valeh edib.

Hüseynqulu Sarabski teatrda ilk addımlarını 1902-ci ildə dramaturq və ictimai xadim Nəriman Nərimanovun təşkil etdiyi "Müsəlman dram cəmiyyəti"ndə atıb. Bununla yanaşı o, "Nicat", "Səfa" mədəni-maarif cəmiyyətlərinin dram dəstələrində, "Müsəlman artistləri ittifaqı"nda dramatik aktyor kimi çıxış edərək, əsl sənət məktəbi keçib. Böyük istedad sahibi olmuş Sarabski istər milli, istərsə də xarici dramaturqların əsərləri əsasında hazırlanan tamaşalarda oynadığı saysız-hesabsız dramatik obrazları böyük ustalıqla yaradıb.

Kiçik bir təsadüf Hüseynqulu Sarabskinin istedadının yeni ampluada nümayiş etdirilməsinə gətirib çıxarıb. Belə ki, onun Henrix Heynenin "Əl-Mənsur" pyesində ərəb rolunda çıxışı zamanı oxuduğu "Hicaz" muğamı tamaşanı izləyən Üzeyir Hacıbəylini təsirləndirib. Bəstəkar yenicə üzərində işləməyə başladığı "Leyli və Məcnun" muğam operasında Məcnun rolunu oynamağa məhz H.Sarabskinin layiq olduğu qənaətinə gəlib. Bu hadisə dram aktyorunun taleyində yeni mərhələyə keçidin başlanğıcını qoyub.

Beləliklə, Azərbaycan xalq musiqisinin, muğamların mükəmməl bilicisi kimi diqqəti cəlb edən Hüseynqulu Sarabski "Leyli və Məcnun"da Məcnunun ilk və əvəzedilməz ifaçısı kimi məşhurlaşıb. O, həmin rolu məharətlə ifa etdiyinə görə adına "səhnəmizin Məcnunu", "operamızın yaraşığı" kimi titullar qoşulub. Aktyor bu obrazı hər dəfə böyük həvəs və şövqlə oynayıb və tamaşaçıların dərin rəğbətini qazanıb.

Məhz Məcnun rolunun ifasından sonra Hüseynqulu Sarabski haqqında dövri mətbuatda çox sayda müsbət rəylər dərc olunmağa başlayır. Bu rəylərdə aktyor-müğənninin parlaq sənəti, məftunedici səsi və səhnə istedadının ilk Azərbaycan milli operasının uğur qazanmasında mühüm rol oynadığı göstərilir.

Məsələn, 1914-cü ildə tənqidçi-alim Əziz Şərif istedadlı sənətkarın ifasını belə dəyərləndirirdi: "H.Sarabski öz rolunu böyük ustalıqla oynayır. O, həqiqi mənada Məcnun obrazını səhnədə canlandırır... Sarabski bütün səhnələri yaxşı, olduqca yaxşı ifa edir. Son səhnədə o, Məcnunun ölümünü elə təbii oynayır ki, sanki səhnədə ölüm ayağında artist yox, həqiqətən də, ağlını itirmiş Məcnundur. Onun ikinci səhnədə söylədiyi məntiqsiz və həyəcanlı sözlər və divanəlik, üçüncü səhnədə dağlarda yaşaması, ağlını itirən təki şikayətli ağısı – bütün bunlar dərindən düşünülmüş və virtuoz ifa olunan səhnələrdir".

Hüseynqulu Sarabskinin yaratdığı Məcnun obrazı onun sənətini davam etdirənlər üçün də bir örnək olmuşdur. Dahi Üzeyir Hacıbəylinin sözləri ilə desək, "Aktyorluq dərsi oxumamış, obraz yaratmaq sənətini keçməmiş, məktəb və darülfünun bitirməmiş olan Hüseynqulu Sarabski olduqca çətin və mürəkkəb bir faciə təmsil edən Məcnun obrazını yaratmaq sahəsində öz-özündən elə bir məharət göstərdi ki, sair artistlər üçün bir nümunə, tam bir məktəb oldu".

Təsadüfi deyil ki, Hüseynqulu Sarabskinin məhz belə yüksək peşəkarlıqla ifa etdiyi Məcnun rolu tamaşaçı tərəfindən sevilərək, uzun müddət yaddaşlara həkk edilib. Opera sənətində qazandığı böyük uğur və şöhrət ona bu yolda daha yüksək nailiyyətlər qazanmağa imkan verib. Bunun davamı olaraq, dahi Üzeyir Hacıbəyli ilə Hüseynqulu Sarabski arasında yaradıcılıq birliyi dərinləşib. Belə ki, bu qarşılıqlı əlaqə və yaradıcı əməkdaşlıq nəticəsində bir-birinin ardınca Üzeyir bəyin yazdığı "Şah Abbas və Xurşud banu", "Əsli və Kərəm", "Rüstəm və Zöhrab", "Şeyx Sənan", "O olmasın, bu olsun", "Arşın mal alan", "Ər və arvad" və digər muğam operalarında və musiqili komediyalarında Hüseynqulu Sarabskinin ifası püxtələşir və sanki onların əsas "aparıcı" və mərkəzi "obraz"ına çevrilib.

"Hüseynqulu Sarabskinin iştirakı ilə" yazılmış afişalarda və anonslarda bu tamaşaların təkcə Bakıda deyil, Azərbaycanın müxtəlif guşələrində, eləcə də Tehranda, Tiflisdə, Dərbənddə, Moskvada və digər şəhərlərdə də nümayiş etdirildiyi məlum olur. Harada çıxış etməsindən asılı olmayaraq, Hüseynqulu Sarabskinin yüksək səhnə oyunu, məharətli muğam ifası o dövrdə milli opera teatrında "misli-bərabəri olmayan" bir sənətkar olduğunu sübut edib.

Hüseynqulu Sarabskinin 1919-cu il martın 4-də Azərbaycan muğam operalarının inkişafında ilk mühüm mərhələni tamamlayan M.Maqomayevin "Şah İsmayıl" operasının premyerasında baş rolda çıxışı, xüsusilə, əlamətdar olub. Burada o, tarixi şəxsiyyət və şair Şah İsmayıl Xətainin bədii obrazını yüksək aktyorluq bacarığı və virtuoz vokal ifası ilə nümayiş etdirə bilib. Operada aktyor həm muğam parçalarını, həm də ariya və duetləri böyük ustalıqla və özünəməxsus həssaslıqla ifa etdiyinə görə böyük tamaşaçı rəğbəti qazanıb.

Diqqətəlayiq haldır ki, Sarabski opera teatrında təkcə ifaçılıq qabiliyyətini deyil, həm də rejissorluq bacarığını göstərib. Bu da onun yaradıcılıq fəaliyyətinin vacib aspektlərindən biridir. Bizə məlum olan mənbələrə görə, o, həm opera, həm də dramatik tamaşaların rejissoru olub. Xüsusilə, onun M.Maqomayevlə birgə 1914-cü ildə təşkil etdiyi "Müsəlman opera truppası"nda rejissorluq fəaliyyəti bir sıra opera və musiqili komediyaların səhnələşdirilməsinə gətirib çıxarıb. İlk dəfə olaraq bu opera truppasında H.Sarabskinin rəhbərliyi altında A.Rubinşteynin "Sulamif" operasının dilimizə təcümə olunaraq ifa edilməsi Azərbaycan opera sənəti tarixində əlamətdar hadisəyə çevrilib. Bu, artıq şərq üslublu muğam opera ifaçılarının klassik Avropa tipli opera əsərlərini də ifa etməyə hazır olduqlarını göstərib. Əlbəttə, az bir vaxt ərzində belə bir ciddi addımın atılması Azərbaycan musiqili teatrı üçün mühüm tarixi irəliləyiş idi. Bu işdə Hüseynqulu Sarabskinin də əməyi danılmazdır.

XX əsrin 20–30-cu illəri Azərbaycan milli opera teatrının ən çətin, mürəkkəb və mövcudluğu üçün təhlükəli bir dövrü idi. Azərbaycan-türk operasının gələcək taleyi, yaşayıb-yaşamaması uğrunda gedən çox ciddi mübarizədə Hüseynqulu Sarabski öz məsləkdaşları – Ü.Hacıbəyli, M.Maqomayev və başqaları ilə birlikdə qəti mövqeyini bildirməkdən çəkinməyərək, əsl vətəndaş kimi çıxış edib. Bu zaman o, bütün çətinliklərə və təqiblərə baxmayaraq, əvvəllər olduğu kimi, yenə də öz sevimli obrazlarını məsuliyyətlə ifa etməkdə, Azərbaycanda Avropa tipli opera sənətinin formalaşdığı zamanda belə öz milli musiqi koloritini, ümumavropa üslubundan fərqli milli üslubunu qoruyub saxlamaqda inadlı idi.

Ömrünün sonunadək Hüseynqulu Sarabski Azərbaycan Dövlət Opera və Balet Teatrının ən öndə gedən aktyorlarından biri kimi fəaliyyət göstərib. Onun yaratdığı ənənə müasir dövrədək muğam opera ifaçıları tərəfindən uğurla davam etdirilir. Bu gün Hüseynqulu Sarabskinin 145 illiyi qeyd olunduğu bir dövrdə onun musiqili teatr səhnəsində açdığı çığırlar aydın istiqamət almış geniş magistral yola çevrilib.

Sarabski sənətinin tədqiqatçısı və onun müasiri olan Qubad Qasımovun hələ 1928-ci ildə aktyorun səhnə fəaliyyətinin 20 illik yubeliyi ərəfəsində yazdığı bu fikir bu gün də öz aktuallığını itirməyib: "Hüseynqulu Sarabskinin 20 illik yubileyi – türk səhnəsinin yubileyidir, türk incəsənətinin fəxridir". Həqiqətən, bu gün də biz H.Sarabskinin 145 illiyini qeyd etməklə deyə bilərik ki, bu, təkcə onun deyil, həmçinin, təməlini qoyduğu Azərbaycan musiqili teatrının, milli opera sənətinin təntənəsidir.

İnamla vurğulayaq ki, "universal istedad" sahibi olan Hüseynqulu Sarabski əsl teatr fədaisi idi. Teatra vurğunluq onu bu sənət ocağına bütün varlığı ilə bağlayıb. Onun ömrünün sonunadək bu sənət məbədində fəaliyyət göstərməsi bilik, qabiliyyət və bacarığını gənclərə öyrətməsi dövlətimiz tərəfindən layiqincə dəyərləndirilib. Hüseynqulu Sarabskinin sənəti bizim milli sərvətimiz, mədəni irsimizin parlaq səhifəsi kimi daim yaşayacaq və gələcək nəsillər üçün də bir örnək olacaq.

Gülüstan ƏLİYEVA,
sənətşünaslıq üzrə
fəlsəfə doktoru

Naxçıvanda elmi konfrans

AMEA-nın Naxçıvan Bölməsində 27 Mart Elm Günü münasibətilə "Naxçıvanın elm məbədi: AMEA Naxçıvan Bölməsi" mövzusunda elmi konfrans keçirilib.

Konfransda çıxış edən bölmənin sədri, akademik İsmayıl Hacıyev cəmiyyətin tərəqqisində elmin rolundan danışıb. Alim 27 mart 1945-ci ildə əsası qoyulan Azərbaycan Elmlər Akademiyasının elmin inkişafına verdiyi töhfələri qeyd edib. Natiq ölkəmizdə elmə və elmi ictimaiyyətə göstərilən diqqət və qayğıdan konkret faktlar əsasında bəhs edib.

Azərbaycan Milli Elmlər Akademiyasının 79 illik fəaliyyəti barədə ümumi məlumat verən bölmə sədri bildirib ki, ötən əsrin 70–80-ci illəri bu elm məbədinin qızıl dövrü kimi xarakterizə olunur. Bu, Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. 2001-ci ildə Ümummilli liderin imzaladığı xüsusi sərəncamla Azərbaycan Elmlər Akademiyasına "Milli" statusunun verilməsi, 2016-cı ildə "Elm haqında Azərbaycan Respublikası Qanunu"nun qəbul olunması, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 9 aprel tarixli sərəncamı ilə 27 mart tarixinin "Elm Günü" kimi təsis edilməsi, eləcə də elm sahəsində aparılan islahatlar elmə, elm adamlarına göstərilən diqqətin təzahürüdür. İsmayıl Hacıyev çıxışının sonunda kollektivi Elm Günü münasibətilə təbrik edib.

Sonra AMEA Naxçıvan Bölməsinin Elm və təhsil şöbəsinin müdiri, aqrar elmlər üzrə fəlsəfə doktoru, dosent Orxan Bağırov "AMEA Naxçıvan Bölməsinin yaradılması və fəaliyyəti" mövzusunda məruzə edib. O, bölmənin fəaliyyəti dövründə nəşr olunan əsərlərin statistik göstəriciləri, keçirilən beynəlxalq səviyyəli elm tədbirləri, beynəlxalq arxeoloji ekspedisiyalar və əldə olunan elmi nəticələr barədə məlumat verib, elm siyasətinin muxtar respublikada uğurlu icrasından danışıb.

Konfransda AMEA-nın müxbir üzvləri, professorlar Əbülfəz Quliyev, Vəli Baxşəliyev və filologiya elmləri doktoru Fərman Xəlilov rəhbərlik etdikləri elmi-tədqiqat müəssisələrinin fəaliyyətindən, əldə olunan elmi yeniliklərdən bəhs edərək, ölkə elmi ictimaiyyətinə Elm Günü münasibətilə təbriklərini çatdırıblar.

XQ

27 Mart Elm Günüdür

AMEA ölkənin sivil və intellektual inkişaf mərkəzidir

27 Mart Elm Günü münasibətilə Azərbaycan Milli Elmlər Akademiyasının Dairəvi salonunda humanitar tədqiqatlar və süni intellekt mövzusunda təntənəli mərasim keçirilib.

Toplantıdan əvvəl AMEA-nın prezidenti İsa Həbibbəyli, Milli Məclisin deputatlarından Azərbaycan Ağsaqqallar Şurasının sədri Eldar Quliyev, Fazil Mustafa, və Ülviyyə Həmzəyeva, Elm və Təhsil Nazirliyi Elm və ali təhsil siyasəti şöbəsinin müdiri Turxan Süleyman, Rəyasət Heyətinin üzvləri, həqiqi və müxbir üzvləri, AMEA-nın elmi müəssisə və təşkilatlarının təmsilçiləri Xalq rəssamı, akademik Ömər Eldarovun fərdi heykəltəraşlıq sərgisi, elmi ictimaiyyətə ilk dəfə təqdim olunan AMEA loqosunun eskizlərindən ibarət ekspozisiya, eləcə də Arxeologiya və Antropologiya İnstitutunun təqdim etdiyi eksponatlarla tanış olublar.

Təntənəli mərasimdə giriş nitq ilə çıxış edən AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli ölkənin elmi ictimaiyyətini təbrik edərək, alimlərimizin fədakar zehni fəaliyyətinin ölkəmizin ümumi tərəqqisinə və dövlətçiliyin möhkəmləndirilməsinə xidmət etdiyini vurğulayıb. Dövlətin elm siyasətinin aparılan tədqiqatların səmərəliyinə, sahənin problemlərinin həllinə yönəldiyini bildirən natiq Prezident İlham Əliyevin 2018-ci il 9 aprel tarixli sərəncamı ilə Azərbaycanda Elm Gününün təsis edilməsini alimlərimizin şərəfli əməyinə verilən yüksək qiymətin, məhsuldar zehni fəaliyyətin stimullaşdırılmasının daha bir təzahürü kimi dəyərləndirib.

Azərbaycan elminin qədim tarixi köklər üzərində inkişaf etdiyini söyləyən AMEA rəhbəri milli elmin təşkilatlanmasından sonra cəmiyyətin sivil dəyərlərlə zənginləşməsində onun mötəbər rolunun davamlı olaraq yüksəldiyini diqqətə çatdırıb. Akademik bildirib ki, 1923-cü ildə elmi-tədqiqat işlərini aparmaq üçün Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyətinin yaradılması, 1932-ci ildə bu əsasda SSRİ Elmlər Akademiyası Zaqafqaziya Filialının Azərbaycan Şöbəsinin təşkil edilməsi, 1935-ci ildə SSRİ EA Azərbaycan Filialının, nəhayət, 1945-ci ilin 27 martında 15 həqiqi üzvün iştirakı ilə Azərbaycan SSR Elmlər Akademiyasının yaradılması tarixə milli elmi təsisatın formalaşmasının inkişaf mərhələləri kimi daxil olub.

AMEA-nın ötən 80 ilə yaxın müddətdə şərəfli inkişaf yolu keçdiyini, bu inkişafın milli maraqlar zəminində davam etməsində Ümummilli lider Heydər Əliyevin müstəsna xidmətləri olduğunu qeyd edən akademik bildirib ki, sovet dövründə Ulu öndərin təşəbbüsü ilə Elmlər Akademiyasının maddi-texniki bazası əsaslı şəkildə yenidən qurulub, axtarış və tədqiqatların ölkə həyatı ilə əlaqələndirilməsi üçün geniş imkanlar yaradılıb. Müstəqillik illərində isə Ümummilli liderin fərmanı ilə 2003-cü ildə bu quruma Milli Elmlər Akademiyası statusu verilib.

Son illərdə Azərbaycan elminin Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində daha yüksək inkişaf mərhələsinə qədəm qoyduğunu söyləyən İsa Həbibbəyli əlavə edib ki, elmi tədqiqatlar ölkəmizin inkişaf strategiyasına və milli prioritetlərə uyğun həyata keçirilib, nəticədə böyük uğurlar əldə olunub. Dövlət başçısının qayğısı nəticəsində "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi təşkil olunub, Yüksək Texnologiyalar Parkı yaradılıb, AMEA-nın Mərkəzi Elmi Kitabxanasına yeni bina tikilib, Şamaxı Astrofizika Rəsədxanasının maddi-texniki bazası yeniləşdirilib, AMEA-nın yeni Nizamnaməsi təsdiq olunub.

"Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" ölkə başçısının 28 iyul 2022-ci il tarixli fərmanı Azərbaycan elminin inkişafında yeni mərhələyə, Elm və Təhsil Nazirliyinin AMEA ilə birgə ölkəmizdə elmi fəaliyyətin təşkili və nüfuzunun artmasına meydan açıb. "Heydər Əliyev İli"ndə isə AMEA-da Ümummilli liderin xalqımız və dövlətimiz qarşısındakı tarixi xidmətlərini əks etdirən 50-dən çox fundamental monoqrafiya və sanballı nəşr ərsəyə gətirilib. Qarabağın və Şərqi Zəngəzurun tarixinin, folklorunun, mədəniyyətinin, arxeologiyasının öyrənilməsi dərinləşdirilib, aparılan tədqiqatlar və bu mövzuda nəşr edilən kitablar əsasında Akademiyanın yeni Qarabağnamələr silsiləsi yaradılıb.

İsa Həbibbəyli yeniləşən akademiyada aparılan islahatlar içərisində elektron hərəkatın xüsusi yer tutduğunu, elmmetrik hesablamaların aparılması, AMEA alimlərinin əsərlərinə istinadların müəyyən edilməsi üçün beynəlxalq elmi bazalarda profillər yaradılması, elmi jurnalların elektron bazasının qurulmasının həyata keçirilməsi üçün MDB məkanında ilk dəfə olaraq Azərbaycan Milli Elmlər Akademiyasında "Elektron Akademiya" şöbəsinin yaradıldığını vurğulayıb. Eyni zamanda şöbənin əməkdaşları tərəfindən MDB məkanında ilk dəfə, Türk dünyasında isə TÜBİTAK-dan sonra məhz ölkəmizdə Virtual Elektron Resurslar Sistemi yaradılıb. Hazırda "Elektron Akademiya" şöbəsi tərəfindən elmmetrik hesablamalar aparmaq bacarıqlarına malik robot texnologiyalarının modelini yaratmaq üzərində işlər aparılıb.

Elm və Təhsil Nazirliyinin Elm və ali təhsil siyasəti şöbəsinin müdiri Turxan Süleyman çıxış edərək Prezident İlham Əliyevin Elm Gününün təsis edilməsi haqqında müvafiq sərəncamının Azərbaycan elminə, təhsilinə böyük diqqət və qayğının təzahürü olduğunu vurğulayıb.

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Fazil Mustafa AMEA-nın Azərbaycan xalqının intellektual potensialının formalaşmasında, onun sosial-ictimai tərəqqisində mühüm rol oynayan qurum olduğunu deyib.

Sonra ölkə başçısının 2 fevral 2024-cü il tarixli sərəncamı ilə "Heydər Əliyevin 100 illiyi (1923–2023)" Azərbaycan Respublikasının yubiley medalına layiq görülmüş şəxslərə mükafatlar təqdim olunub. Akademik Akif Əlizadə təltif olunanlar adından Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

Daha sonra elmi fəaliyyətində fərqlənən bir sıra alimlərə AMEA-nın Fəxri fərmanları təqdim olunub. Azərbaycan Respublikası Ağsaqqallar Şurasının sədri Eldar Quliyev isə qurumun Döş nişanı və Fəxri fərmanlarını elm xadimlərinə təqdim edib.

Toplantıda akademik Yusif Məmmədəliyev haqqında film nümayiş etdirilib. "Xalq rəssamı, akademik Ömər Eldarovla dialoq: sənət dünyası və gələcəyə baxış" mövzusunda dialoq təşkil olunub. Görkəmli heykəltəraşın həyat və fəaliyyətini əks etdirən "Hələ axşam deyil" sənədli filmi təqdim edilib.

XQ

Yalançı bayraq altında amansız terror

“Krokus Siti Hall” terroru: versiyalar fərqlidir, bəs izlər hara aparır?

Martın 22-də axşam Rusiyanın paytaxtı Moskvada avtomatlarla silahlanmış naməlum şəxslər “Krokus Siti Hall” konsert zalına basqın edərək, amansız terror aktı törətmişlər. “Krokus Siti Hall” Moskvanın 6 min 200 tamaşaçı tutumu olan ən böyük konsert salonudur. Hadisə həmin axşam “Piknik” qrupunun konsertinin başlamasına dəqiqələr qalmış baş verib və həmin dəqiqələrdə salonda artıq 6 minə yaxın adam olub.

Bu günə olan rəsmi məlumatlara görə, silahlı terror nəticəsində 139 nəfər həlak olub. 92 nəfər bugünədək xəstəxanalardadır və onlardan bir neçəsinin vəziyyəti ağır olaraq qalır. Rusiya Fövqəladə Hallar Nazirliyi konsert zalındakı xilasetmə işlərini artıq başa çatdırıb.

Hadisədən dərhal sonra Rusiyanın xüsusi xidmət orqanları silahlı basqında iştirak edən 4 nəfəri ölkəni tərk etmək istəyərkən Bryansk yaxınlığında ələ keçiriblər. Onların 4-ü də Tacikistan Respublikasının vətəndaşıdır. Paytaxt məhkəməsi terror aktının törədilməsində iştirak edən və onun təşkil edilməsində şübhəli bilinən 8 nəfər haqqında iki aylıq müvəqqəti həbs qəti imkan hökmü çıxarıb.

Dünyanın əksər ölkələrinin dövlət başçılarının və xalqlarının qətiyyətlə pislədiyi “Krokus Siti Hall” qanlı terroru haqqında bu yığcam informasiya ilə bəlkə də kifayətlənmək olardı. Törədənlər bəllidir və artıq həbs ediliblər. Lakin bu günədək bu qanlı və amansız hücumun arxasında kimlərin durduğu məlum deyil. ABŞ və digər Qərb dövlətləri İŞİD-i günahlandırır və Ukraynanın hər hansı iştirakını inkar edirlər. Lakin Rusiya tərəfi onların izahatını qəbul etmir.

Analitiklər bu hadisənin Rusiyanın xarici siyasətinə ciddi təsir göstərə biləcəyini və Moskvanın araşdırmasının nəticələrindən asılı olaraq, Ukrayna münaqişəsinin daha da genişlənməsinə səbəb ola biləcəyini istisna etmirlər. Onların fikrincə, terror aktında İslam Dövlətinin (İŞİD) mümkün iştirakı vəziyyəti daha da gərginləşdirir.

Terror aktından az bir müddət sonra konsert salonuna hücuma görə məsuliyyəti İslam Dövlətinin bir qolu olan “İŞİD-Xorasan” öz üzərinə götürüb. Cümə günü Amerika kəşfiyyatı da “Reuters”ə məhz İŞİD-in bu hadisədə iştirakını təsdiqləyib. Buna əsaslanan Ağ ev elə həmin gün əlavə edib ki, Ukraynanın Moskva vilayətində törədilən terror aktında əli olduğuna dair heç bir sübut görmür.

Rusiya prezidenti Vladimir Putin bazar günü televiziya müraciəti zamanı terror aktında iştirak edən 11 nəfərin, o cümlədən basqın edib insanlara fərq qoymadan atəş açan dörd nəfərin saxlanıldığını bildirib. Dövlət başçısının sözlərinə görə, onlar gizlənməyə çalışıblar və Ukraynaya doğru hərəkət ediblər, orada “Ukrayna tərəfində onların dövlət sərhədini keçmələri üçün pəncərə hazırlanıb”.

Əlbəttə, ABŞ və onun NATO müttəfiqlərinin nöqteyi-nəzərindən qeyri-insani terror hücumunda İŞİD-i günahlandırmaq asandır. Onlar uzun müddətdir ki “nizənin iti ucunu” Qərbin düşməninə yönəldirlər və Moskvada baş verən faciəyə görə, hətta hər hansı bir iddianı belə rədd edirlər. Amma bir çox ekspertlər və politoloqlar bu versiyanın çatışmazlıqlarını açıb göstərməkdən çəkinmirlər.

Ekspertlər ciddi şəkildə bildirirlər ki, güclü strukturun və ya şəbəkənin dəstəyi olmadan bir neçə terrorçunun təkbaşına belə bir əməliyyatı reallaşdıra biləcəyini təsəvvür etmək çətindir.Yaxalanan terrorçular ilk dindirmələrdə əslində birdəfəlik “işə götürülmüş cinayətkarlar” olduqlarını, yəni pul üçün bu cinayətə getdiklərini etiraf ediblər. Bununla belə, terrorçular sifariş verənlər və ya müştəriləri haqqında hələ ki, heç bir məlumat verməyiblər, bəlkə də vermək istəməyiblər.

Rusiyada populyar olan başqa bir versiya ondan ibarətdir ki, terror aktının əsl təşəbbüskarları və təşkilatçıları Kiyevdə axtarılmalıdır. Bu fərziyyəni müdafiə edənlərin fikrincə, Ukrayna Silahlı Qüvvələri döyüş meydanında Rusiyaya uduzur, münaqişənin axarını öz xeyrinə dəyişə bilmir. Terror aktı Ukrayna rəhbərliyinin öz yanaşmasını ifadə edə biləcəyi bir neçə “asimmetrik” üsullardan biridir.

Bu versiya da inandırıcı səslənir və şübhəsiz ki, Ukraynanın beynəlxalq imicinə zərbə vurur. Axı niyə sonda terrorçular Rusiya-Ukrayna sərhədindən qaçmağa çalışıblar və sərhədin təxminən 160 kilometrliyində yaxalanıblar? Belə görünür ki, hücum edənlər Ukraynaya təhlükəsiz daxil olub, orada sığınacaq tapmaq üçün ən azından ukraynalı tərəfdaşları ilə əvvəlcədən razılaşıblar.

Rusiyanın bu məsələdə maraqlı tərəf olduğunu nəzərə alıb orada irəli sürülən versiyaları bir anlıq kənara qoyaq və Qərbin özündə səslənən fikirlərə diqqət yetirək. Məsələn, keçmiş ingilis diplomatı Alister Kruk əminliklə bildirir ki, “Krokus Siti Hall”da terror törədənlər cihadçılar olmayıblar. “Judging Freedom”a müsahibəsində diplomat deyib: “Bu insanlar cihadçı deyillər. Çünki videoya baxdım və cihadçıların necə olduğunu bilirəm. Bilirsiniz, mənim işim cihadçıların ətrafında olmaq olub, ona görə də bilirəm”.

Qərbin bir çox mətbuat orqanları bu terror aktında hətta Türkiyə izinin olduğuna da rəsmiləşdirməyə çalışırlar. Görünür, Qərb izi azdırmaq üçün mümkün olan bütün çirkin niyyətlərə əl atmaqdan çəkinmir ki, təkcə bu qanlı ləkəni öz üstündən götürsün. Amma Türkiyə mətbuatı bütün bunlara çox sərt və əsaslandırılmış açıqlamaları ilə cavab verməkdədir. Məsələn, “Aydinlik Gazetesi” yazır ki, “Krokus”dakı terror aktı Nulandın Putinə vəd etdiyi “sürprizdir”. Nəşrin yazdığına görə, bu, Baydenin Putinə seçkilərdəki qəti qələbəsi şərəfinə “təbrik” də ola bilər.

Qəzet yazır: “Rusiya Putinin ətrafında birləşib. O, nəinki 87 faiz səs toplayıb, həm də rəqiblərini öz tərəfinə çəkib. Dünya ölkələrinin böyük əksəriyyəti Rusiya Federasiyasında keçirilən seçkilərin nəticələrini sevinclə qarşılayıb. Axı, Rusiyada sabitlik hamı üçün zəmanətdir. Dünya liderlərinin əksəriyyəti Putini təbrik edərək, birgə işləməyə hazır olduqlarını bildiriblər. Yalnız Qərb və konkret olaraq ABŞ bundan heç də məmnun deyil.

Daha sonra Moskvada terror aktı baş verir. Terrorçular fərq qoymadan atəş açır və konsert zalını yandırırlar. 130-dan çox ölü, yüzlərlə yaralı var. Bayden Putini özünəməxsus şəkildə təbrik edib”, – deyə “Aydinlik Gazetesi” yazır.

“Aydinlik Gazetesi” ilə eyni mövqedən çıxış edən “Yeni Şafak” nəşri də qeyd edir ki, bu əməliyyatla amerikalılar Rusiyaya zərbə endirmək, onun İslam dünyası ilə münasibətlərini pozmaq, həmçinin bir çox başqa məqsədlərinə nail olmaq idi. Məqalənin müəllifi Tamer Korkmaz bu mövzuda bir çox tarixi faktlara üz tutur və ABŞ xüsusi xidmət orqanlarının müsəlman dünyasında törətdiyi müxtəlif qanlı təxribatları sadalayaraq sonda yazır: “Aydın olur ki, ABŞ-ın İŞİD-in əli ilə Moskvada həyata keçirdiyi terror aktında məqsədi Türkiyə ilə Rusiya arasında yaxınlaşmanı hədəfə almaqdır. Lakin Moskva bu tələyə düşmədi”.

Müəllifin yazdığına görə, “dünya ictimaiyyətinin sionist İsrailə nifrət etdiyi bir vaxtda, ABŞ-ın bu hücumla bir daha diqqəti İslama yönəltmək və müsəlmanları terrorçularla eyniləşdirmək istədiyini görmək çətin deyil”.

Məqalənin yekununda müəllif yazır: “Onlar həmçinin Ukrayna münaqişəsi fonunda Rusiyanın sanksiyalarla təqibini dəstəkləməyən bəzi islam ölkələri ilə inkişaf edən əlverişli münasibətləri pozmaq istəyirdilər. Ancaq Moskva qarmağa düşmədi!”

Təbii ki, indi Rusiya prezidenti Putin belə hələ tam olaraq terror aktının Ukrayna tərəfindən həyata keçirildiyini demir. Ancaq Ukraynanın özündə bu qanlı aksiyadan danışan bəzi rəsmilər çıxışlarında bu hücumun hazırlanmasında iştirak etmədiklərini deyil, daha çox iştirakçı olduqlarına işarə edir və dolayısı ilə təşkilatçı olduqlarını gizlətmirlər. Məsələn, Ukrayna Təhlükəsizlik Xidmətinin rəhbəri Vasili Malyuk birbaşa efirdə keçmiş deputat İlya Kiva, bloger Vladlen Tatarski, yazıçı Zaxar Prilepinə və Luqansk Xalq Respublikasının keçmiş məmurlarına qarşı sui-qəsd cəhdlərinin təfərrüatlarını açıqlayıb.

Rusiya FTX-nin rəhbəri Aleksandr Bortnikov martın 26-da jurnalistlərə açıqlamasında bildirib ki, “terror aktını islamçı radikallar törədib və Ukrayna xüsusi xidmət orqanları bütün bu işlərdə onlara dəstək verib”. O qeyd edir ki, guya Ukrayna Yaxın Şərqdə yaraqlılara təlim keçib.

Bortnikov həmçinin bildirib ki, “Rusiyaya və Rusiya vətəndaşlarına qarşı cinayət törədən hər kəs qanuni hədəfdir”. A.Bortnikovun sözlərinə görə, Ukrayna hərbi kəşfiyyatının rəhbəri Kirill Budanovun tezliklə məhv edilməsi də istisna edilmir. Jurnalistin “Niyə hələ də sağdır?” sualına isə FTX rəhbəri belə cavab verib: "Hər şey qabaqdadır".

Keçmiş həmkarlarının dəsti-xəttinə yaxşı bələd olan MKİ-nin keçmiş analitiki Larri Conson deyir ki, Amerika kəşfiyyatı Kiyevin Moskvada terror əməliyyatı keçirməyi planlaşdırdığını bilməyə bilməzdi. Analitik “Dialogue Works” YouTube kanalına müsahibəsində bildirib ki, Ukrayna xüsusi xidmət orqanlarının müstəqil hərəkət etdiyini düşünsək belə, Vaşinqton gözlənilən təxribat barədə məlumatı qaçırmaz. Amma bu barədə rusiyalı həmkarlarına xəbərdarlıq etməli idi.

L.Conson vurğulayıb: “Mənim fikrimcə, ukraynalılar belə hesab ediblər ki, ABŞ-dan dəstək baxımından itirəcəkləri heç nə yoxdur. Artıq hər şeyi itiriblər. Heç kim qabağa qaçıb “gəlin onlara daha 61 milyard dollar verək!” demir.

Düşünürəm, məsələ belə olub: MKİ-nin zabitləri bu plandan, Ukraynanın nə edəcəyindən xəbər tutublar. İlk dəfə “Financial Times”a sızmanın baş verməsinin səbəblərindən biri də budur. Orada deyilirdi ki, “ukraynalılar özbaşına qaçıb çılğın şeylər edən bir dəstə vəhşi fillərdir və onların xeyirdən çox zərəri var”.

Bunun ardınca “OSINTdefender”dən bir tvit gəldi ki, bu, MKİ-ni sığortalamaq üçün edilmişdi, çünki bu, saxta şirkətdir və hökumət məlumatlarını yaymaq üçün əlverişli vasitə kimi istifadə edilir. O, “Financial Times”da dərc edilən məqalədəki bəzi şikayətləri təkrarladı: “ukraynalıları idarə etmək inanılmaz dərəcədə çətindir, onlar nəzarətdən çıxıblar və Vaşinqton onları cilovlamaq üçün addımlar atmağa hazırlaşır.

Ona görə də, çox güman ki, ukraynalılar “amerikalılara məlumat vermədən bunu edəcəyik” demişlər. Amma kimsə amerikalılara xəbər verib. Onlar isə həmin dəqiqə ukraynalıların planlarına qarışmayıb və deməyiblər: “Dayanın! Davam etsəniz, biz gedərik!” Onlar ruslara da xəbərdarlıq etməyiblər. Amma çox yəqin ki, onlar biliblər”.

İlqar RÜSTƏMOV
XQ

Almaniyaya nüvə silahı lazımdırmı?

NATO-ya şübhə ilə yanaşan Donald Trampın Ağ Evə qayıtması şanslarının artması fonunda Almaniyada ABŞ-a bağlanmadan ölkənin təhlükəsizliyinin təmin edilməsinin vacibliyi ilə bağlı müzakirələr aktivləşib. Alman siyasətçiləri və ekspertləri bu məsələdə əsas rolu nüvə silahı amilinə verirlər. Müxtəlif ssenarilər təklif olunur. Nisbətən real olan budur ki, nüvə arsenalına malik olan Fransa və Böyük Britaniya ilə təhlükəsizlik təminatları razılaşdırılmalıdır. İkinci variant isə ondan ibarətdir ki, ABŞ-dan min döyüş başlığı almaq və nüvə gücünə çevrilmək olar. Almaniya kansleri Olaf Şolts isə bütün bu söhbətləri mənasız hesab edir.

NATO dövlət və hökumət başçıları alyansın 75-ci ildönümünü qeyd etmək üçün bu yay Vaşinqtonda görüşəcəklər. Yubiley ərəfəsində təşkilata iki yeni ölkə daxil olub. Buna görə də, Alyans iştirakçılarının 75 illiyi yüksək əhval-ruhiyyədə keçirmələri üçün ciddi əsasları var. Bununla belə, sonrakı bəyanatlardan belə qənaətə gəlmək olur ki, hər şey o qədər də rəvan deyil və NATO üçün əsas problem onun Rusiya ilə qarşıdurması yox, alyansın ABŞ-dan güclü asılılığıdır. Məsələ ilə bağlı Vaşinqton Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzinin (CSIS) mütəxəssisi, keçmiş amerikalı diplomat Maks Bergman yazır: “Onilliklər ərzində ABŞ NATO-da mərkəzi yer tutdu, Avropanın müdafiəsinə rəhbərlik etdi və təşkilatı idarə etdi. NATO -nun Ali Baş Komandanı həmişə amerikalıdır və NATO-nun təhlükəsizliyinin əsas təminatı Amerikanın nüvə çəkindirici amilidir. Avropa döyüşəndə Amerika təyyarələrinə, Amerika hərbi nəqliyyatına və kəşfiyyatına güvənir. NATO ölkəsi hücuma məruz qalarsa, Amerika qoşunları döyüş əməliyyatlarına rəhbərlik edəcək”.

Onun sözlərinə görə, NATO-nun mövcudluğunun başlanğıcında, Avropa İkinci Dünya müharibəsindən sonra bərpa olunarkən, ABŞ bu rolu zərurət üzündən oynayırdı. “Ancaq Vaşinqton hər şeyi həll etməyə alışdı və Avropa liderləri əsasən ikinci dərəcəli rol ilə barışdılar. Avropanın ABŞ-dan asılılığı NATO-nun problemi kimi yox, xarakterik xüsusiyyəti kimi qəbul olundu”, - deyə müəllif qeyd edir. Lakin, onun proqnozuna görə, bu, uzun müddət davam edə bilməz: Birləşmiş Ştatlar tədricən Şimali Atlantika Alyansının təhlükəsizliyinin təmin edilməsində daha az əhəmiyyətli rol oynamağa çalışacaq, getdikcə diqqəti yayındıracaq. Bu tendensiya, ekspertin fikrincə, Ağ Evdə kimin hakimiyyətə gəlməsindən asılı olmayaraq özünü büruzə verəcək, ancaq eks-prezident Donald Tramp olsa, proseslər sürətlənəcək. “Atlantikanın hər iki tərəfində avropalıların öz təhlükəsizliklərinə görə məsuliyyət daşıması ilə bağlı konsensus yaranıb” – deyə politoloq yazısını yekunlaşdırır.

NATO-ya üzv olan bütün Avropa ölkələrindən bu mövzu ən çox Almaniyada müzakirə olunur. Donald Trampın Ağ Evə qayıtma şansı artdıqca bu müzakirələr də intensivləşib. Belə müzakirələrə sabiq prezident Donald Trampın Cənubi Karolina ştatında keçirilən seçki kampaniyasındakı məşhur çıxışı təkan verib. Xatırladaq ki, fevralın 10-da seçkiqabağı mitinqində Donald Tramp NATO-ya üzv olan ölkələrin hamısının ÜDM-in 2 faizini müdafiəyə xərcləməməsindən şikayətlənmiş və hamını “hesablarını ödəməyə” məcbur edəcəyini vəd etmişdi. Almaniya rəhbərliyi bu sözləri məsuliyyətsizlik adlandırmışdı. Amerika seçkiləri hələ nisbətən uzaqda olsa da və Donald Trampın qalib gəlmək şansları hələ bəlli olmasa da, Berlin Avropa NATO ölkələrinin tezliklə Rusiya ilə “üz-üzə” qalacağına ciddi hazırlaşmağa başlayıb. Belə bir vəziyyətdə öz təhlükəsizliyini necə təmin etmək sualının cavabı Almaniyadakı bəzi siyasətçilərə, ekspertlərə sadə görünür: Avropaya alman çəkindirmə potensialı lazımdır. Başqa sözlə, “Köhnə qitə” nüvə silahına malik olmalıdır.

Son həftələr Almaniyanın bütün əsas siyasi qüvvələrinin nümayəndələri Avropanın özünün tam hüquqlu çəkindirmə potensialına yiyələnməsinin lehinə çıxış ediblər. Avropa Parlamentinin sədr müavini və Almaniyanın hakim Sosial Demokrat Partiyasından (SPD) qarşıdan gələn seçkilərə namizədi Katerina Barli “Der Tagesspiegel” jurnalına müsahibəsində Avropanın ABŞ-ın “nüvə çətiri” tərəfindən etibarlı şəkildə qorunduğuna şübhə ilə yanaşıb: “Donald Trampın son bəyanatlarını nəzərə alsaq, buna artıq etibar etmək olmaz”. Xanım Barli Avropa ölkələrinin öz təhlükəsizliklərini təmin etmək barədə düşünməli olacaqlarını etiraf edib.

Almaniyanın maliyyə naziri Kristian Lindner (Azad Demokratik Partiyası) “Frankfurter Allgemeine Zeitung” üçün köşə yazısında da qeyd edib ki, Donald Trampın bəyanatları Almaniyanı və NATO-nun digər Avropa üzvlərini nüvə sahəsi də daxil olmaqla, ABŞ tərəfindən təmin edilən təhlükəsizlik zəmanətlərinə yeni bir nəzər salmağa təşviq etməlidir. Almaniyanın sabiq xarici işlər naziri Yoşka Fişer isə (hazırda hakim koalisiyanın bir hissəsi olan “Yaşıllar” partiyasını təmsil edir) “Die Zeit” qəzetinə müsahibəsində Avropa İttifaqını özünün “çəkindirmə potensialını” əldə etməyə çağırıb: “Rus mentalitetinə bələd olan hər kəs bilir ki, onlar yalnız amerikalıları ciddi qəbul edirlər. Niyə? Çünki onlar “soyuq müharibə”dən bəri buna öyrəşiblər və ABŞ çəkindirməni ciddi qəbul edən nüvə dövlətidir”.

Ancaq Almaniyada heç də hamı ABŞ-dan müstəqil “nüvə çətiri” yaratmaq ideyasını dəstəkləmir. İlk növbədə kansler Olaf Şolts (SPD) buna qarşıdır. Fevral ayında o, "Sueddeutsche Zeitung" qəzetinə demişdi ki, bu müzakirələrin məntiqli olduğunu düşünmür: “Almaniya çoxdan öz nüvə silahlarını inkişaf etdirməmək qərarına gəlib. Eyni zamanda, biz NATO-nun nüvə çəkindirici sisteminə inteqrasiya olunmuşuq. NATO-nun bütün məsul şəxsləri hesab edirlər ki, belə qalsa, daha yaxşı olar”. Keçən həftə Olaf Şolts "Der Tagesspiegel" jurnalına verdiyi müsahibədə eyni fikri təkrarlayıb: “Almaniyanın öz nüvə silahına ehtiyacı yoxdur. Hazırda NATO və transatlantik əməkdaşlığı şübhə altına almaq üçün heç bir əsas yoxdur. NATO-ya isə ABŞ-ın nüvə çətiri daxildir”.

Vətəndaşlar da nüvə silahı məsələsində eyni mövqedən çıxış etmirlər. Fevralın sonunda keçirilən ictimai rəy sorğusunda Almaniya sakinlərinin 57,8 faizi nüvə silahının əldə edilməsinə qarşı çıxıb. Respondentlərin 29,5 faizi Almaniyanın öz nüvə arsenalının olmasının yaxşı olacağını bildirib. Respondentlərin daha 12,8 faizi isə qərarsız qalıb. Onlardan Amerikanın “nüvə çətirini” fransız və ya ingilis çətiri ilə əvəz etmək barədə sual verilməyib.

Hazırladı:
Səbuhi MƏMMƏDOV
XQ

BİLDİRİŞ

“RƏVAN-TURAN" MMC-nin (VÖEN 1403045021) müflis elan olunması ilə əlaqədar Bakı Apellyasiya Məhkəməsində 2-2(103)–396/2024 nömrəli iş üzrə məhkəmə baxışı 4 aprel 2024-cü il saat 11.30-a təyin edilmişdir. Debitor və kreditorlar Bakı Apellyasiya Məhkəməsinə müraciət edə bilərlər.

Telefon – (012) 526-26-26.

Ünvan – AZ 1073, Bakı şəhəri, Z.Xəlilov küçəsi 540-cı məhəllə.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 63 (30467) 28 mart 2024-cü il, cümə axşamı

Sakura da Novruzda çiçək açır

Bir müddət əvvəl Yaponiyanın Meteorologiya Korporasiyası bu il sakuranın rəsmi çiçəkaçması üzrə proqnozlarını açıqlamışdı. Həmin proqnoza əsasən, Tokioda çiçəkaçmanın başlanmasının martın 23-nə təsadüf etməli idi. Necə demişdilər, elə də olub. Həmin gün ilk çiçəklər açmağa başlayıb. Bəli, "gündoğar" ölkənin müqəddəs ağacı da Novruzda çiçək açır.

Növbəti proqnoz belədir ki, paytaxtda sakuranın tam çiçəkləməsi dövrü martın 30-da olacaq. Amma çiçəkaçmanın pik dövrü aprelin 1-nə təsadüf edəcək. Osakada isə ağacın ilk çiçəkləri martın 25-də açıb, tam çiçəkləmə aprelin 1-də olacaq. Yaponiyanın ən şimal prefekturası olan Hokkaydoda sakura ən gec çiçək açacaq. Sapporoda sakura mövsümü mayın 2-nə, tam çiçəkləmə isə qrafik üzrə mayın 6-na təsadüf edəcək.

Sakura Yaponiyanın simvolu sayılır, ona "Gündoğan ölkə"nin hər yerində rast gəlmək olar. Sakuranın müxtəlif forma və rəng çalarlarına malik 16 növü və 400-ə qədər sortu var. Ağacın hündürlüyü ilk növbədə onun növ və yaşından asılıdır. Adi halda bitkinin hündürlüyü 8 metrə qədər olsa da, yaşı 1800 il olan ən qoca sakuranın boyu 24 metrə çatır.

Sakura ağacı yapon mədəniyyətinin məşhur bir hissəsi kimi tanınır. Yapon xalqının ən qədim ayinlərindən sayılan Hanami - "çiçəkləyən sakura bayramı" kimi qeyd edilir. Ağ, çəhrayı və sarı çiçək açan sakura bağları yaz aylarında cənnəti xatırladır. Lakin həmin dövr çox qısa olur - bəzən bir neçə gün, bəzən isə bir neçə saat davam edir. Buna görə də yaponlar üçün həmin çiçəklər ömrün gözəl, qısa və fani olmasının rəmzidir.

Şərq qadınlarının sakuraya olan rəğbəti dəridə cavanlıq və təravəti qoruma xüsusiyyətindən irəli gəlirdi. Onun çiçəklərindən hazırlanan dəmləmə, cövhər və maskalar cavan dərini təmizləmək və ağartmaq, yaşlı dərini isə nəmləndirib qidalandırmaq, saçların parlaqlıq və möhkəmliyini qaytarmaq üçün istifadə olunurdu. Sakuranın çiçək və yarpaqlarından alınan ekstratlar bütün dəri növlərinə qulluq üçün yararlıdır.

Ölkədə sakuraya heyranlıq çox qısa müddətdə - bir həftədən də az davam edir. Amma şimal və cənub prefekturalar arasında iqlim fərqi sayəsində yaponlar çiçəkaçma dövründən iki aydan çox zövq ala bilirlər. Çiçəkləyən sakuraya tamaşa etmək ən gözəl zövq sayılır, lakin Yaponiyada çiçək açan ilk ağac umedir (yapon albalısı). Məhz ondan sonra sakuranın zərif çiçəkləri açmağa başlayır.

Süleyman QARADAĞLI

Naftalanın aşıb-daşan bayram təntənəsi

Naftalan şəhəri həm müalicəvi neftinə, həm də son illər burada yaradılan müasir turizm infrastrukturuna görə ilboyu turistləri özünə cəlb etməkdədir. Təsadüfi deyil ki, yerli və xarici turistlər Novruz bayramı günlərini Beynəlxalq Turizm Mərkəzi hesab olunan Naftalanda qarşılamağa üstünlük veriblər.

Həmin günlər "loğman" şəhərə üz tutan turistlərin sayında xeyli artım müşahidə olunub. Onların istirahətinin mənalı və yaddaqalan olması üçün bayram günlərində otellərdə tanınmış musiqiçilərin iştirakı ilə konsertlər, milli adət-ənənəmizi özündə əks etdirən tədbirlər keçirilib, Novruz atributları ilə hazırlanmış əyləncəli şou proqramlar təqdim olunub.

Naftalanda yerləşən müasir otel və istirahət mərkəzləri bayram günlərində, ümumilikdə, 3500-dən çox yerli və xarici turistə xidmət göstərib.

Hamlet QASIMOV,
XQ-nin bölgə müxbiri

Qusar teatrı – "Qonaq teatr"ın qonağı

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Azərbaycan Teatr Xadimləri İttifaqının təşkilatçılığı ilə həyata keçirilən "Qonaq teatr" layihəsi çərçivəsində Qusar Dövlət Ləzgi Dram Teatrı Turqut Özakmanın iki hissəli "Adət" tamaşası ilə dünən Teatr Xadimləri İttifaqının səhnəsində paytaxt tamaşaçılarının qonağı olub.

Əsərdə iki ailə arasında uzun illər boyu baş vermiş qan davasının acı nəticələrindən bəhs olunur. Qanlı intiqam hissindən qurtula bilməyən insanları ağır aqibət gözləyir. Bu ədavətə son qoya biləcək yeganə çıxış yolu sevgidir.

Əsərdə qan davasına bais olmuş ailələrin iki gənc təmsilçisi Zöhrə ilə Mustafa bu sevgi işığında bir-birilərinə qovuşmağa can atırlar. Tamaşa həm də qayğıkeşliyin, xeyirxahlığın və insanpərvərliyin keşiyində duran fədakar qadınlara həsr olunub.

Əsərin quruluşçu rejissoru Əməkdar artist Xəzər Gəncəli, rəssamı Marina Mahmudova, musiqi tərtibatçısı Şaiq Qardaşovdur. Rolları aktyorlar Şəkufə Mirzəğayeva, Bağır Əhmədov, Rəhilə Hacıbəyova, Sədaqət Əlimuradova və digərləri ifa edirlər.

Qeyd edək ki, "Qonaq teatr" layihəsi 2023-cü ilin may ayından etibarən təqdim olunur. Layihənin məqsədi bu il yubiley yaşı tamam olan teatrların (əsasən bölgə teatrlarının) tamaşalarını Teatr Xadimləri İttifaqının səhnəsində göstərməklə, onların yeni yaradıcılıq axtarışlarına şərait yaratmaqdır.

Fidan SALMANOVA
XQ

İdman

"Paolo De Aloya" turnirində gümüş medal

Azərbaycan idmançısı Diana Dımçenko akademik avarçəkmə üzrə "Paolo De Aloya" xatirə turnirində gümüş medal qazanıb.

İtaliyada təşkil edilən yarışda o, bir nəfərlik qayıqda 2000 metr məsafəyə yürüşlərdə təsnifat mərhələsini birinci pillədə tamamlayaraq finala vəsiqə qazanıb.

Burada avarkəçəni qızıl medaldan cəmi bir neçə saniyə ayırıb. Serbiyalı Arsik Yovanadan (08:01:16 - 08:05:47) dörd saniyə geri qalan yığma üzvü turnirin gümüş mükafatına sahib çıxıb.

Qeyd edək ki, Diana Dımçenko ötən il də "Paolo De Aloya" turnirində fəxri kürsüyə qalxıb. O, bütün rəqiblərini qabaqlayaraq birinci yeri tutub.

Gimnastımız Portuqaliyada 2-ci yeri tutub

Portuqaliyanın Kantanhede şəhərində aerobika gimnastikası üzrə "12-ci Kantanhede beynəlxalq açıq yarışı 2024" keçirilib.

Yarışda böyüklər arasında Arzu Ağayeva, Xədicə Quliyeva, Leyla Bejanovadan ibarət üçlük, birlikdə möhtəşəm xoreoqrafiya sərgiləyib. Onlar 2-ci yerin sahibi olaraq gümüş medal qazanıblar. Fərdi çıxışlar zamanı Leyla Bejanova 13-cü, Arzu Ağayeva isə 21-ci yerdə çıxışını başa vurub. Sözügedən yarışın, gənclər arasında baş tutan hissəsində isə Fidan İbrahimova, Leyla Əhmədova və Evelina Kozlovskayadan ibarət üçlük yarışı 17-ci sırada tamamlayıb. Fərdi çıxışlarda isə Məryəm Topçubaşova mübarizə apararaq 7-ci yerdə qərarlaşıb.

IV Avropa Oyunları İstanbulda olacaq

Türkiyə 2027-ci ildə təşkil olunacaq IV Avropa Oyunlarına evsahibliyi edəcək.

Bu barədə İstanbul Böyükşəhər Bələdiyyəsinin sədri Əkrəm İmamoğlu məlumat verib. O, yarışın İstanbul şəhərində təşkil olunacağını bildirib.

Qeyd edək ki, 2015-ci ildə Azərbaycanın evsahibliyi etdiyi yarış son olaraq, ötən il Polşanın Krakov şəhərində keçirilib.

Leyla SABİRQIZI
XQ

Hava

Yağmursuz və arabir dumanlı

Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən martın 28-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.

Şimal küləyi əsəcək. Gecə 5-8°, gündüz 13-18° isti olacaq. Atmosfer təzyiqi 764 mm civə sütunundan 767 mm civə sütununa yüksələcək, nisbi rütubət gecə 60-70, gündüz 45-55 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağıntılı olacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Şərq küləyi əsəcək Havanın temperaturu gecə 4-8, gündüz 16-21 dərəcə isti, dağlarda gecə 2-7 dərəcə şaxta, gündüz 2 dərəcə şaxtadan 3 dərəcəyədək isti olacaq.

Q.QASIMOV
XQ

Sağlamlıq

Boğaz ağrısı – turşu acısı?

Müxtəlif xəstəliklərin səbəb olduğu boğaz ağrılarını aradan qaldırmaq üçün, adətən, çay və bal qarışıqlarından istifadə edilir. Lakin amerikalı həkim Linda Yensi boğaz ağrısının dərmanının turşu olduğunu açıqlayıb.

Linda Yensi deyib ki, bir çoxumuz boğaz ağrısı ilə turşu arasında əlaqə qurmaqda çətinlik çəkə bilərik. Amma araşdırmalar turşunun boğaz ağrısını aradan qaldırmaq üçün əla vasitə ola biləcəyini göstərir. Onun sözlərinə görə, boğazda iltihabı aradan qaldırmaq üçün şirin qidalar deyil, duzlu qidalar qəbul etmək lazımdır. O, şüyüd turşusunu daha çox məsləhət görür. Ancaq təcili müdaxiləyə ehtiyac yarandıqda, evdə olan hər hansı turşudan da yararlanmaq olar.

Boğaz ağrısını aradan qaldırmaq üçün istehlak edilən turşuların miqdarı insandan asılı olaraq dəyişə bilər. L.Yensi bunun tibbi müdaxilədən daha çox xalq təbabətinə əsaslanan evdə müalicə üsulu olduğunu etiraf edir. Bildirir ki, turşu müdaxiləsi uzun müddətdə boğaz ağrısının təkrarlanmasının qarşısını almır. Ancaq qısa müddətə də olsa, şiddətli ağrıları aradan qaldırır.

Amerikalı həkim boğaz ağrılarında duzlu su qarqarasının da faydalı ola biləcəyini qeyd edib. O, duzdan da həddən artıq istifadəni məsləhət görmədiyini, turşunun və ya duzlu su qarqarasının boğazda ağrılar təzə başlayanda tövsiyə edildiyini vurğulayıb.

Z.HÜSEYNLİ
XQ

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3917
SİFARİŞ 572
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI

Çapa imzalanmışdır
00:00